[illegible]

84(5Azə)+63.3(5Azə)
B66

Bir
daha
yüksələn

BAYRAQ

Qarabağın azadlığı uğrunda
şəhid olmuş əsgərlərimizə və
qazilərimizə ithaf edirik.

Təhsil
C.Cabbarlı adına Respublika Gənclər
KİTABXANASI
İNV. № 204230



"Azərbaycanın bayrağı sadəcə bayraq deyil. O bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir... Ona görə də gərək hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin. Onda bayrağa olan məhəbbət eyni zamanda Vətənə, xalqa, dövlətə olan məhəbbətə bərabər olsun".

Heydər Əliyev

Azərbaycan xalqının Ümummilli lideri



"Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti



Ümummilli lider Heydər Əliyev
andiçmə mərasimində



Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyev andiçmə mərasimində

AZƏRBAYCAN RESPUBLİKASININ HİMNİ

Musiqisi Üzeyir Hacıbəylinin,
sözləri Əhməd Cavadındır.

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!
Azərbaycan! Azərbaycan!

Layihə rəhbəri və naşir: **Tural Axundov**

Tərdib edəni, ön sözün müəllifi və redaktoru:
Mustafa Çəmənli

Buraxılışa məsul: **Elşən Məmmədov, Bəhram Oruclu**
Koordinator: **Ruslan Ələkbərov**

B63 Bir daha yüksələn bayraq (albom-kitab). Bakı, "Təhsil", 224 səh.

Bu albom-kitaba həm Cümhuriyyət, həm də çağdaş müstəqilliyimiz dövründə vətənimizi və üçrəngli bayrağımızı vəsf edən poeziya nümunələri toplanmışdır.

Müasir oxucularımıza bayrağın tarixən necə müqəddəs bir dəyər olduğunu aşılamaq üçün kitaba Albaniya, Şirvanşahlar, Eldənizlər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər dövlətləri, Qarabağ, Şəki, Gəncə, İrəvan, Naxçıvan, Bakı, Təbriz və Xoy xanlıqları haqqında ensiklopedik bilgi verməklə yanaşı, bu dövlətlərin günümüzə gəlib çıxan bayraqlarının fotoları da təqdim olunmuşdur. Bununla yanaşı, bayraqların da əks olunduğu miniatürlərdən də istifadə edilmişdir.

Kitabı tərtib etməkdə əsas məqsədimiz 44 günlük Vətən müharibəsi zamanı milli bayrağımıza, Ali Baş Komandana, müzəffər ordumuza, qəhrəman şəhidlərimizə xalqımızın sonsuz sevgi göstərdiyini əyani şəkildə oxuculara çatdırmaq, onlarda vətənpərvərlik ruhunu yüksəltməkdir.

Şəhid və qazi şairlərin şeirlərindən nümunələr də daxil edilmiş kitabda Müdafiə Nazirliyinin Hərbi Orkestri də unudulmamışdır.

Tərtibçi albom-kitabda əksini tapmış qədim dövrlərə aid bayraqların foto-görüntülərinə görə Milli Azərbaycan Tarixi Muzeyinin, Dövlət Bayraq Muzeyinin və İstiqlal Muzeyinin əməkdaşlarına minnətdarlığını bildirir.

B $\frac{4702060206}{053}$ 2023

ISBN 978-9952-518-84-9

©"Təhsil Nəşriyyat-Poliqrafiya" MMC

BİR DAHA YÜKSƏLƏN BAYRAQ

Bayrağın tarixi dövlətlərin tarixi qədər qədimdir. Bayraq müstəqillik əldə etmiş hər bir millətin azadlıq simvoludur, onun ictimai-siyasi varlığının, müstəqilliyinin rəmzidir. Tarix üzrə fəlsəfə doktoru Könül İmamverdiyevanın qənaətinə görə, "Bayraq" sözü türkmənşəlidir və qədim tarixə malikdir. Böyük mütəfəkkir Mahmud Kaşğarinin məşhur "Divanü lüğat-it-türk" (XI əsr) əsərində müasir dilimizdəki "bayrak/batrak" sözü qeydə alınmışdır. Eyni zamanda tədqiqatçıların fikrincə, həmin söz "batırak/batrak/bayrak" semantik struktur təkamül modeli əsasında (batr – batırmaq, sancmaq) feilindən törəmişdir. Müasir türk dilində "bayraq" sözü ilə yanaşı, "sancaq" sözü də işlənir.

Qeyd etmək lazımdır ki, qədim türk tayfalarında bayraq müxtəlif adlarla (sancaq, tuğ, ələm) tanınır və müqəddəs anlam daşıyırdı. Bu da onların dini inancları ilə bağlı idi".

Heç şübhəsiz, Azərbaycan dövlətçilik tarixində mühüm rol oynamış Midiya, Atropotena, Albaniya, Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər, Atabəylər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar dövlətlərinin hər birinin özünəməxsus bayraqları, hakimiyyət rəmzləri olmuşdur. Bununla yanaşı zaman-zaman zülmə, işğala qarşı Mənsur Həllac, Cavanşir, Cavidan, Babək Xürrəmi, Qaçaq Nəbi, Qaçaq Kərəm, Səttarxan, Bağırxan, Şeyx Məhəmməd Xiyabəni, Mir Cəfər Pişəvəri və başqaları da zamanında azadlıq uğrunda üsyan bayraqlarını qaldırmışlar.

Nadir şah Əfşarın qətlə yetirilməsi ilə Azərbaycan xanlıqları meydana gəlmişdir. Qarabağ, Şəki, Şamaxı, Naxçıvan, Quba, Qaradağ, Təbriz, Urmiya, Xoy, Sərab xanlıqlarının hər birinin öz bayrağı olmuşdur. Nə yaxşı ki, Albaniya, Şirvanşahlar, Atabəylər (Eldənizlər), Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər dövlətlərinin, Gəncə, Qarabağ, Şəki, İrəvan, Naxçıvan, Bakı, Təbriz, Xoy xanlıqlarının bayraqlarından nümunələr günümüzə gəlib çıxmışdır.

Qürurverici haldır ki, miniatürçü rəssamlar Səfəvilər dövlətinin banisi Şah İsmayıl Xətainin ömür yolunu əks etdirən miniatürlərdə bayraq rəmzlərini də unutmamışlar. Bu ənənə sonralar da davam etmişdir. Bunun ən bariz nümunəsi Şəki xan sarayının divarlarında həkk olunmuş müxtəlif süjetli rəsmlərdə dövlət bayrağının da nəzərdən qaçırılmamasıdır.

Təəssüf ki, Çar Rusiyası 1801-ci ildə Şərqi Gürcüstanı özünə birləşdirdikdən sonra iştahası daha da artdı. 1803-cü ildən başlayaraq Şimali Azərbaycan xanlıqlarını bir-bir ələ keçirdi, həmişə olduğu kimi, bağladığı əhdnamələrə də əməl etmədi. Vəliəhd Abbas mirzənin komandanlığı ilə Rusiya–İran müharibəsi illərlə davam etsə də, sonda 1828-ci il fevralın 10-da Təbriz yaxınlığında yerləşən Türkmənçay kəndində sülh müqaviləsi bağlandı. Beləcə, Azərbaycan iki yerə bölündü. Xalqımız 90 il rus generallarının əsarəti altında inlədi. İran və Türkiyə ərazisindən erməniləri köçürərək Qafqazda, İrəvan xanlığının ərazisində, bir qismini isə Qarabağda

məskunlaşdırdı. Hətta bununla kifayətlənməyib 21 mart 1828-ci ildə İrəvan xanlığını ləğv edərək Ermənistan vilayətini yaratdı. Bununla da gəlmə ermənilər zaman-zaman xalqımızın başağrısına çevrildilər. Xalqımız bir əsrə yaxın zorən Çar Rusiyasının bayrağı altında yaşamağa məhkum olundu. Nəhayət, Azərbaycan xalqı uzun illərin məhrumiyyətindən, gizli, aşkar mübarizəsindən sonra, 28 may 1918-ci ildə müstəqilliyini elan etdi. 1918-ci ildə noyabrın 9-da Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi ilə Milli Şura o zaman Türkiyənin bayrağına oxşar Azərbaycan bayrağını Gəncədə qaldırmışdı. Bu tarixi hadisənin şahidi olan istiqlal şairi Əhməd Cavad "Elin bayrağı" adlı şeirinin son bəndində yazırdı:

Təmiz alnındakı tozu, torpağı,
Haqq üçün açdığın əllərinlə sil!
Qalxıb, bir də enməz elin bayrağı,
O sənin, o mənim əlimdədir, bil!

Daha sonra Azərbaycan Xalq Cümhuriyyəti ilkin qəbul etdiyi bayrağı dəyişərək üçrəngli etmişdir.

Parlament binası üzərində dalğalanan üçrəngli bayrağımızı iftixarla seyr edən Üzeyir bəy Hacıbəyli 2 may 1919-cu ildə "Azərbaycan" qəzetində yazırdı:

"Müqəddəs bayrağımızın münəvvər rəngləri, günəşin ziya və şəfəqləri kimi təcəlli edir. Zülmət dostu olan sağ və sol düşmənlərimizin xain gözləri bu nurlardan qamaşır.

... O xain gözlər, qara qəlblər, namərd biləklər və alçaq başların sahibləri əzab çəkirlər, ruhları inciyir, bədənləri ağrıyır. Vicdan əzabı altında haqq qapısında sürünən iblis kimi, müqəddəs bayrağımız qabağında əzilib-büzülür və bu bayrağı qapmaq, ağacını sıxıb-sıxıb və parçasını para-para etmək üçün bayraqdar üzərinə cummaq və soxulmaq istəyirlər...

Əbəs zəhmət!

O ağac sınmaz, o nur sönməz, o əl dönməz! Çünki bayrağımız həqq bayrağıdır. O bir millətin hüquqi-bəşəriyyəsinin harisidir. Bir millət ki onun da insan kimi yaşamağa haqqı vardır! Bir millət ki daha əsir olmaq istəmir!

Nahaq səy!

Zülm və əsarətin yoğun zəncirlərini qırıq-qırıq etməyə qadir olmuş bir millətin, həqq və hürriyyət bayrağı enməz, sarsılmaz!"

Müstəqillik arzularının gerçəkləşməsindən qürur hissi yaşayan şairlərdən Əbdülxaliq Cənnəti, Əhməd Cavad, Əlabbas Müznib, gənc Cəfər Cabbarlı dərhal Azərbaycan bayrağını vəsf etmişdilər. 19 yaşlı Cəfər Cabbarlı sözlə üçrəngli bayrağımızın rəsmini çəkmişdi:

Buraxınız, seyr edəyim, düşünəyim, oxşayayım,
Şu sevimli üç boyalı, üç mənalı bayrağı.
Mələklərin qanadımı üzərinə kölgə salan?
Nə imiş bu, aman Allah?! Od yurdunun yarpağı!
Göy yarpaqlı, al çiçəkli yaşıl otlar topasımı?
Xayır, xayır? Çiçək solur, otlar yerdə tapdanır.
Fəqət bizim bayrağımız ucaları pək seviyor,
Yulduzlardan hilaldan da yüksəklərdə fırlanıyor.

Şair Əlabbas Müznib "Bu ölkə" şeirində yazırdı:

Məbudumuz üç boyalı bayrağı,
Kəbəmizdir hər bir ovuc toprağı.

Sevməz bu hər xaini, alçağı,
Doğruların asarıdır bu ölkə.

Bu istiqlal yox yerdən yaranmamışdı. Həsən bəy Zərdabinin "Əkinçi" qəzetindən başlayaraq Nəcəf bəy Vəzirov, Firidun bəy Köçərli, Məhəmməd ağa Şahtaxtlı, Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Əbdürrəhim bəy Haqverdiyev, Soltan Məcid Qənizadə, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir bəy Hacıbəyli, Haşım bəy Vəzirov, Əlimərdan bəy Topçubaşov, Məhəmməd Hadi, Seyid Hüseyn, Yusif Vəzir Çəmənzəminli, Ceyhun Hacıbəyli, Əlabbas Müznib kimi yüzlərlə aydınlarımızın "Molla Nəsrəddin", "Füyuzat", "Həyat", "Kaspi", "İrşad", "İqbal", "Səda", "Sədai həqq", "Açıq söz", "Azərbaycan" kimi jurnal və qəzet səhifələrində oxuculara aşıladığı maarifçilik, özünəgüvən, azadlıq, müstəqillik ideyalarının bəhrəsi olmaya bilməzdi. Əlbəttə, davam edən bu mübarizə yolları heç də itkisiz, təqibsiz, zindansız, sürgünsüz keçməmişdir. Əgər belə olmasaydı, üçrəngli bayrağımızı qürurla seyr edən Məhəmməd Hadi çağdaşlarının yaşantılarını bu qədər həssaslıqla ifadə edə bilməzdi:

Türkün tökülən qanları bihudə gedərmi?
Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərmi?
Qan ilə qazandıq zəfəri, vermərik əldən,
Xof eyləmədik atəşi-dəhhaşi-düvəldən,
Bir zərrə belə qorxmayırız dəsti-əcəldən,
İstərsə cahan çevrilib varsın da təməldən.
Türkün üzü çevrilməyəcək səmti-əməldən,
Türklər geriyə dönməyəcək müslih əməldən.
Yüksək yaşamaq istər ikən cümlə miləldən.
Türkün tökülən qanları bihudə gedərmi?
Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərmi?

Bu nigarançılığın əsası vardı. Həmişə olduğu kimi təhlükə Şimaldan gözlənilirdi. Təsadüfi deyildi ki, Ömər Faiq Nemanzadə Dağıstana soxulan general Denikini Azərbaycanın müstəqilliyinə təhlükə hesab edərək 1919-cu ilin iyununda "Hazır ol!" adlı məqalə ilə soydaşlarına çağırış etmişdi:

"Ey azərbaycanlı! Yaxşı bil ki, üstünə gələn yırtıcıdır! Vəhşilərdən daha vəhşidir! Ən qəhhar xunrizlərdən (qan tökənlərdən) daha xunrizdir.

Ey azərbaycanlı, ey türk! İyi bil ki, sən zəif olunca hər yandan üstünə hücum mühəqqəqdir (qaçılmazdır).

Ey Azərbaycan! Ey hər kəsin gözü düşən nazənin vətən! Yatma, yatma ki, birdən-birə "ürəyinin üstünə çökməyə", hərarəti-həyatiyyəni söndürməyə qəsd edərlər.

Ey azərbaycanlılar! Ey böyük və şanlı cahangir nəvələri! Başını bir az yuxarı qaldır. Ticarət məşğuliyyətini bir az yüngülləşdir, həmiyyət və qeyrətini göstər!

Ey cavan türk! Vətənini, onunla bərabər ananı, bacını, balalarını qurtarmaq üçün sakın kimsədən imdad gözləmə, kimsəyə əl uzatma! Əl uzatma ki, sənin yeganə yardımçın sənsən! Sənin yaşamaya, istiqlala olan inamındır! Sənin millətinə olan məhəbbətindir!"

Bakı neftinə sahiblənmək üçün bolşeviklər çar generalı Denikini qabaqlayıb onun ordusunu məğlub etdikdən sonra Azərbayca-

na soxuldular. Beləcə, hələ tam oturuşmamış, illərlə yığılıb qalan problemləri həll etməyə macal tapmamış Azərbaycan Xalq Cümhuriyyəti Çar Rusiyasının varisi olan, "Bütün dünya proletarları birləşin!" şüarını qəzetlərdə tirajlayan bolşevik Rusiyasının işğalına məruz qaldı. Bolşeviklər Azərbaycana soxularaq 28 aprel 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətini devirdilər və üçrəngli bayrağımız Parlament binası üzərindən endirildi. Bir gün keçməmiş repressiyalar başladı, vətənpərvər, azadlıq sevən insanlar tutularaq zindanlara atıldı, təqiblərə, sui-qəsdlərə məruz qaldı. Fürsət tapıb Lahıca gedən, orada ev-ev gecələyən Məhəmməd Əmin Rəsulzadə özündə güc taparaq "Əsrimizin Siyavuşu" əsərini yazdı. O, əsərinin son səhifəsini böyük inam və arzu ilə bu sətirlərlə bitirmişdi:

"... Ey yurddaşlar, dolayısı ilə siz ey gələcək soy, ey gənclik, ey çağımızın Siyavuşunun böyümüş oğlu!

Sənin boynunda böyük bir görəv var.

Səndən qabaqkı soy yoxdan bir bayraq, qutlu bir ideal göstəricisi yaratdı, onu min bir çətinliklə ucaldaraq dedi:

– Bir yol yüksələn bayraq bir daha enməz!

Bunu deyərkən o, bugünkü yetim görüntünü dəyərləndirməmiş deyildi, o bunu düşünmüşdü, o sənin o çağda bu bayrağı gənc çiyinlərinə alıb sevinclə küçə-küçə dolaşaraq "İrəli, irəli, Azərbaycan əsgəri" deyə əsgərtək addım atmağını görmüşdü deyə, bu sözü güvənlə söyləmişdi.

Sözsüz, sən onun bu umudunu qırmayacaq, bu gün Parlament üzərindən Azərbaycan türklərinin yanıqlı türkülərinə konu olmuş, ürəklərinə enmiş bu bayrağı yenidən ora dikəcək, Böyük Dəmirçinin geri dönüşünü göründə onun yanına keçəcək:

– Ya qazi, ya da şəhid olacaqsan!"

Zaman göstərdi ki, bu fikirlər heyrət doğuracaq qədər uzaqgörənliklə qələmə alınmışdır. Dahi L.N.Tolstoyun təbirincə desək, ədalətli fikir səmərə verməyə bilməzdi. Azərbaycan Xalq Cümhuriyyətini əvəz edən Azərbaycan Sovet Sosialist Respublikasının öz bayrağı, öz himni, öz gerbi olsa da, Kremldən asılı idi, Moskvadan göndərilmiş rus canişini gəlib ikinci katib rolunda Mərkəzi Komitədə əyləşirdi.

Azərbaycan Sovet Sosialist Respublikası 70 il ömür sürdü. Ancaq bu 70 ildə tarixi olaylardan xəbərdar olan aydınlarımız, xarici ölkələrə mühacirət etmiş Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Ceyhun Hacıbəyli, Mirzə Bala Məmmədzadə, Hilal Münşi, Xosrov Sultanzadə və başqaları müstəqillik uğrunda mübarizələrini, bir an da olsa, dayandırmadılar. Məhəmməd Əmin Rəsulzadənin xaricdə çap etdirdiyi "Azərbaycan Cümhuriyyəti" kitabının üz qabığında üçrəngli bayrağımızın şəkli əks olunmuşdu. Bununla yanaşı, müəllif kitabda üçrəngli bayrağın açıqlamasını da vermişdi:

"Azərbaycan bayrağındakı mavi rəng türklüyü, yaşıl rəng müsəlmanlığı, al rəng də təcəddüd (yeniləşmə) və inqilab rəmzi olmaq hesabilə əsrliyi təsvir edər ki, möhtərəm Ziya Gökalp bəyin "türk millətindənəm, islam ümmətindənəm, qərb mədəniyyətindənəm" – düsturunu ifadə etmiş olur".

Xalq Cümhuriyyətinin devrilməsi ilə heç də müstəqillik ideyası dəfn olunmadı. Bolşevik hökuməti bunu bacarmadı. 1937-ci ildə ölkədə repressiya qurbanlarının sayı pik həddə çatsa da, ürəklərdəki azadlıq eşqi, üçrəngli bayrağı bir daha baş üstə qaldırmaq sevdası insanlarımızı tərk etmədi. Zaman-zaman gənclər həyatlarını təhlükələrə ataraq gizli antisovet təşkilatları yaradır, mübarizələrini müxtəlif üsullarla davam etdirirdilər. Burada əllinci illərdə fəaliyyət göstərmiş iki gəncin adını çəkmək istəyirəm. Bu gənclərdən Cahid Hilal oğlu Şirinov 1928-ci ildə Ağdam rayonunda anadan olmuşdur. İkinci şəxs isə 1929-cu ildə Laçında anadan olmuş Çingiz Mirzağa oğlu Abdullayev idi. Bu gənclərin hər ikisi Teatr İnstitutunu bitirmişdi. Antisovet təbliğatı aparan bu gənclər qərara alırlar ki, 1957-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin 39-cu ildönümü münasibəti ilə Cümhuriyyətin üçrəngli bayrağını Qız qalasının üzərinə sancsınlar. Bu işi Cahid Hilaloğlu həyata keçirir. – Azadlıq! Müstəqillik! – deyə üçrəngli bayrağı Qız qalasının üstündə dalğalandırır. Deyilənlərə görə, üçrəngli bayrağı Cahid Hilaloğlu özü tikib hazırlayıbmış. Cahid Hilaloğlunun əməli DTK (KQB) tərəfindən dərhal aşkarlanır. Onun işinə Azərbaycan SSR Ali Məhkəməsi baxır və 10 il azadlıqdan məhrum olunur. Cahid Hilaloğlu cəzasını Mordva MSSR-in Dubrovski islah-əmək düşərgəsində çəkir.

Görün bayraq necə yüksək bir ali dəyərdir ki, buna görə bolşevik hökuməti heç bir humanistlik göstərmədən bir gənci 10 il azadlıqdan məhrum etmişdir. Bununla da kifayətlənmir, ömrünün sonuna qədər daim təqib edir, işsiz qoyur, nəzarətdə saxlayırdı. Eyni taleyi Cahid Hilaloğlunun həmkarı Çingiz Abdullayev də yaşayır.

Daim izlənən, iki dəfə məhkumluq həyatı yaşayan, hətta heç bir əsas olmadan Maştağa Psixiatriya Xəstəxanasına göndərilən Çingiz Abdullayev isə 1991-ci ildə İsveçrəyə gedərək siyasi sığınacaq almışdır.

Biz Qız qalasında qaldırılmış üçrəngli bayrağa görə başı bəlalar çəkmiş iki nəfər fədakar soydaşımızdan bəhs etdik. Ancaq onlar tək deyildilər, onlarla belə fədakar oğullarımız olubdur. Bu hadisədən 32 il sonra 28 may 1989-cu ildə Xalq Azadlıq hərəkatının iştirakçısı Faiq Mobil oğlu Həsənov Xalq Cümhuriyyətinin üçrəngli bayrağını Qız qalasının üstündə dalğalandırmışdır. Həmin bayraq İstiqlal muzeyində saxlanılır.

1988-ci ildə xalq hərəkatı başlayanda bəlli oldu ki, millətimizin üçrəngli bayrağa olan sevgisi ölməmişdir. Mən bu qənaətə günü, saatı yadımda qalmasa da, bir gün üçrəngli bayrağımızın Azadlıq meydanına gətirildiyini gördüm. Sonra bu hal dəfələrlə təkrar olundu. İllər sonra bildik ki, bu bayrağı toxuyub Azadlıq meydanına gətirən Gültəkin Həsənova imiş. Bu gün onu Gültəkin ana deyə yad edirlər. Yüz minlərlə soydaşımız kimi mən də indiki dövlət himnimizi ilk dəfə Azadlıq meydanında, o tələtümlü günlərdə dinləmişdim. Xalq artisti, bəstəkar Sərdar Fərəcov "Ədəbiyyat və incəsənət" qəzetinin 14 iyul 1989-cu il sayında dərc etdirdiyi "Üzeyir Hacıbəyovun iki marşı" məqaləsində bugünkü himni-

mizdən də bəhs etmişdi. Bu məqalədən aydın olurdu ki, "Azərbaycan milli marşı" 14 noyabr 1919-cu ildə elan olunmuş müsabiqədə birincilik qazanmış və "Azərbaycan Dövlət Teatrosunu doldurmuş milli dövlətin ərkanı və xalq hüzurunda bir dəfə çalınmışdır".

Bu marşın 70 ildən sonra, hələ də ömür sürməkdə olan sovet hakimiyyəti dövründə kimin təşəbbüsü ilə Azadlıq meydanında səsləndirilməsinin tarixini iyirmi dörd il sonra himnimizin bərpaçısı bəstəkar Aydın Əzimovla görüşüb söhbət etdikdə bildim. Aydın müəllim o günləri xatırlayaraq dedi ki:

– 1989-cu ildə Üzeyir Hacıbəylinin ev-muzeyinin elmi əməkdaşı Sərdar Fərəcov "Ədəbiyyat və incəsənət" qəzetində Üzeyir bəyin iki marşından bəhs etmişdi. Bunlardan biri "Azərbaycan milli marşı", digəri isə "Azərbaycan marşı" idi. Birinci marşı dinləyən kimi diqqətimi çəkdi. Qəribə idi, bu marşın melodiyasını uşaq vaxtı atamdan eşitmişdim. Atam Kərim Əzimov M.C.Bağırovun vaxtında "Stalinneft"in, "Leninneft"in rəisi vəzifəsində çalışmışdı. Mən "Azərbaycan milli marşı"nın notunu qəzetdə görəndən sonra onun üzərində işləməyə başladım.

Aramızda yaş fərqinin olmasına baxmayaraq, Vaqif və Yusif Səmədoğlularla dostluq edirdim. Biz qardaş qədər yaxın idik. Mən bu marş barədə onlara da demişdim. Onlar da mənim fikrimi bəyənmişdilər, çünki biz artıq bu marşı Azərbaycan Xalq Cümhuriyyətinin himni kimi qavrayırdıq. O zaman "Azadlıq" radiosunda Mirzə Xəzərin verilişində həmin bu marşdan kiçik bir parça səslənirdi. Çox vaxt səslənməyə də müdaxilə olunurdu... Nəsə, çox keçmədi marşın klavirini hazırladım.

Bir gün Yusif Səmədoğlu marşın mətnini mənə verib: – Aydın, bu himn bir həftədən sonra Meydanda səslənməlidir! – dedi. Mən də söz verdim ki, bir həftəyə hazır olar. Mən o zaman Azərbaycan Televiziyası və Radiosunun Səsyazma evinin müdiri işləyirdim. Bədii kollektivlərin çıxışları burada yazılırdı.

Bu himnin ilk yazılışında bəstəkar Ramiz Mustafayev də mənə yaxından kömək edirdi. Himni Azərbaycan Televiziyası və Radio Verilişləri Komitəsinin xorunun ifasında lentə yazdırıb Azadlıq meydanında səsləndirdik. Çox unudulmaz gün idi. Unudulmaz anlar yaşadıq. Himn səslənəndə Vaqif Səmədoğlunun gözləri yaşarmışdı...

Bəli, o gün təkcə mərhum şairimiz Vaqif Səmədoğlunun yox, Azadlıq meydanında sükuta dalmış hər kəsin gözləri yaşarmışdı. O gün ilk dəfə möhtəşəm himnimizin sözləri yaddaşımıza həkk olunaraq qəlbimizdə səslənirdi:

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Üçrəngli bayrağımız bir də 1990-cı ilin noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edildi. Hələ sovet dövlətinin mövcud olduğu bir dövrdə bu hadi-

sə çox böyük əks-səda doğurmuşdu. Vaxtilə bolşevik Rusiyası tərəfindən Parlament binası üstündən endirilmiş üçrəngli bayrağımızın rəsmi olaraq Naxçıvan Ali Məclisində qaldırılması anının necə bir həyəcan, sevinc, qürur doğurduğunu bu gün də təsəvvür etmək çətin deyildir.

Nəhayət, 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında" qanun qəbul edərək onu Dövlət Bayrağı elan etdi. 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən Dövlət Bayrağını bərpa etdi. 70 il qabaq endirilmiş üçrəngli bayrağımız bir daha vətənimizdə yüksəldi.

Azərbaycan bayrağı Ümummilli lider Heydər Əliyevin həmişə diqqətində olmuşdur. Ulu öndər Heydər Əliyevin "Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında" 13 mart 1998-ci il tarixli sərəncamı bu sayğının bariz nümunəsidir. Sərəncamda deyilir:

"Azərbaycan Respublikasının Bayrağı, Gerbi və Himni Azərbaycan dövlətinin müstəqilliyini təcəssüm etdirən müqəddəs rəmzlərdir. Vətəndaşlarımıza, xüsusən gənclərimizə dövlət atributlarına dərin ehtiram hisslərinin aşılanması cəmiyyətdə vətənpərvərlik ruhunun möhkəmləndirilməsi işinə bilavasitə xidmət edir".

Ulu Öndər böyük fəxarət hissilə deyirdi:

"Azərbaycan bayrağı sadəcə bayraq deyil. O bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir... Ona görə də gərək hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin. Onda bayrağa olan məhəbbət eyni zamanda Vətənə, xalqa, dövlətə olan məhəbbət bərabər olsun".

Azərbaycan Respublikasının dövlət rəmzlərinə sayğı və ehtiramı təmin etmək məqsədilə Prezident İlham Əliyev 2009-cu il noyabrın 17-də "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" sərəncam imzalamışdır. Məhz bu sərəncamla hər il noyabrın 9-u Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir.

Məhz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Bakı şəhərində, Xəzərin sahilində Dövlət Bayrağı Meydanının təməli qoyulmuş, daha sonra Dövlət Bayrağı Muzeyi yaradılmışdır. 1 sentyabr 2010-cu ildə Dövlət Bayrağı Meydanının təntənəli açılışında çıxış edən Prezident İlham Əliyev demişdi:

"Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində Dövlət Bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".

Dövlət başçısının bu tarixi çıxışından 10 il keçmiş, 27 sentyabr 2020-ci ildə başlayan 44 günlük Vətən müharibəsi müzəffər ordumuzun qələbəsi ilə başa çatdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin 10 il qabaq Dövlət Bayrağı Meydanında söylədikləri həyata keçdi. Əsgər və zabitlərimizin qanı, canı bahasına işğaldan azad olunan Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Suqovuşanda, Şuşa şəhərində, daha sonra Ağdamda, Kəlbəcərdə, Laçında, 215 kəndimizdə müqəddəs üçrəngli bayrağımız dalğalandı. Hər bir şəhərin, kəndin işğaldan azad edilməsi müjdəsini Müzəffər Ali Baş Komandan İlham Əliyevdən eşidirdik.

Prezidentin 8 noyabr 2020-ci ildəki xalqa müraciəti isə illər, əsrlər keçsə belə, unudulmayacaqdır:

"Əziz həmvətənlər! Əziz bacılar və qardaşlar! Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir!"

Bu tarixi müjdə xəbərindən sonra paytaxt sakinləri küçələrə axışmışdı. Hər yan, hər yer, hündürmərtəbəli binaların eyvanları, küçələrdə şütüyən maşınlar, yaşlı, cavan, yeniyetmə üçrəngli bayrağa sarılmışdı.

Hər kəndin, hər bir şəhərin işğaldan azadolma xəbəri belə kütləviliklə, bayraq sevgisi ilə qarşılanırdı. Bu görüntülərdən, bu mənzərələrdən duyğulanmamaq, sevinc göz yaşları axıtmamaq mümkün deyildi. Xalqı, itkilər bahasına olsa belə, qələbə xəbəri qədər nə sevindirə bilər ki...

Necə ki 1919-cu ildə Parlament binası üstündə dalğalanan Azərbaycan Bayrağını seyr edən Əhməd Cavad, Əbdülxaliq Cənnəti, Əlabbas Müznib, Cəfər Cabbarlı vəcdə gələrək üçrəngli bayrağımızı vəsf etmişdilər, 70 il sonra müasir şairlərimiz də bir daha yüksələn bayrağımızı vəsf edən çoxlu sayda şeirlər yazıb kitablarda, dövri mətbuat səhifələrində çap etdirmişlər. Qələbə ilə başa çatan 44 günlük Vətən müharibəsi qəhrəmanlarının şücaəti, şəhidlik zirvəsinə ucalmış əsgər və zabitlərimizin həyatı, hər kənddə, hər şəhərdə, hərbi qərargahlarda, postlarda, səfirliklərimizdə dalğalanan üçrəngli bayrağımız yeni-yeni nəsr əsərlərinin, poeziya nümunələrinin yaranmasına səbəb olmuşdur. Biz klassik və müasir şairlərimizin Vətənimizi, üçrəngli bayrağımızı vəsf edən şeir gülüstanından seçərək bir albom-kitab tərtib etdik. Bu kitabın hər səhifəsində həm tarixi dövlətlərimizin rəmzləri, həm də 44 günlük Vətən müharibəsi günlərindəki bayraq sevgimiz var. Çox istərdik ki, bayraq və Vətən sevgisini daim ürəyində yaşatması üçün tərtib etdiyimiz "Bir daha yüksələn bayraq" albom-kitabı hər bir Azərbaycanlı ailəsinin, hər bir gəncin stolüstü kitabı olsun.

Mustafa Çəmənli
22 mart 2023-cü il

QƏDİM DÖVLƏTÇİLİK RƏMZLƏRİ




Qırx il miskin qul kimi ömür sürməkdənsə, bir gün ağa kimi yaşamaq daha yaxşıdır

Babək Xürrəmi



Hər ümidsüz işdə xeyli ümid var,
Qaranlıq gecədən ağ səhər doğar.

Nizami Gəncəvi



Elə cinayətlər var ki, bağışlanmaz – o,
Vətənə xəyanətdir.

Əbülhəsən Bəhmənyar



Amal uğrunda ölmək əbədi yaşamaqdır.

Şeyx Məhəmməd Xiyabani



Ah, Azərbaycan! Biz sənin həqqini tələb etmək deyil, yalnız adını söyləmək üçün nə qədər məruzələrə rast gəldik, nə qədər töhmətlərə məruz qaldıq!

Məhəmməd Əmin Rəsulzadə



Bugünkü vəzifəmiz o qara günləri yaddan çıxartmamaq və buna görə də həmişə və hər an hər şeyə hazır olmalıyıq. Borcumuz bu vətəni gələcəkdə hər təcavüzdən qorumaq və məmləkətimizi şərəflə yaşatmağa çalışmaqdır.

Üzeyir bəy Hacıbəyli

ALBANİYA DÖVLƏTİ

Müasir Azərbaycan türklərinin yaşadığı şimal torpaqlarda e. ə. IV əsrdə Albaniya, cənubunda isə Atropatena dövləti yaranmışdı. Albanlar haqqında ilk məlumatı verən romalı tarixşünas Strabon yazmışdır ki, albanlar İberlərlə Kaspi dənizi arasında yaşayırdılar. Alban tayfa birləşməsi 26 boydan yaranmışdı. Bu tayfaların hərəsinin öz dili olub. Tarixi mənbələrə əsasən Alban tayfalarından hesab edilən və şimali Azərbaycanın Qəbələ bölgəsində yaşayan azsaylı udinlərin ata-babaları qəbul edilən utilər Alazanla Kür çayının qovşağında; leqlər Samur çayının axarının dağlıq hissəsində; lupenlər Qafqaz dağlarının cənub ətəklərində; qarqarlar Qafqazların şimalında (sonralar isə Qarabağın düzənlik yerlərində) yaşayıblar. Albaniya dövlətinin ən şöhrətli hakimi Cavanşir olmuşdur.

Albaniya dövləti eramızın VIII əsrinin əvvəlində süqut etmişdir.



Albaniya dövlətinin Mehranilər sülaləsi dövrünə aid bayrağı




Albaniya dövlətinin pulları

ŞİRVANŞAHLAR DÖVLƏTİ

Azərbaycanın qədim dövlətlərindən biri də Şabran və Gilgilçay hövzələri arasında yaranmış Şirvanşahlar dövləti idi. Bu dövlət 1538-ci ilə qədər mövcud olub. Azərbaycan torpaqlarının ərəblər tərəfindən işğalından sonra 861-ci ildə ərəbmənşəli Məzyədilər Şirvanşahlar dövlətinə başçılıq etdi. Dövlətin sərhədləri şimalda Dərbənd və Samur çayı, cənubda Kür çayı, qərbdə Göyçay və Şəki, şərqdə Xəzər dənizinə qədər əraziləri əhatə edirdi. Paytaxtı əvvəl Şirvan, sonra Yəzidiyyə (Şamaxı) şəhəri olmuşdur.



Şirvanşahlar dövlətinin bayrağı



Şirvanşahlar dövlətinin gerbi



Şirvanşahlar dövlətinin pulları

ELDƏNİZLƏR DÖVLƏTİ

Səlcuqlar imperiyasının parçalandığı ərazilərdə mübarizələr nəticəsində yeni dövlət əmələ gəldi. Beləliklə, XII əsrin 30-cu illərində Kürdəncənubda Azərbaycan torpaqlarında Azərbaycan Atabəylər (Eldənizlər) dövləti yarandı. Əsası Şəmsəddin Eldəniz tərəfindən qoyulan bu dövlətin paytaxtı Naxçıvan idi. Şəmsəddin Eldəniz Dərbənddən qul kimi alınıb Bağdada gətirilmiş, səlcuq sultanın vəzirinə satılmışdır. Vəzir öldükdən sonra sultan sarayına düşmüş və öz şəxsi bacarığına görə səlcuq qoşunlarının baş komandanı vəzifəsinə yüksəlmişdi. Sultan II Toğrul ona "əmir" rütbəsi vermiş və onu oğlu Arslanın atabəyi təyin etmişdi. II Toğrul öldükdən sonra qardaşı Məsud (1135 – 1152) hakimiyyətə gəlmiş, Eldənizi qardaşının dul qadını Mömünə xatun ilə evləndirmiş və 1136-cı ildə Arranı iqta şəklində ona verərək oranın idarəsini Atabəy Eldənizə tapşırdı. Şəmsəddin Eldənizin hakimiyyətinin sonlarında dövlətin sərhədləri Dərbənddən Bəsra körfəzinə, Tiflis qapılarından Məkrana, Arran və Şirvan, İraq, Həmədan, Gilan, Mazandaran, İsfahan və Reyə kimi əraziləri əhatə edirdi.

Atabəy Eldənizin Möminə xatundan olan oğlanları Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslanın hakimiyyəti dövründə Eldənizlər dövləti daha da güclənmişdi.

Şəmsəddin Eldəniz ağlına, yüksək insani keyfiyyətlərinə böyük dəyər verdiyi xanımı Möminə xatunun vəfatından sonra onun şərəfinə türbə tikdirməyə başlamışdır. Ömrü vəfa etmədiyi üçün türbənin inşasını oğlu Məhəmməd Cahan Pəhləvan başa çatdırmışdır. Günümüzə gəlib çatan bu möhtəşəm abidənin memarı Əcəmi Naxçıvanidir.

Hakimiyyətdə olan sonuncu hökmdarlar Əbu Bəkr və Özbəyin zamanında Eldənizlər dövləti zəiflədi. Son hökmdar Özbəyin zamanında bütün Eldəniz torpaqları Cəlaləddin Mənqburnu tərəfindən işğal edildi. 1225-ci ildə Eldənizlər dövləti süqut etdi.



Eldənizlər dövlətinin bayrağı



Eldənizlər dövlətinin gerbi



Eldənizlər dövlətinin pulları



Üzərində Məhəmməd Cahan Pəhləvanın adı yazılmış və antropomorf təsvirlərlə bəzədilmiş saxsı qab

QARAQOYUNLU DÖVLƏTİ *

Qaraqoyunlu tayfası qoyunçuluqla məşğul olduqlarına görə tayfa ittifaqlarının bayrağında qara qoçun təsviri olardı. Qaraqoyunlular sülaləsinin banisi Bayram Xoca idi. Onun vəfatından sonra oğlu Qara Məhəmməd (1380–1389) fəaliyyətə başlayır və Qaraqoyunlu tayfa ittifaqı hakimiyyətinin əsasını qoyur. Cəsur sərkərdə, dövlət adamı olan qara Məhəmməd 1389-cu ildə Qaraqoyunlu əmirlərindən Qara Pirhəsənlə döyüşdə ödürülmüşdür. Bundan sonra Qara Yusif hakimiyyətə gəlir (1389–1421). Qara Yusifin vəfatından sonra hakimiyyət əldən-ələ keçir. Nəhayət, hakimiyyət taxtına Cahanşah Həqiqi oturur. Qaraqoyunlu dövlətinin beşinci sultanı, Qara Yusifin üçüncü oğlu Müzəffərədin Cahanşah 1397-ci ildə Xoy şəhərinin yaxınlığındakı kiçik bir kənddə anadan olmuşdur. Cahanşah bacarıqlı sərkərdə, dövlət xadimi olmaqla yanaşı həm də istedadlı şair idi. Həqiqi təxəllüsü ilə şeirlər yazırdı. Onun divanı günümüzə qədər gəlib çıxmışdır.

Ağqoyunlu Uzun Həsən 1467-ci ilin yazında qəflətən Cahanşahın qoşunları üzərinə hücum edərək onu məğlub edir. Qoşunlarından xəbərsiz Çubuqcuq adlanan yerdə ziyafət keçirən Cahanşah qəfil hücuma məruz qalır və İsgəndər adlı bir döyüşçü tərəfindən öldürülür. Silahdaşları Cahanşah Həqiqinin cəsədini gətirib özünün Təbriz şəhərində tikdirdiyi Göy məsciddə dəfn edirlər.

Cahanşah Həqiqinin poeziyasından bir nümunə

Eşqi-canan hər kimin canında ki təsir edər,
Canını canana qurban qılmasa təqsir edər.

Hər müfəssir kim onun vəchində gördü ayətin,
Həm sücud eylər ona, həm aləmə təfsir edər.

Cavidani dövləti-mənsur bulmaz yardan,
Eşq meydanında hər kim yarilən təzvir edər.

Ayəti-rüxsarını məşuqənin hərfən behərf
Katibi-qüdrət belövhi-canü dil təhrir edər.

Xab içində görmüşəm bir yari-gülrüxsarı kim,
Yusifi-Misri onu yüz vəchilən təbir edər.


Çün Həqiqinin iki aləmdə sənsən dilbəri,
Canını yolunda qurban qılmasa, təqsir edər




Cahanşah Həqiqinin divanının üzqabığı

* Albom-kitabdakı ensiklopedik məqalələrin müəllifi Mustafa Çəmənlidir.


C.Cabbarlı adına Respublika Gənclər KİTABXANASI İNV. № 209230



Qaraqoyunlu dövlətinin bayrağı



Qaraqoyunlu Cahanşah Həqiqi Təbriz şəhərindəki bu Göy məscidə dəfn olunub.



Qara Yusif döyüşdə. 1412-ci il Kür sahili döyüşü, rəsm əsəri. Milli Azərbaycan Tarixi Muzeyi



Ağqoyunlu dövlətinin qurucusu Həsən bəy Bayandurlu (Uzun Həsən)

AĞQOYUNLU DÖVLƏTİ

Ağqoyunlu dövlətinin banisi Həsən bəy Bayandurlu 1423-cü ildə Diyarbəkirdə anadan olmuşdur. Tarixdə Uzun Həsən kimi tanınmışdır. Gəncliyi savaşlarda keçən Həsən bəy Bayandurlu Ağqoyunlu sülaləsinin 9-cu hökmdarı olmuşdur. O, 1467-ci ildə öz qoşunu ilə Təbrizdən Diyarbəkirə hücum edən Cahanşah Həqiqini məğlub edərək Qaraqoyunlu dövlətinin varlığına son qoymuşdur.

Həsən bəy Bayandurlu 1468-ci ildə Cənubi Azərbayanı və Qarabağı ələ keçirdi. Bundan sonra Qaraqoyunlu tayfalarının böyük bir



Ağqoyunlu dövlətinin bayrağı



Uzun Həsənin anası Saray xatun.
Rəssam Altay Hacıyev

hissəsi onun hakimiyyətini qəbul etdi. Həsən bəy Bayandurlu Təbriz şəhərini dövlətin paytaxtı elan etdi. 1453-cü ildən 1487-ci ilə qədər hökmdarlıq edən Uzun Həsən müasir İraqı, Türkiyənin bir hissəsini, Cənubi Qafqazı, İranın böyük bir hissəsini və Şirvanın bir hissəsini əhatə edən Ağqoyunlular dövlətinin əsasını qoymuşdur.

Uzun Həsən 1487-ci ildə Təbrizdə vəfat etmişdir.

Uzun Həsənin anası Saray xatun (o həm də Sara xatun kimi tanınır) Azərbaycanın ilk diplomat qadınıdır. Pir Əli Bayandurun qızı Saray xatun Teymuri hökmdarı Əbu Səid və Osmanlı sultanı II Mehmedlə diplomatik danışıqlar aparmışdır.

Şah İsmayıl Xətainin babası Şeyx Cüneyd Qaraqoyunlu hökmdarı Cahanşah Həqiqinin təqibindən yaxasını qurtararaq başının müridləri ilə 1456-cı ildə Diyarbəkirin hakimi Uzun Həsənin yanına getmiş, Saray xatunun qızı, Uzun Həsənin bacısı Xədicə bəyimlə evlənmişdir.

İlk qadın diplomatımız Saray xatun 1465-ci ildə vəfat etmişdir.



Səfəvilər dövlətinin banisi
Şah İsmayıl Xətai

SƏFƏVİLƏR DÖVLƏTİ

XV əsrin axırlarından etibarən Cənubi Azərbaycanda, əvvəl Qaraqoyunluların (1410–1468), sonra isə Ağqoyunluların (1468–1502) hakimiyyət uğrunda apardıqları mübarizə tarixindən yarım əsr qabaq Ərdəbil vilayətində Səfəvi sufi şeyxlərinin də müstəqil hakimiyyəti diqqəti cəlb edirdi. (*Əzizağa Məmmədov, "Şah İsmayıl Xətai", "Uşaqgəncnəşr", 1961).*

Şah İsmayıl Xətainin babası Şeyx Cüneyd (1447–1456) müstəqil Səfəvilər dövlətini yaratmaq niyyətilə 1456-cı ildə Şirvana hücum etmişdi. Lakin bu döyüşdə Şirvanşah 1 Xəlilüllah onu məğlub etdi. Şeyx Cüneyd döyüşdə həlak oldu. Şeyxin faciəli ölümündən sonra müridlərin təbliğatı daha da şiddətləndi. Şeyx Cüneydin oğlu Şeyx Heydər (1456–1488) hakimiyyət uğrunda mübarizəyə başladı.



Səfəvi dövlətinin bayrağı




I Şah İsmayılın ordu bayrağı


Şeyx Heydər "başına qırmızı şaldan 12 tərkli (dilimli) bir papaq qoydu. Müridləri də ona tabe olaraq bu papaqla başqalarından seçildilər və o zamandan qızılbaş adı ilə məşhur oldular" (*A.A.Bakıxanov*). Şeyx Heydər də intiqam almaq niyyətilə 1488-ci ildə Şirvana hücum etdi. Şirvanşah Fərrux Yasar Şeyx Heydəri məğlub etdi və qapıçısı Əli bəy tərəfindən öldürüldü. Bu məğlubiyyətə baxmayaraq Şeyx Heydərin müridləri mübarizələrindən geri çəkilmədilər.

Səfəvilər dövlətinin banisi Şah İsmayıl Xətai 1486-cı il 24 iyunda Ərdəbil şəhərində anadan olmuşdur. Atasını erkən itirən İsmayıl Hüseyn bəy, Əbdüləli bəy, Bayram bəy, Rüstəm bəy kimi Səfəvilərə sədaqətli müridlərin köməyi ilə türk tayfalarından toplanmış 7 min qazi ilə 1500-cü ildə Şirvana hücum etdi. Döyüşdə Şirvanşahlar məğlub oldular. Şahgəldi ağa deyilən birisi Şirvanşah Fərrux Yasarın başını kəsərək İsmayıla gətirdi. 1501-ci ilin payızında 14 yaşlı İsmayıl böyük təntənə ilə Təbrizə daxil olub özünü Şah elan etdi. Karl Marks Şah İsmayılın hərbi istedadını yüksək qiymətləndirərək yazırdı:

"Səfəvilər xanədanının banisi Şah İsmayıl fateh idi. O, on dörd illik fəaliyyəti dövründə on dörd əyaləti fəth etmişdi".




Şah İsmayıl Xətainin hakimiyyəti dövrünə aid bayraq. XVI əsr



Sultan Muradla Şah İsmayılın döyüşünə aid miniatür

Şah İsmayıl şücaətli sərkərdə, bacarıqlı dövlət adamı olmaqla yanaşı, istedadlı şair idi.

Şah İsmayıl Xətai 1524-cü ildə 38 yaşında vəfat etsə də, onun yaratdığı Səfəvilər dövləti uzun illər mövcudluğunu qoruyub saxlamışdır.



Şah İsmayıl Xətainin məzarı. Ərdəbil şəhəri

Şah İsmayıl Xətainin poeziyasından nümunələr

Allah, Allah den, qazilər, qazilər deyən şah mənəm,
Qarşu gəlin, səcdə qılun, qazilər deyən şah mənəm.

Uçmaqda tuti quşuyam, ağır ləşkərlər başıyam,
Mən sufilər yoldaşıyam, qazilər deyən şah mənəm.

Nerdə əkərsən bitərəm, xanda çağırsan, yetərəm,
Sufilər əlin tutaram, qazilər deyən şah mənəm.

Mənsur ilə darda idim, Xəlil ilə narda idim,
Musa ilə Turda idim, qazilər deyən şah mənəm.

Əsir edin, bəri gəlün, novruz edin, şaha yetün,
Hey qazilər, səcdə qılun, qazilər deyən şah mənəm.

Qırmızı taclu, boz atlu, ağır bir ləşkər nisbətlü,
Yusif peyğəmbər sifətlü, qazilər deyən şah mənəm.

Xətaiyəm, al atluyam, sözü şəkərdən datluyam,
Murtəza Əli zatluyam, qazilər deyən şah mənəm.

***

Ey könül, sidqlə hər kim şah ilə yoldaş ola.
Üz gərək döndərməyə hər necə kim yol daş ola.
Yolu gər daş ola, gər yay ola, gər oxü qılınc,
Mürşidə dönənin mənidə ismi laş ola.

***

Mənəm Sultan Xətai Heydər oğlu,
Mənim yolumda qovğa gərəkdir.
Mürid oldur ola əhl-iradət,
Hər işdən var da pirdən icazət.

***

Xətai hal çağında,
Hər könül alçağında.
Yüz min Kəbə yaxmaqdır,
Bir könül al çağında.

***

Sufi isən, alıb-satma,
Halalına haram qatma,
Yolun əyrisinə getmə,
Doğru yolu nəzər eylə.



Nadir şah Əfşar

ƏFŞARLAR DÖVLƏTİ

Əfşarlar dövlətinin qurucusu Nadirqulu İmamqulu oğlu 22 noyabr 1688-ci ildə Dəsgird kəndində anadan olub. O, Əfşar qəbiləsinin Qırıxlı tayfasından idi. Atasını erkən itirən Nadirqulu 16-17 yaşlarında olanda anası və qardaşı ilə birgə özbəklərə əsir düşmüş, dörd il əsirlikdə qalmışdı. Əsirlikdən qurtarıb vətənə dönən Nadir 22-23 yaşlarında Baba Əli bəyin müdafiə dəstəsində özbək basqınçılarına qarşı vuruşmuşdur. Baba Əli bəyin qızı ilə evlənən Nadir qayınatası öləndən sonra başına adamlar yığıb işğalçılara qarşı müharibə aparmışdır. Daha sonra II Şah Təhmasibin naibi olan Nadir döyüşlərdə ad çıxartmış, 8 avqust 1732-ci ildə günü eyş-işrətdə keçən II Təhmasibi hakimiyyətdən uzaqlaşdıraraq Xorasana sürgün etmiş, onun biryaşlı oğlu Abbası şah seçərək onun nayibüssəltənəsi kimi ölkəni özü idarə etmişdir. Nadir ömrünün 37 ilini döyüşlərdə keçirmiş, 120-dən artıq müharibələr aparmış, əksəriyyətini qələbə ilə başa vurmuşdur.

26 dekabr 1735-ci ildə Nadirin əmri ilə vilayətlərə, hakimlərə, bəylərə, din xadimlərinə, alimlərə məktub göndərib onları Muğan düzünə, Kürlə Arazın birləşdiyi yerdə keçirəcəyi Qurultaya (Məclisə) dəvət etmişdi. Nadirin məqsədi ölkədə sabit hökumət qurmaq, Şiə-sünnü məzhəb ayrılığına son qoymaq idi. Nadirə qədər heç bir şah ölkədə belə bir qurultay çağırmamışdı. Muğana gələnlər üçün 12 min çadır, ağacdan, qamışdan evlər tikilmişdi. Bu məclisdə 100 min adam iştirak edirdi. Nadir 18 fevral 1736-cı ildə şah seçildi. Beləliklə, 230 il davam edən zəifləmiş Səfəvi dövləti öz ömrünü başa vurdu. Bu məclisdə Nadir hökm etdi ki, şiə-sünni məzhəbi ayrılığına son qoymaq lazımdır. Bu xüsusda Osmanlı Türkiyəsinə də məktub göndərildi. Yazıçı-publisist, filosof, dinşünas, böyük türkçü Əhməd Ağaoğlu təəssüf hissilə yazırdı: "Nadir türklüyün vəhdəti qarşısındakı böyük əngəli aradan qaldırmaq istədiyi halda İstanbul kimi nisbətən ziyalı bir mühit təklifi yaxın buraxmamaqla ağır tarixi məsuliyyəti öz üzərinə götürür".

21 iyun 1747-ci ildə gecə yataqda ikən Nadir şah Əfşar öldürüldü.


"Mənim paytaxtım atımın yəhəridir" deyən Şərqin sonuncu fatehi, Əfşarlar dövlətinin qurucusu Nadir şah Əfşar öldürüldükdən sonra Şimallı və Cənublu Azərbaycan məmləkəti 18 xanlığa bölündü.



Qarabağ xanlığının banisi Pənahəli xan Cavanşir

QARABAĞ XANLIĞI


1736-cı ildə xarici qüvvələrin ardıcıl hücumları, daxili hərc-mərclik nəticəsində Səfəvilər dövləti süqut etdi. Ölkəni xarici qüvvələrin işğalından qurtaran Nadirqulu xan 1736-cı ilin martında Muğan düzündə toplanmış məclisdə özünü şah elan etdi. Onun şəxsində Əfşarlar sülaləsi hakimiyyətə gəldi. Şərqin sonuncu fatehinin hakimiyyəti çox çəkmədi, 1747-ci ildə gecə yataqda olarkən Nadir şah sui-qəsd nəticəsində öldürüldü. Bundan sonra İran taxt-tacı uğrunda gedən qanlı mübarizədən istifadə edən Şimallı və Cənublu Azərbaycan feodalları 18 xanlıqlara bölünərək öz xırda dövlətlərini yaratdılar. Bu xanlıqlardan biri də Pənahəli xan Cavanşirin başçılığı ilə 1748-cı ildə yaradılmış Qarabağ xanlığı idi. Pənahəli xan müasiri olduğu digər xanlardan fərqli olaraq xanlığını mövcud olan şəhər əsasında formalaşdırmamışdı. O, hakimiyyətinin başlanğıcında Bayat qalasını inşa etdirmiş, burada uzun müddət qalmayaraq Ağdam ərazisində Şahbulaq qalasını tikdirmişdi. Lakin bunla da kifayətlənməmiş, daha ehtibarlı, daha münasib bir yerdə qala tikdirmək istəmiş və nəticədə 1752-ci ildə indiki Şuşa şəhər-qalasının bünövrəsini qoymuşdur. Qala əvvəl yaradıcısının şərəfinə Pənahabad adlandırılmış, bu adda pul kəsilmişdir. O, 12 illik hakimiyyəti dövründə daxili çəkişmələrə son qoymuş, 1757-ci ildə Məhəmmədhəsən xan Qacarın (Ağaməhəmməd şah Qacarın atası), 1759-cu ildə Fətəli xan Əfşarın Şuşaya hücumlarının qarşısını almışdı. Sonuncu ilə 6 ay mühasirədə qaldıqdan sonra sülh sazişi bağlamış, böyük oğlu İbrahimxəlil ağanı ona girov verməyə məcbur olmuşdur. Pənahəli xan üçün oğlunun ayrılığına dözmək çox çətin idi. Belə bir vaxtda, 1761-ci ildə şahlıq taxtı uğrunda rəqibi Fətəli xan Əfşarla döyüşdə məğlub olan Kərim xan Zənd hiyləyə əl ataraq Azərbaycan xanlıqlarının hakimlərinə məktublar yazıb onları Fətəli xana qarşı birləşməyə çağırdı. O, 1762-ci ildə Pənahəli xana göndərdiyi məktubda yazırdı: *"Fətəli xan sadəcə düşmən deyil, o eyni zamanda bizimlə qanlıdır. Gərək birləşmək*



Pənahəli xanın neştəri

uğrunda bütün qüvvəni əsirgəməyəsən. Məhz bu yolla həm intiqam almaq, həm də oğlunuzu xilas etmək mümkün olar. Bununla həm siz sevinərsiniz, həm də biz öz arzumuza çatarıq".

Pənahəli xan Kərim xanın təklifini qəbul etmişdi. Fətəli xan Əfşarın müdafiəyəyə çəkildiyi Urmiyanı Kərim xan Zəndin birləşmiş qoşunu 9 ay mühasirədə saxlamışdı. Nəhayət, 1763-cü ilin ortalarında Urmiya ələ keçirilmişdi. Beləcə, Pənahəli xanın oğlu İbrahimxəlil ağa girovluqdan azad edilmiş, xanlıq fərmanı ilə Qarabağa qayıtmışdı. Pənahəli xan isə Kərim xanın təklifi ilə başqa xanlarla yanaşı, qələbənin nəşəsini yaşamaq üçün Şiraza getmişdi. Şirazda aldandığını başa düşən Pənahəli xan pərişan olub peşmanlıq keçirmiş və 1763-cü ildə Şirazda vəfat etmişdir. Vəsiyyətinə görə, onun "Cənazəsini böyük hörmətlə Qarabağa gətirib, indi Ağdam adı ilə məhşur olan, özünün satın aldığı halal mülkündə dəfn etdilər" (*Mirzə Camal Cavanşir*). Yer gəlmişkən, Pənahəli xanın mərmər başdaşı Milli Azərbaycan Tarixi Muzeyində saxlanılır.



Şuşa – Pənahabadın qədim qala divarları

YÜZBAŞI TƏBRİZLİNİN

PƏNAHƏLİ XANA HƏSR ETDİYİ QƏSİDƏ

Bir fəqiri-şah asa dərvişəm, ay qibləgah,
Gəlmişəm dərgahına təxti-Süleyman görməyə.

Biz xarabat şəhrinin soltanına bel bağladıq,
Bu xəyal ilə ki, ya rəbb, həqqi-divan görməyə.

Çıxdı ərşə ahu-nalə əhli Təbrizdən belə,
Qalmadı canda təvanə mülki İran görməyə.

Bir kərəm qıl, ey Pənahım, kim tərənnüm çağıdır,
Kim rəva bilmiş könüldə ahu-əfqan görməyə?!

Dəsti-kirindir Əmir-əl-Mürtəza kim bəxş edib,
Lütfü sayə salmağa, həm dərdə dərman görməyə.

Gözlərimdən qanlı yaşım car olub, hər sübhü şəb,
Bir qədəm bas bu diyarə hökmü fərman görməyə.

Əldə yazı ərzi-hal qılmağa gəldi Yüzbaşı,
Xaki pakin öpməyə, həm bağı rizvan görməyə.



Qarabağ xanlığının gümüş pulu



Qarabağ xanlığının hakimi
İbrahimxəlil xan Cavanşir

Pənahəli xanın oğlu İbrahimxəlili xan hələ atasının sağlığında, 1763-cü ildən 1806-cı ilə qədər Qarabağ xanlığının xanı olmuşdur. O, 1768-ci ildə Şuşada böyük camaat məscidini tikdirib. İllər sonra qızı həmin məscidi təmir etdirdiyindən bu gün Gövhər ağa məscidi kimi tanınır. Bundan başqa Şuşa qalasına yaxın, Qarqarçayın keçdiyi iki dağın arasında Əsgəran qalasını tikdirmişdir. Bu gün ermənilərin kompakt yaşadıqları Xankəndi də ona məxsusdur.



İbrahimxəlil xanın tikdirdiyi Əsgəran qalası

İbrahimxəlil xan həm də mahir sərkərdə idi. 1795-ci ildə Ağaməhəmməd şah Qacar Şuşanı mühasirəyə alanda İbrahimxəlil xan qalasını mətanətlə müdafiə etmiş, Qacarın 33 günlük mühasirəsi onun məğlubiyyətilə başa çatmışdır. Məğlubiyyətini həzm edə bilməyən Qacar 1797-ci ildə yenidən Qarabağa hücum etdi, yenə Şuşa qalasını mühasirəyə aldı, top atəşinə tutdu. İbrahimxəlil xan şəhərə tələfat verən düşmən toplarını susdurmaq üçün iki yüz atlı ilə qaladan çıxıb şahın topxanasını məhv etdi. Şah Qacar biləndə ki, İbrahimxəlil xan qaladan çıxıb, qoşunun bir hissəsi ilə qala darvazalarının qarşısını kəsdi. Qalaya girə bilməyən İbrahimxəlil xan məcbur olub başının dəstəsilə Car Balakənə getdi. Təəssüf ki, zaman keçəndən sonra onun görünməyən bu tarixi şücaəti unuduldu.

İbrahimxəlil xan 14 may 1805-ci ildə general Susianovla Kürəkçay kənarında Çar Rusiyasının təbəəliyinə keçməsi haqqında traktat bağlamışdı. Bağlanan müqavilənin 7-ci bəndində Çar Rusiyası belə bir öhdəlik götürmüşdü: *"İ.Ə-nin zati aliləri şuşalı və qarabağlı İbrahim xana və onun varislərinə böyük ehtiram və mərhəmət əlaməti olaraq onu və varislərini üzərində bütün Rusiya imperiyasının gerbi olan bayraqla təltif edir, bayraq onun yanında saxlanmalı və bu ölkə üzərində əlahəzrət tərəfindən bəxş edilmiş xanlıq və*



Qarabağ xanlığının sonuncu hakimi Mehdiqulu xan Cavanşir. Rəssam, şair İbrahim Tahir



Qarabağ hakimi Mehdiqulu xanın bayrağı

hakimiyyət rəmzi kimi müharibəyə gedəndə özü ilə aparmalıdır".

Amma aradan bir il keçməmiş verilən zəmanət kağız üzərində qaldı. Tarixən əhdə vəfasızlıq rus çarının, çinovniklərinin, hərbçilərinin xarakterik sifətləridir. Təsadüfi deyildir ki, mayor D.T.Lisaneviç çuğulçuların sözü ilə 14 iyun 1806-cı ildə gecə vaxtı ailəsi və yaxınları ilə Xan bağında gecələyən İbrahimxəlil xanın üstünə hücum edərək 17 nəfər ailə üzvüləri və yaxınları ilə bir yerdə öldürmüşdür.

İbrahimxəlil xandan sonra oğlu Mehdiqulu ağa 1806-cı ildən 1822-ci ilə qədər Qarabağ xanlığının hakimi oldu. Bağladığı müqavilənin şərtlərinə əməl etməyən Çar Rusiyası 1822-ci ildə Qarabağ xanlığını ləğv etdi. General-mayor Mehdiqulu xan Cavanşir 1845-ci ildə dünyasını dəyişdi. Qəbri babasının və atasının dəfn olunduğu Ağdam İmarət məzarlığındadır.



Şuşa qəzasının gerbi Çar Rusiyası tərəfindən 1843-cü il mayın 21-də təsdiq edilmişdir. Rusiya imperiyasının qanunlar məcəlləsində gerb belə təsvir edilir: "Qalxanın yuxarı yarısında qızılı fonda Kaspi vilayətinin gerbinin bir hissəsi, aşağıda, yaşıl fonda Asiya yəhər-cilovu olan at təsvir edilir".



Gəncə xanı Cavad xan

GƏNCƏ XANLIĞI

Səfəvilər dövründə ölkəni idarə etmək üçün bəylərbəyiliklər yaradılmışdı. Bu bəylərbəyiliklərdən biri də mərkəzi Gəncə olan Qarabağ bəylərbəyiliyi idi. Bu Qarabağ bəylərbəyiliyini Ziyadoğlular idarə edirdi. 1736-cı ildə Muğan düzündə ölkəyə şah seçmək üçün böyük bir məclis (qurultay) keçirildi. Müzakirə vaxtı Ziyadoğlular Nadirin şah elan edilməsinə qarşı çıxdılar. Gətirilən dəlil də bundan ibarət idi ki, Nadirin şah sülaləsinə aidiyyəti yoxdur. Ziyadoğluların etirazına baxmayaraq Nadir şah seçildi. Şahlıq taxdında oturan Nadir şah Ziyadoğluları doğma yurdlarından çıxararaq ölkənin ucqar əyalətlərinə sürgün etdi. 1747-ci ildə Nadir şah öldürüldü. Ölkə xanlıqlara parçalandı. Fürsətdən istifadə edən II Şahverdi xan Ziyadoğlu Gəncə xanlığının əsasını qoydu. Şahverdi xandan sonra xanlıq əldən ələ keçmişdi. Gəncə xanlığının sonuncu hakimi Cavad xan idi (1786–1804). Təəssüf ki, Qafqaza ayaq açmış Çar Rusiyası işğalçılıq siyasəsətini həyata keçirərək müstəqil xanlıqları özünə tabe etmək niyyətində idi. Gəncə xanı Cavad xan könüllü təslim olmaqdan qəti şəkildə imtina etdi. General Sisianov 3 yanvar 1804-cü ildə səhər saat 5-də həlledici hücuma keçdi. Şiddətli döyüşdən sonra ruslar qalanı aldılar. Bu döyüşdə Cavad xan və oğlu Hüseynqulu qəhrəmancasına həlak oldular. Tanınmış jurnalist, tarixşünas alim Rəşid bəy İsmayılov "Azərbaycan tarixi" kitabında yazdığına görə, bu savaşda iki minədək gəncəli həlak olmuş, Sisianovun əmri ilə məscidə sığınmış 500-dək silahsız qoca kişi, qadın və uşaqlar qətlə yetirilmişdir. Ruslar Qalada olan 8 bayrağı, 12 qala topunu, 55 put barıtı ələ keçirmişdilər. Bu işğaldan sonra Gəncə xanlığı ləğv olundu, şəhərin adı dəyişdirilərək Çar Aleksandrın arvadı Yelizavetanın şərəfinə Yelizavetpol adlandırıldı.



Gəncə xanlığının bayrağı–XVI əsr

Bütün bunlara baxmayaraq Cavad xan xalqımız tərəfindən unudulmadı. Haqqında şeirlər, poemalar, kitablar yazılmış, bədii film çəkilmişdir.



Gəncə xanı Cavad xana həsr olunmuş şeir parçaları

Gəncə şəhərində Cavad xan kim, nə əyyam var idi,
Sahibi-lütfü ədalət, sadiqül-iqra idi.
Hər işin felində mahir, aqilü huşyar idi,
Müxtəsər, aləmara pürimtəhan sərdar idi,
Gör nələr çəkdi qəzadən, bu dövri-bədədvardan.

Əbdürrəim ağa Dilbaz oğlu

***

Azərbaycan–çəlik qollar bağçası,
Bakı-xanlar gülzarıdı bu ölkə,
Məhəmməd xan, Əhməd xanı məsqət
Cavad xanlar məzarıdır bu ölkə.



GƏNCƏ XANLIĞININ BAYRAQLARI



Gəncə xanı Cavad xanın buncuğu. Buncuq hakimlik səlahiyyətini təsdiq edən əlamətlərdən hesab olunurdu. Cavad xanın buncuğu at quyruğu bərkidilmiş taxtadan, başlıq və tük qələmli qotazdan ibarətdir. Taxta üç ədəd bir-birinə geydirilən konusdan təşkil olunmuşdur. Ümumi uzunluğu 170 santimetrdir. Milli Azərbaycan Tarixi Muzeyində saxlanılır.





Şəki xanlığının banisi Hacı Çələbi xan


ŞƏKİ XANLIĞI


Nadir şah öldürüldükdən sonra yaranan xanlıqlardan biri də Şəki xanlığı idi. Şəki xanlığının banisi Hacı Çələbi Qurban oğlu idi. O da başqa Azərbaycan xanlıqları kimi xanlığının ərazisini daha da genişləndirmək uğrunda mübarizələr, müharibələr aparırdı. Abbasqulu ağa Bakıxanov yazırdı: "Nuxalı Hacı Çələbi Qurban oğlu istiqlaliyyət bayrağını qaldıraraq Şəki, Ərəş və Qəbələ mahallarını özünə tabe etdi".

Dövrünün müdrük, şücaətli adamlarından olan Hacı Çələbinin xanlığı 12 il sürmüşdür. Hacı Çələbi 1755-ci ildə vəfat etmişdir.


Hacı Çələbidən sonra hakimiyyətə onun oğlu Ağakişi gəldi. Lakin Ağakişi xanın hakimiyyəti uzun sürmədi, sui-qəsd nəticəsində öldürüldü. Bundan sonra xanlıq uğrunda mübarizə başladı. Sonda Hacı Çələbinin nəvə-

ŞƏKİ XANLIĞININ BAYRAQLARI







Bayrağın astar üzü



Şəki hakimi Səlim xanın döyüş bayrağı. Bayrağın üz tərəfi (2). XIX əsr





Şəki xanı Səlim xanın döyüş bayrağı

si Məhəmmədhüseyn Müştaq qalib gələrək xanlıq taxtına oturdu. Məhəmmədhüseyn xan həm də şair idi, Müştaq təxəllüsü ilə şeirlər yazırdı. Məhəmmədhüseyn xan Müştaq 22 il Şəki xanlığını idarə etmişdir (1758–1780). Bu gün də ən möhtəşəm abidələrdən sayılan Şəki xan sarayını da Məhəmmədhüseyn xan Müştaq tikdirmişdir (1761–1762). Məhəmmədhüseyn xanın şairlik istedadı da olmuşdur. Molla Pənah Vaqiflə dostluq etmişdir. Vaqif müxəmməslərindən ikisini ona həsr etmişdir. Vaqifə tüfəng bağışlayan Məhəmmədhüseyn xan Müştaq ona yazdığı mənzum məktubunda deyir:

Sən Qarabağ içrə qurmuşsan tələb meydanını,
Tutmusan dildə olan vədü vəfa mizanını,
Görməyibsən əsbi-ehsanın məgər cövlanını.
Bir tüfəngin bu qədər sən çəkmisən hicranını,
Eylədim təslimi-Rafe çeşmi pa bərsər tüfəng.*

Təəssüf ki, Şəki xanlarının qohumları arasındakı çəkişmələr nəticəsində Məhəmmədhüseyn xan 1780-ci ildə xaincəsinə öldürülmüşdür. Bu hadisə dövrünün görkəmli şairi Molla Vəli Vidadiyə çox təsir etdiyi üçün xanın ölümünə məşhur "Müsibətnamə" şeirini yazmışdır.

Abbasqulu ağa Bakıxanov "Gülüstani-İrəm" əsərində Məhəmmədhüseyn xan haqqında yazır: "Hüseyn xan hünərli, şücaətli, gözəl tədbirli və düzgün fikirli olmaqla bərabər, təbiətən rəhimsiz bir adam idi".

Şəkinin sonuncu xanı Səlim xan 1805-ci il mayın 21-də, istəməsə belə, Kürəkçay sahilində, general P.D.Sisianovun iqamətgahında Rusiyanın təbəəliyini qəbul etməsi haqqından müqaviləni imzaladı. Bununla da Şəki xanlığı müstəqəlliyini itirmişdir.



Şəki xan sarayı

* Şair Rafe Müştaqın müasiri olmuşdur–M.Ç



Şəki xan sarayının divarlarında çəkilmiş süjetli kompozisiyalarda hərəkətdə olan döyüşçülərin, bayraqdarların, onları ruhlandıran musiqiçilərin aydın təsviri tarixi dövlətçilik ənənələrindən xəbər verir.

İRƏVAN XANLIĞI

Müstəqil xanlıqlardan biri də Mir Mehdi xan Əfşar (1747–1752) (bəzi mənbələrdə Mir Məhəmməd Qacar tərəfindən yaradıldığı göstərilir) tərəfindən yaradılmış İrəvan xanlığı idi. Tarixi qaynaqlara görə, İrəvan xanlığı 15 mahaldan ibarət idi: Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd, Səədli, Talun, Seyidli-axaxlı, Sərdarabad, Qarpibasar, Abaran, Dərəçiçək və Göyçə. Xanlığın mərkəzi İrəvan şəhəri idi. Təəssüflər olsun ki, İrəvan xanlığı vaxtaşırı Xoy, Qarabağ xanlıqlarının, Kartli-Kaxetiya hakimi II İraklinin hücumlarına məruz qalırdı. Hələ 1801-ci ildə Rusiya çarı I Aleksandr tərəfindən işğalçı rus qoşununa baş komandan təyin olunmuş Sisianov İrəvan xanına məktub yazıb qalasını təslim etməsini tələb edirdi. İran Qacarlar dövləti ilə Çar Rusiyası arasında İrəvan




İrəvan xanlığının bayrağı. XIX əsr




İrəvan xanlığının bayrağı



İrəvan xanı Hüseynqulu xanın bayrağı. XIX əsr



İrəvan şəhərindən bir görüntü



Sərdar sarayının görüntüsü. İrəvan. XVI–XVIII əsr. Foto Dimitriy Yermokovundur.

xanlığı uğrunda da qanlı müharibə gedirdi. Ruslara qarşı İrəvan xanı Məhəmmədhüseyn Qacar mətanətlə döyüşsə də, qüvvə və silah-sursat baxımından Rusiya daha güclü idi. Bunun nəticəsi olaraq 20 sentyabr 1827-ci ildə Sərdarabad qalası, 1 oktyabrda isə İrəvan qalası rus qoşunları tərəfindən işğal edildi. Rusiya bütün varlığı ilə çalışırdı ki, Türkiyə və İran sərhədlərinin qovşağında İrəvan xanlığı mövcud olmasın. Buna görə də İrandan, Türkiyədən erməniləri köçürüb İrəvan xanlığı ərazisinə yerləşdirirdi. Bununla da gələcək bəlaların bünövrəsini qoyurdu. Rusiya Çarı 1 Nikolay İranla Türkmənçay müqaviləsi bağladıqdan sonra 21 mart 1828-ci ildə xüsusi fərman imzalayaraq İrəvan və Naxçıvan xanlıqlarını ləğv edib əvəzində "Erməni vilayəti" yaratdı. Rusiya hayların şəxsində qədim Azərbaycan torpağında, Qafqazda mövcudluğunun təməl daşını qoydu. Bu gün belə Rusiya ermənilərə havadarlıq etməkdən geri çəkilmir.

NAXÇIVAN XANLIĞI

1747-ci ildə sui-qəsd nəticəsində öldürülən Nadir şah Əfşardan sonra yaranmış xanlıqlardan biri də Naxçıvan xanlığı idi. Xanlığın əsasını Kəngərli tayfasının başçısı Heydərqulu xan (1747–1763) qoymuşdu.

Naxçıvan xanlığı Zəngəzurdan başlayaraq Araz çayı vadisinə qədər olan əraziləri əhatə edirdi. Heydərqulu xanın vəfatından sonra Naxçıvan xanlığı xeyli zəifləmişdi. Bu boşluqdan istifadə edən İrəvan xanı Hüseynəli xan Xoy və Qarabağ xanlıqları ilə birləşərək Kəngərli tayfasından Abbasqulunu 1780-ci ildə Naxçıvan xalığının taxtında oturtdu.

Təəssüf ki, Naxçıvan xanlığı da Rusiyanın işğalına məruz qaldı.



Naxçıvan şəhərindən bir görüntü



Naxçıvan xanlığının dövlət bayrağı
1747–1828



Naxçıvan xanlığının döyüş bayrağı



Naxçıvan xanı Kəlbəli Kəngərliyə (1804-1807) aid gümüş abbası

BAKI XANLIĞI

1747-ci ildə Nadir şahın öldürülməsi ilə Şimali Azərbaycanda yaranan xanlıqlardan biri də Bakı xanlığı idi. Bakı xanlığının əsasını Mirzə Məhəmməd ağa qoymuşdur. Bakı xanlığına 39 kənd daxil idi. Mirzə Məhəmməddən sonra xanlığı II Mirzə Məhəmməd idarə etmişdir. Təssüf ki, xanlıqda hakimiyyət uğrunda mübarizə gedirdi. II Mirzə Məhəmmədlə əmisi Məhəmmədqulu arasında gedən mübarizə ikincinin qalibiyyəti və hakimiyyətə yiyələnməsi ilə nəticələndi. 1792-ci ildə Məhəmmədqulu xan vəfat etdi. Onun qardaşı oğlu Hüseynqulu Bakı xanlığının taxtında əyləşdi. Hüseynqulu xan yaşadığı dövrün ictimai-siyasi vəziyyətini nəzərə alaraq gah İran şahına, gah da Çar Rusiyasına tabe olurdu.




İçərişəhər



Bakı xanlığının bayrağı

Azərbaycan xanlıqlarını bir-bir işğal etmək həvəsindən bir an da olsun geri çəkilməyən general P.D.Sisianov Bakı xanlığı üzərinə hücum etdi. O, Bakı xanlığının Rusiyanın tabeliyinə keçməsi haqqında müqavilə layihəsini Hüseynqulu xana göndərdi. 1806-cı il fevralın 8-də Hüseynqulu xan şəhərin açarlarını qalanın darvazasından çıxaraq general Sisianova təqdim edərkən qardaşı oğlu Aslan



Şirvanşahlar sarayı



İşğalçı çar generalı P.D.Sisianovun öldürülməsi səhnəsi

bəy (bəzi mənbələrdə xanın əmisi oğlu İbrahim bəy də göstərilir) irəli atılaraq generalı öldürdü. Hüseynqulu xan Sisianovun kəsilmiş başını Tehrana – Fətəli şaha göndərdi. Rus qoşunları gözlənilməz hadisədən sarsılaraq Bakıdan Sara adasına, oradan isə Qızılyara çəkildisə də, işğalçılıq niyyətlərindən əl çəkmədilər. Rus qoşunları 1806-cı il iyunun 22-də Dərbəndi işğal etdikdən sonra Bakıya doğru hərəkət etdi. Hüseynqulu xan müqavimət göstərməyin mənasız olduğunu görüb İrana getdi. 3 oktyabr 1806-cı ildə rus qoşunları tərəfindən Bakı işğal olundu. Müstəmləkəçi generallar Bakı xanlığını ləğv etdilər.

1813-cü ildə Gülüstan müqaviləsi bağlandıqdan sonra Bakı xanlığının Rusiyaya birləşdirilməsi rəsmiləşdirildi. 1806-cı ildə başsız bədəni Bakıda dəfn edilən general P.D.Sisianovun 1911-ci ildə cəsədi çıxarılaraq Tiflisə aparıldı və orada kilsə qəbiristanlığında basdırıldı.

TƏBRİZ VƏ XOY XANLIQLARI

Təbriz və Xoy xanlıqlarının əsasını məşhur Dünbülü tayfa başçıları qoymuşdular. Hüseyn Əli oğlu Dəlili "Azərbaycanın Cənub xanlıqları" adlı çox dəyərli kitabında göstərir ki, Dünbülü tayfa başçıları hələ Səfəvilərin hökmranlığı dövründən Xoy vilayətini irsən idarə edirdilər. Tarixçi yazır ki, XV əsrdən başlayaraq XIX əsrin ortalarına qədər İranda və Azərbaycanın Cənub ərazisində altı (Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Əfşar, Zənd, Qacar) sülalə dəyişdiyi halda, həmin müddətdə Xoyda irsi hökmranlıq Dünbülü tayfasından olan nəslin əlində qalmışdır. Xoy xanlığının ilk hakimi isə Şahbaz xan olrmuşdu. (1747–1763). Şahbaz xanın atası Murtuzaqulu xan da Nadir şah Əfşarın dövründə Xoyun hakimi idi.

Təbriz xanlığının banisi Dünbülü tayfasının görkəmli şəxsiyyətlərindən Nəcəfqulu xan olmuşdur. Əslən Təbrizdən olan tarixçi alim Hüseyn Dəlili bələdçilik edərək yazır: "Təbriz xanlığı Urmiya gölünün şimal şərqində yerləşirdi. O, şimaldan Üzüm-dil dağ silsiləsi, Qaradağ xanlığı, Şərqdən Sərab xanlığı, cənubdan Səhənd dağı, Qərbdən Urmiya gölü ilə həmsərhəd idi... Təbriz xanlığı inzibati cəhətdən Güney, Mərənd və Təbriz mahalına ayrılırdı".



Təbriz şəhərindən bir mənzərə



Xoy şəhərindən bir mənzərə



Xoy xanlığının bayrağı



Təbriz xanlığının bayrağı



ÖNCƏ VƏTƏNDİR



Kim müxalifətdə olursa olsun Vətənə, xalqına, mənəviyyatına, məsləkinə müxalifətdə olmasın.

Heydər Əliyev



Sağolumuzu vicdanımızdan alacağıq!

Həsən bəy Zərdabi



Azərbaycan türkləri ətrakın (türklərin) ən hürriyyətpərvərləridir.

Əli bəy Hüseynzadə




Kim ki insanı sevir, aşiqi-hürriyyət olur,
Bəli, insanlıq olan yerdə də hürriyyət olur.

Mirzə Ələkbər Sabir



Azərbaycanlılar üçün dil məsələsi həyat və məmat məsələsidir.

Mir Cəfər Pişvəri



Mən azadlıq cəbhəsində bir fədai əsgərəm,
Bir azadlıq istəyirəm, bir də azad bir vətən.
Düşmənlərin güllәsiylə qana batam gərək mən,
Vətən üstə pərələnsin bədənimdə pirəhən.

Səhənd (Bulud Qaraçorlu)



ABBASQULU AĞA BAKIXANOV

QARABAĞDA

Yarəb, nə edibdir mənə dövran Qarabağda,
Etmiş məni pamal bu hicran Qarabağda.

Tiflisdə də mən günlərimi qəmlə keçirdim,
Olmuşdur halım indi pərişan Qarabağda.

Fərhad ilə dağdır gözümə görsənən hər şey,
Düşmür ələ Şirinlə gülüstan Qarabağda.

Çox qorxuram əl çatmaya ol daməni yarə,
Olsun həm əcəl dəsti kiriban Qarabağda.

Qəlbimdə coşar qan, vətəni yada salanda,
Gündüzlə gecəm olmada yeksan Qarabağda.

Yarəb, sən özün eylə xilas qürbətə düşdüm,
Olsunmu günüm şami-qəriban Qarabağda?!


Bizarəm özümdən dəxi, Qudsi, darıxıb mən,
Çəkdim bu qədər ah ilə əfğan Qarabağda.



RƏŞİD BƏY ƏFƏNDİYEV

VƏTƏN MƏHƏBBƏTİ

Məhəbbət eyləmək hər yurd üçün bir sirr, hikmətdir,
Vətən viranə də olsa, məsəldir, məhz cənnətdir.
Havası can verir cana, suyu taqət verir cismə,
Vətən qüvvət verir qəlbə, Vətən cürət verir şəxsə.
Vətən zinət verir ruha, Vətən bir başqa hikmətdir.
Vətən bir şamdır, pərvanəsi onun mənəm, sənsən,
O şamın nuru da hər kəsdəki elm ilə sənətdir...
Vücudu harda doğsa, adəm oğlu gəlsə dünyaya,
O yerdən başqa yer cənnət də olsa, diyari-qürbətdir.
Ağac bir yerdə kök saldısa, qalxar, şax budaq atar,
Köçürsən öz yerindən, gör onun halı nə zillətdir.
Qoparsan laləni şaxından, üzsən ya gülü güldən,
Solar, bərbad olar, qalmaz nə tab və nə təravətdir.
Tutub qatilləri divan, vətəndən eyləyir sürgün,
Bu zülmü, bu sitəm bu kəslərə eyni ədalətdir.
Bütün əcdadımız mədfun vətən torpağı altında,
Bizə vacib bu qəbristanı hər dəmdə ziyarətdir.
Nə bədbəxt kimsədir o kəs, vətən mülkünü tərk eylər,
Gedər qürbət yerə, gəlməz, bunun adı səfalətdir.
Diyari-qürbəti seyr eyləmək lazımdır, əlbəttə,
Bəsirət kəsb edib niyyət vətən mülkünə himmətdir.



ƏLİ BƏY HÜSEYNZADƏ

HALİ-VƏTƏN

Ucundadır dilimin
Həqiqətin böyüyü,
Nə qoydular deyəyim,
Nə kəsdilər dilimi!

Bilirmisən, cühəla,
Nə etdilər vətənə?
Nə qoydular uyuya,
Nə qoydular oyana!..

Durur bilahərəkət,
Rəvamı bir diriyə?
Nə getmədə irəli,
Nə dönmədə geriyə!..

Ədu qırar qapıyı,
Biz evdə bixəbəriz.
Nə başqa başqalarız,
Nə ittihad edəriz!..

Ayıltmadı qələmim
Şu türk ilə əcəmi,
Nə qoydular yazayım,
Nə qırdılar qələmi!..





Ə.Hüseynzadənin rəsmləri

Dövrünün böyük mürşüdünə (Ziya Göyalp nəzərdə tutulur) "İslam ümmətindən, qərb mədəniyyətindən, türk millətindən" olmaq ideyasını ilk dəfə verən Əli bəy Hüseynzadə idi. ...atamın bəyazsaqqallı, ağbənizli, gözəl gözlü, şair, rəssam, musiqişünas, filosof, jurnalist, astroloq, professor, doktor olan qafqazlı dostu idi (Ə.B.Hüseynzadə nəzərdə tutulur).

Səməd Ağamalıoğlunun
"Atamın dostları" kitabından



ABBAS SƏHHƏT

VƏTƏN

Könlümün sevgili məhbubu mənim,
Vətənimdir, vətənimdir, vətənim.

Məni xəlq eyləmiş əvvəlcə Xuda,
Sonra vermiş vətənim nəşvü-nüma.

Vətənim verdi mənə nanü-nəmək,
Vətəni, məncə, unutmaq nə demək?!

Anadır hər kişiyə öz vətəni,
Bəsləyib sinəsi üstündə onu.

Südüdür kim, dolanıb qanım olub,
O, mənim sevgili-cananım olub.

Saxlaram gözlərim üstə onu mən,
Ölərəm, əldən əgər getsə vətən.

Vətənin neməti nisyan olmaz,
Naxələflər ona qurban olmaz.

Vətən əcdadımızın mədfənidir,
Vətən övladımızın məskənidir.

Vətənin sevməyən insan olmaz,
Olsa, ol şəxsdə vicdan olmaz!



MƏHƏMMƏD HADİ

ƏSGƏRLƏRİMİZƏ-KÖNÜLLÜLƏRİMİZƏ

Qorxutmamalı bizləri yollardakı əngəl,
Məfkurəyə doğru yürü, qoş, durma, capuq gəl!
Millət tikəcək namına ölsən dəxi heykəl,
Qoyma toxuna yurduna naməhrəm olan əl.
Bizlərdə bu gün olmalı bir məqsədi-əkməl,
Bir məqsədi-əkməl və bir ümmidi-mübəddəl.
Amalımıza doğru şitaban olalım, gəl,
Millətlə vətən rahinə qurban olalım, gəl!

İstərsən əgər yurduna hürriyyəti-nazan,
Düşmənləri ehraq üçün ol atəşi-suzan,
Tənviri-vətən etməyə ol nuri-füruzan,
Dillərdə bu gün olmalı bir əzmi-xüruşan,
Lərzidəqədəm olmamalı azimi-meydan,
Ehyayi-vətənçün, əvət, verməli yüz can,
Amalımıza doğru şitaban olalım, gəl,
Millətlə vətən rahinə qurban olalım, gəl!

Təhdid ediyor yurdumuzu düşməni-qəddar,
Boğmaq diliyor haqqımızı firqəyi-xünxar,
Afaqi-siyasiyyəmizə ətf qıl ənzar,
Olmaqda buludlar şu üfüqlərdə nümudar,

Etməklik üçün yurdumuzu qərqeyi-ənvar,
Biz də edəlim kəndi bəsalatımızı izhar,
Amalımıza doğru şitaban olalım, gəl,
Millətlə vətən rahinə qurban olalım, gəl!

Şansız yaşamaq istəməriz, şan dilәriz, şan,
Əshabi-həmiyyət diləməz ömri-pərişan,
Himmətlilərindir, bilin, amali-dirəxşan,
Qeyrətsiz olan millət olur sahibi-xüsran,
Ehrazi-kəmal etmək üçün qoşmalı hər an,
İstərsək əgər olmayalım bəndəyi-fərman,
Amalımıza doğru şitaban olalım, gəl,
Millətlə vətən rahinə qurban olalım, gəl!

Nazəndə vətən qibleyi-hürriyyətimizdir,
Məşcərləri, məzhərləri həp cənnətimizdir,
Bəslər bizi, bir münimi-biminnətimizdir,
Olduqca diri süfrəyi-pürnemətimizdir,
Öldükdə qucağı əbədi türbətimizdir,
Qiymətli vətən madəri-zişəfqətimizdir,
Amalımıza doğru şitaban olalım, gəl,
Millətlə vətən rahinə qurban olalım, gəl!

Bil ki, vətənin sevgili bir madəri-candır,
Vermə bunu əğyar əlinə, rəhm et, amandır,
Hürriyyətimiz huri-füsunsazi-cahandır,
Bax bir nə gözəldir, necə candır, nə canandır,
Biz verməriz əldən, bunu düşmənlərə qandır,
Hübbülvətəni onlara felinlə inandır,
Amalımıza doğru şitaban olalım, gəl,
Millətlə vətən rahinə qurban olalım, gəl!

İlk məhdin ilə son yerin ağuşi-vətəndir,
Xaki-vətənin, bilməlisən, mayeyi-təndir,
Gülzari-vətən cənnəti-hur, qönçədəhəndir,
Ziruh çiçəklər yaradan işbu çəməndir,
Hifz etməyə bu gülşəni qurbani-bədəndir,
Rüxsarəyi-gülrəngi-əməl rövşəni-şəndir,
Amalımıza doğru şitaban olalım, gəl,
Millətlə vətən rahinə qurban olalım, gəl!

Millət yaşamaz, yurdunu zəbt eyləsə düşmən,
Gəldikdə xəzan fəsli sönər rövnəqi-gülşən,
İstərsək əgər yurdumuz olsun da işıq, şən,
Göstərməliyiz düşmənə bir cürəti-rövşən,
Qurbani-vətən olmalı bir can ilə bir tən,
Ən ülvi səadət: Vətən olsun tənə mədfən,
Amalımıza doğru şitaban olalım, gəl,
Millətlə vətən rahinə qurban olalım, gəl!

Hübbülvətəni yazmalıdır qəlbinə millət,
Hübbülvətəni sanmalı bir milli ibadət,
Hübbülvətən uğrunda ölən zindədir, əlbət,
Ey hübbi-vətənlə dili ləbrizi-mədəvvət,
Şəfqətli anandır vətənin, etməli xidmət,
Ey seyfü-qələm ərləri, bacürətü qeyrət,
Amalımıza doğru şitaban olalım, gəl,
Millətlə vətən rahinə qurban olalım, gəl!

Bakı, 22 nisan 1919



ABDULLA ŞAİQ

VƏTƏN

Ey çeşmimin önündə mücəssəm, vətən, vətən!
Qəlbim kimi ələmlərə həmdəm, vətən, vətən!
Fikrim sarayını dolaşırsan zaman-zaman,
Qanlı kəfənlə, dərd ilə toəm vətən, vətən!
Baxdıkca həsrət ilə o solğun camalına,
Çeşmimdə tar görsənir aləm, vətən, vətən!
Axşam-səhər o gül üzünü isladan nədir?
Göz yaşlarınmı, yoxsa ki şəbnəm? Vətən, vətən!
Dəhşət içində cismi-şərifin donub durur,
Nolmuş vücudi-pakinə bilməm, vətən, vətən!
Baxdıqca gül-çiçəkli o gülgün çəmənlərə,
Möhnət evi sanır onu adəm, vətən, vətən!
Sənsən səbəb bəqayi-dilü cani-natəvan,
Canım kimi nolar səni sevsəm, vətən, vətən!
Gördükcə dərdini əriyir cismi-natəvan,
Ney tək sızıldayır dili-pürqəm, vətən, vətən!
Qarşımda dərd, matəmə batmış gözəl mələk,
Səslər həzin səda ilə hər dəm: vətən, vətən!
Ey xaki-pak, söndümü parlaq ziyaların?
Oldumu zülmə, möhnətə həmdəm, vətən,
vətən?!
Övladi-naxələfmi səni saldı bu günə?
Eyvah, bu dərd, möhnətə dözməm, vətən, vətən!
Aç, aç o qəmli köksümü, ey məxzəni-məlal,
Bas bağrına bu Şaiqi möhkəm, vətən, vətən!



ALMAS İLDIRIM


ƏSİR AZƏRBAYCANIM

Hanı məni gül qoynunda doğuran,
Xəmirimi göz yaşıyla yoğuran,
Beşiyimdə "layla, balam" cağıran...
Azərbaycan, mənim baxtsız anam, oy...
Neçə ildir həsrətinlə yanam, oy...

Xəbər alsam Muğanımdan, Milimdən,
Nazlı Bakım, o neft qoxan gülümdən,
Kim demiş ki, düşmüş adın dilimdən,
Azərbaycan, mənim eşsiz yurdum, oy,
Ölməz eşqim, icimdəki dərdim, oy!..

Salam desəm, rüzgar alıb götürsə,
Ağrı dağdan Alagözə ötürsə,
Gur səsimi göy Xəzərə yetirsə,
Xəzər coşub zəncirini qırsa, oy...
Hökm etsə, bu sərsəm gediş dursa, oy...

Könlümə tək Kə'bə etdim səni mən,
Sənsiz neylim qürbət eldə günü mən,
Sənsiz neylim Allahı mən, dini mən?..
Azərbaycan, mənim tacım, taxtım, oy...
Oyanmazmı kor olası baxtım, oy...



SƏMƏD VURĞUN

AZƏRBAYCAN

(ixtisarla)

Çox keçmişəm bu dağlardan,
Durna gözlü bulaqlardan;
Eşitmişəm uzaqlardan
Sakit axan Arazları,
Sınamışam dostu, yarı...

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam, doğma vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

Mən bir uşaq, sən bir ana,
Odur ki, bağlıyam sana:
Hankı səmtə, hankı yana
Hey uçsam da, yuvam sənsən,
Elim, günüm, obam sənsən!

Fəqət səndən gen duşəndə,
Ayrılıq məndən düşəndə,
Saçlarıma dən düşəndə
Boğar aylar, illər məni,
Qınamasın ellər məni.

Dağlarının başı qardır,
Ağ örpəyin buludlardır.
Böyük bir keçmişin vardır,
Bilinməyir yaşın sənin,
Nələr çəkmiş başın sənin.

Düşdün uğursuz dillərə,
Nəhs aylara, nəhs illərə.
Nəsillərdən nəsillərə
Keçən bir şöhrətin vardır;
Oğlun, qızın bəxtiyardır...

Hey baxıram bu düzlərə,
Ala gözlü gündüzlərə,
Qara xallı ağ üzlərə
Könül istər şeir yaza;
Gəncləşirəm yaza-yaza...

Bir tərəfin bəhri-Xəzər,
Yaşılbaş sonalar gəzər,
Xəyalım dolanar, gəzər
Gah Muğanı, gah Eldarı,
Mənzil uzaq, ömür yarı!

Sıra dağlar, gen dərələr,
Ürək açan mənzərələr...
Ceyran qaçar, cüyür mələr,
Nə çoxdur oylağın sənin,
Aranın, yaylağın sənin!

Keç bu dağdan, bu arandan,
Astaradan, Lənkərandan.
Afrikadan, Hindistandan
Qonaq gəlir bizə quşlar,
Zülm əlindən qurtulmuşlar...



SÜLEYMAN RÜSTƏM

TƏBRİZİM

Baxdığca hüsnünə doymayır gözüm
Təbrizim, Təbrizim, gözəl Təbrizim!
Qoymaram yadları girsin qoynuna,
İzin ver qolumu salım boynuna!
Sənin bayramına, sənin toyuna
Dili bir, qanı bir qardaşın gəlib,
Dərdinə aşina sirdaşın gəlib.

Bülbül zar-zar ağlar çəməndən ayrı,
İnsan deyib gülməz vətəndən ayrı,
Can necə yaşasın bədəndən ayri?
Aç öz ürəyini danış, Təbrizim.
Olum dərdlərinə tanış, Təbrizim!

Sən çıxdın qarşıma duzla, çörəklə,
Bağından dərdiyin güllə, çiçəklə,
İkiyə bölünmüş saf bir ürəklə,
Təbrizim, Təbrizim, aman Təbrizim
Yox olsun başından duman, Təbrizim!

Qədrini ayrılıq çəkənlər bilər,
Hicranda gözyaşı tökənlər bilər,
Ömrünə qaranlıq çökənlər bilər,
Bağından gül-çiçək dərdim, Təbrizim,
Yenə təzələndi dərdim, Təbrizim!

Nə qəşəngdir yol boyunca söyüdlər,
Söyüdlərin kölgəsində igidlər,
Babalardan dinləyirlər öyüdlər,
Coşub damarlarda qanı, Təbrizim,
Yoxdur bu mərdlərin sanı, Təbrizim!

Ağlasan ağlaram, gülsən gülərəm,
Yaşasan yaşaram, ölsən ölərəm,
Varımı sənlə yarı bölərəm,
Gəl bir də üzündən öpüm, Təbrizim!
Başına gül-çiçək sərim, Təbrizim!

Nədir o, mənalı, dərin baxışlar?
Nədir gözlərindən yağan yağışlar?
Nədir qəlbindəki payızlar, qışlar?
Yetimtək boynunu əymə, Təbrizim!
Məlul-məlul baxıb durma, Təbrizim!

Sənin çiçəyinə, gülünə qurban!
Mənə qardaş deyən dilinə qurban!
Vətəninə qurban, elinə qurban!
Baxdıqca hüsnünə doymayır gözüm,
Təbrizim, Təbrizim, gözəl Təbrizim!



RƏSUL RZA

QARABAĞ – BABA YURDUM SƏNİN ADIN

Sənə Qarabağ dedilər.
Bəlkə, qara bax! – dedilər,–
dağlarında
yaylayan qarına görə –
Bəlkə, qara bax, – dedilər, –
kölgəli bulaqlarına görə.
Bəlkə,
dodaqları susuzluqdan
cadar-cadar yolçu,
ətəyində duman sürünən
ağ zirvəsi arandan görünən
Kirsə baxıb
həsrətlə, ümidlə
dedi: – Qara bax!
O gündən adın qaldı
Qarabağ.
Adın qədimdir
xalqımın mübarizə tarixi kimi,
Nəğmələrin
qürurla doldurur qəlbimi.
Ömrün yollarında arzuları yağır olmuş,
möhnətdən, dözümdən
qarabağır olmuş
alnıaçıq, üzüağ yaşayan,
səksəkəli ürəyində
arzusunu, ümidini daşıyan
insanlar dedilər:
"Silinsin tarixdən
Nəsillərin qara baxtı!".
Gözəllər gözəli
Qarabağım mənim!
Nənəmin köçəri yolları,
babamın çirməkli qolları,
elin neçə igid oğlu, qızı
səndə olub,
yenə neçə qəhrəmanı səndədir.
Neçə şirin nəğməni dadı, duzu,
göy ulduzu, yer ulduzu
səndədir.
Qranitə dönmüş qoşası da,
tək-tək qızılı da.
Tanıyır aləm
qanadlı şahini də,
adı nəğməyə dönmüş qızını da.
Qəlbimdəsən, gözümdəsən
hara gedim, hara baxım,
Mənim doğma Qarabağım!
Qarabağım!

1970



MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYAR

AZƏRBAYCAN

Könlüm quşu qanad çalmaz sənsiz bir an,
Azərbaycan,
Xoş günlərin getməz müdam xəyalımdan,
Azərbaycan.

Səndən uzaq düşsəm də mən, eşqin ilə yaşayıram,
Yaralanmış qəlbim kimi qəlbi viran Azərbaycan..

Bütün dünya bilir, sənin qüdrətinlə, dövlətinlə
Abad olub, azad olub mülkü-İran, Azərbaycan.

Bisütuni-inqilabda Şirin-vətən üçin Fərhad,
Külüng vurmuş öz başına zaman-zaman
Azərbaycan.

Vətən eşqi məktəbində can verməyi öyrənmişik,
Ustadımız deyib, heçdir vətənsiz can, Azərbaycan.

Qurtarmaqçün zalimlərin əlindən Rey şümşadını
Öz şümşadın başdan-başa olub al qan, Azərbaycan.

Yarəb, nədir bir bu qədər ürəkləri qan etməyin,
Qolu bağlı qalacaqdır nə vaxtacan Azərbaycan?

İgidlərin İran üçün şəhid olmuş, əvəzində
Dərd almısan, qəm almısan sən İrandan,
Azərbaycan...

Övladların nə vaxtadək tərki-vətən olacaqdır?
Əl-ələ ver, üsyan eylə, oyan, oyan, Azərbaycan!

Bəsdir fəraq odlarından kül ələndi başımıza,
Dur ayağa! Ya azad ol, ya tamam yan, Azərbaycan!

Şəhriyarın ürəyi də sənincitək yaralıdır,
Azadlıqdır mənə məlhəm, sənə dərman,
Azərbaycan!


Tərcümə edən: Fikrət Sadıq



Şəhriyarın dəfn olunduğu Şairlər məzarlığı kompleksi. Təbriz



Eynal dağı. Təbriz



BALAŞ AZƏROĞLU

AZƏRBAYCAN

Əziz Azərbaycan, ey gözəl diyar,
Anamın mehriban qucağı sənsən.
Könül tərlanının uçub qonduğu,
Onun çox sevdiyi budağı sənsən.

Sənsən düşündüyüm, sənsən andığım,
Mənim bu dünyada arxalandığım.
Yetər alışdığım, yetər yandığım,
Bu şirin qəlbimin sorağı sənsən.

Qoy açsın könlümü sözlərim mənim,
Səndən nicat umur gözlərim mənim.
Hələ əyilməyib dizlərim mənim,
Çünkü o dizlərin dayağı sənsən.

Desəm də vurğunam, divanə sanma,
Mən ki öz oğlunam, biganə sanma.
Bir şəmsiz, atəşsiz pərvanə sanma,
Yandığım odların ocağı sənsən.

Qoy bilsin, ey vətən, bu alçaq yağı,
Solmaz bağçamızın yaşıl yarpağı.
Sən Babək yurdusan, Azər torpağı,
Aslanlar oylağı, yatağı sənsən.





Səttarxan və Bağırxan (ortada)
Azərbaycan məşrutəçiləri ilə

MİRZƏ ƏLƏKBƏR SABİR
("Səttərxan" şeirindən bir bənd)

İştə Səttarxan, baxız, İranı ihya eylədi,
Türklük, iranlılıq təklifin ifa eylədi,
Bir rəşadət, bir hünər göstərdi, dəva eylədi,
Dövlətin bir eynini dünyada risva eylədi,
Qaçmayıb pərvanə tək oddan, demə pərvanədir,
Afərinim himməti-valayi-Səttarxanədir.

1908



QABİL

VƏTƏN

Mən gözümü bu torpaqda açmışam,
Mənim dilim bu torpaqda söz tutub.
İməkləmiş, yerimişəm, qaçmışam –
Dizlərimi qanadanda daş-kəsək
İlk yaram da bu torpaqda göz tutub.
Tarixində adım-sanım yox onun,
Hardan olsun, neyləmişəm axı mən?
Ancaq Vətən mənim kimi çoxunun
Zəhmətini çox çəkmişdir əzəldən.
Əllərimdən tuta-tuta aparmış,
Məni həyat yollarına çıxarmış.
Bu yerdədir rişələrim, köklərim –
Ulu babam bu torpaqda uyuyur.
Vətən – mənim al şəfəqli səhərim,
Onsuz günəş gozlərimdə soyuyur.
Vətənsizin nə günəşi, nə ayı?..
Vətən yoxsa – hər şey hədər, havayı.
Qarış-qarış dolansam da cahanı,
Gözəlsə də yad ellərə səyahət,
Heyran-heyran seyr etsəm də hər yanı,
Səyahətim burda bitər, nəhayət.
Ağuşuna çəkər məni torpağım.
Harda olsam, harda gəzib-dolansam,
Burda tapar əks-səda sorağım.
Bir-birindən hər şey qopar, ayrılar –
Ayrılmayan bəs nə var?
Mən, Vətən!



HÖKUMƏ BİLLURİ

VƏTƏN

Halını soruram dağlar dalından,
Ürəyim alışır bu əhvalından.
Mən ilham alardım gül camalından,
Sən bu gün sevgilim, cananım, Vətən!

Durnanın qatarı keçəndə bir-bir
Soruram – yurdumun halı necədir?
Fəraqında mənə gündüz gecədir,
Yolunda qurbandır bu canım, Vətən!

Mənə bir anamdan xəbər söylə sən!
O nələr çəkmədi, nələr, söylə sən!
Qaniçən düşmənə "Yetər!", söylə sən,
Ürəkdə qalmasın fəğanım, Vətən!

Düşmənlər əlində yamandır halın,
Qanlara batsa da şəhrin, mahalın
Bil ki, ölməyəcək böyük amalın,
Tarixə zinətdir bu şanın, Vətən!

İnan, qüvvət gələr yenə dizimə
Müqəddəs torpağın dəysə gözümə.
Əzəldən sən oldun bəzək sözümə,
Sənsən mənim şeirim, dastanım, Vətən!

Vüsalın qəlbimə qüvvətdir inan,
Ürəyim hicrinlə olar pərişan,
Sənsiz yaşamaram dünyada bir an,
Dolanmaz damarda bu qanım, Vətən!

Gözəldir vətənim, torpağım, yerim,
Hüsnündən doymayıb hələ gözlərim.
Adına bağlıdır ürək sözlərim,
Dolanım başına, dolanım, Vətən!

Hüsnün aşiqiyəm, bilir hər diyar,
Səndədir məhəbbət, sonsuz etibar.
Könlüm məndən sənə qalmış yadigar,
Gəlmir özgə şeyə gümanım, Vətən!



Hökumə Billurinin ata yurdu Zəncan şəhəri



NƏBİ XƏZRİ

İSTİQLAL MARŞI

Göz açdığım qədim torpaq,
Dayağımsan sən dünyada.
Doğma anam, ey mehriban,
Ey qəhrəman Azərbaycan!

Addım-addım qucağından
Odlu sellər çağlasa da,
Həsrət qaldın sən işığa
Zaman-zaman, Azərbaycan!

Yadellilər damla-damla
Al qanını sordu sənin,
Kimlər sənin göz dikmədi
Torpağına, Azərbaycan!

Bayrağını endirdilər,
Ancaq özün əyilmədin,
Alqış bu gün o ucalan
Bayrağına, Azərbaycan!

Səhər kimi cavan sənsən,
Tarix kimi qoca sənsən.
Fatehləri diz çökdürən
Vüqarımsan, Azərbaycan!

Öz müqəddəs dağlarından
Günəş kimi uca sənsən,
Yer üzündə mənim Odlar
Diyarımsan, Azərbaycan.

Səhərlərin qoy açılsın
Təzə nurlu bahar ilə,
Gələcəyə mərd addımla,
Uğurla get, Azərbaycan!

Şəhidlərin al qanından
Lalə acmış yollar ilə
İstiqlalın sabahına
Qürurla get, Azərbaycan!



Üçrəngli bayrağımız Xızı qalasında




TOFİQ BAYRAM

QARABAĞI VERMƏRƏM

Bütün aləm danışır
Mənim səxavətimdən,
Qonağa pay verəndə,
Bahasını verərəm.
Dostlara süfrə açıb,
Öz halal nemətimdən,
Evimin ipəyini,
Xarasını verərəm.
Lazım olsa yolunda
Keçib can sərvətimdən,
Çıxarıb ürəyimin
Parasını verərəm.
Kimlər ki, şəfqət tapır
Ana təbiətimdən,
Dərman kimi dağların
Havasını verərəm,
Amma dağı vermərəm.
Mən heç zamn dönmərəm
Fikrimdən, niyyətimdən.
Lazım gəlsə gözümün
Qarasını verərəm,
Qarabağı vermərəm!

Əgər yer-göy dağılıb,
Dönsə baharım qışa
Parça-parça doğranıb,
Yem olsam da qurd-quşa
Allah da göydən enib,
Başlasa yalvarışa,
Bu gün dünya daralıb,
Dönsə bircə qarışa,
Qara keşiş yumşalıb
Kərəm ilə barışa,
Göyçə gölü birləşib
Göy gölümə qarışa.
Yüz min çaya
Turşsutək
Bir bulağı vermərəm.
Mən canımı verərəm,
Qarabağı vermərəm!
Bu necə qonşuluqdur,
Üzük mənim, qaş onun?
Mən öz başımdan keçim,
Çiynimdəki baş onun?
Torpağımdan pay verim,
Olsun könlü xoş onun?
Nədir yeddi bir yaddan
Fərqi belə qonşunun,
Bu Qarabağ nə vaxtdan
Məskəni olmuş onun?
Əli sınsın tarixi
Belə düzüb-qoşanın!
Gözüm yoxdur üstündə
Bircə qara daşının.
Ağ dumanlar gəlinlik
Duvağıdır Şuşanın.
Mən gəlinin üzündən
O duvağı vermərəm.
Namusum, nemətimdir,
Qarabağı vermərəm!
Bu nə oyundur? – deyib
Vaqif qalxar məzardan.
Mavzoleyi od tutub
Əriyər intizardan.
Lənət daşı yağdırar
Xan qızı daş hasardan.
Görən Üzeyir bəyə
Çatıbdır bu səs hardan?
Qarabağın çənidir
Tunc heykəli bozardan.
Qıratdımı şığıyan,
Hardan qopur toz, hardan?
Nərə çəkir Koroğlu,
Gəlir bu avaz hardan?
Bu nə cəngi səsidir
Zilə çıxır saz hardan,
Qalxıb Cıdır düzünə
Nigar, Xan Eyvaz hardan?
Görüb o gur yığnağı
Kür burdan hay qoparır,
Şütüyür Araz ordan,
Düşdü Zorilər zordan.
Vətən satlıq mal deyil,
Əl çəkin bu bazardan.
O sırtılmış üzləri
Varmı soyub qızardan?
Torpaq adım, şərəfim,
Mən torpağı vermərəm.
Köynəyim bayraq olub
Seçilməz laləzardan.
Mən əsgərəm, əlimdən
O bayrağı vermərəm.
Öz qanımı verərəm,
Qarabağı vermərəm!



MƏMMƏD ARAZ

AZƏRBAYCAN – DÜNYAM MƏNİM

Azərbaycan – qayalarda bitən bir çiçək,
Azərbaycan – çiçəklərin içində qaya.
Mənim könlüm bu torpağı vəsf eləyərək
Azərbaycan dünyasından baxar dünyaya.


Azərbaycan – mayası nur, qayəsi nur ki...
Hər daşından alov dilli ox ola bilər.
"Azərbaycan!" – deyiləndə ayağa dur ki,
Füzulinin ürəyinə toxuna bilər.

Oğulları Kür gəzdirər biləklərində,
Oğulların göz atəşi gözəl əridir.
Azərbaycan səhərinin bəbəklərində
Qütb ulduzu, dan ulduzu gözəlləridir.


İllər olub – kürələrdə dəmir olmuşuq,
Sərhədlərdə dayanmışıq küləkdən ayıq.
Od gölündə, buz çölündə gəmi olmuşuq,
Biz Bakının ilk səadət carçılarıyıq.

Min illərlə zülmətlərə yollar açıqdı,
Dalğalandı Sabirlərin ümman dünyası,
Azərbaycan qatarı da yollara çıxdı
Dağılanda Qoca Şərqin duman dünyası.

Azərbaycan – mayası nur, qayəsi nur ki...
Hər daşından alov dilli ox ola bilər.
"Azərbaycan!" – deyiləndə ayağa dur ki,
Ana yurdun ürəyinə toxuna bilər.



Əshabi-Kəhf (mağara). Naxçıvan



SÖHRAB TAHİR

DAHA

Dərdi dərd olmuşdur elin də mənə,
Ağladım bir naşı güləndə mənə,
Heç kəs ağlamasın öləndə mənə,
Mən hec vaxt, heç zaman ölmərəm daha.

Azad qardaşım var, onunla xoşam,
Mən gərək sahili sahilə qoşam.
İki bölünməkdən elə qorxmuşam,
Çöpü də ikiyə bölmərəm daha.

Dənizlər, dəryalar mənə dayazdır,
Ən dərin bir cay var, o da Arazdır.
Mənə görüş verin, azadlıq azdır,
Görüşsəm, ayrılıq bilmərəm daha.

Mənim səadətim hardasa itdi,
O, asan gəlmişdi, asan da getdi,
Mənə nə etdisə, səadət etdi,
Bədbəxt səadətə gülmərəm daha.



ƏLİAĞA KÜRÇAYLI

VƏTƏN

Mən səndən bir yaşıl budaq istədim,
Sən mənə bəxş etdin zümrüd meşələr.
Mən səndən kiçik bir otaq istədim,
Sən mənə bəxş etdin dilbər guşələr.

Mən səndən adicə həyat istədim,
Sən məni çıxardın min-min səhərə.
Mən səndən kiçik bir qanad istədim,
Sən məni uçurdun ənginliklərə.

Mən səndən bir dəstə çiçək istədim,
Mənimçun dörd fəsli yaz elədin sən.
Mən səndən ilhamlı ürək istədim,
Sən mənə təb verdin milyon ürəkdən.

Mən səndən kiçik bir sevinc istədim,
Sən mənə bəxş etdin bütöv səadət,
Mən səndən bir parca bürünc istədim,
Sən mənə bəxş etdin xəzinə, dövlət.

Mən səndən istədim açıq bir alın,
Sən mənə bəxş etdin əzəmət, vüqar,
Mən də başıaçıq, ayağıyalın
Yolunda can qoysam, yenə az olar.

Bəlkə, buna görə əzəmətlisən –
Nəyin var, vermisən əsirgəmədən!
Sən bir ana kimi səxavətlisən,
Anam Azərbaycan, Vətən, can Vətən!



MUSA YAQUB


AZƏRBAYCAN TORPAĞI

Burda hər meşənin min cür ağacı,
Burda hər ağacın yamyaşıl tacı.
Burda hər tac üstə sarmaşıq saçı,
Hər saçın küləkdən darağı vardır.

Burda hər budağın şeyda bülbülü,
Burda hər bülbülün qönçə bir gülü,
Burda hər qönçənin yaşıl bir tülü,
Hər tülün xırdaca saçağı vardır.

Burda hər yamacın çiçəkdir daşı,
Burda çiçəklərin şehdir göz yaşı;
Burda şeh damlası bir üzük qaşı,
Hər qaşın qızılı qurşağı vardır.

Burda sərər düzə lalələr xalı,
Burda hər xalının qara bir xalı...
Hər xalda şirin bir şair xəyalı,
Burda hər xəyalın oylağı vardır.



Salyan şəhəri

Burda qayaların daşdır suvağı,
Burda hər daş üstə qartal caynağı,
Caynaqlı hər daşın bir buz bulağı,
Burda hər bulağın qonağı vardır,
Harda bu saydığım gözəllik olsa,
Orda Azərbaycan torpağı vardır.



SƏYAVUŞ MƏMMƏDZADƏ


ŞUŞADA BİR GECƏ

Şuşanı qar gördüm, qar gördüm,
Elimi var gördüm, var gördüm,
Səslədim ötən günləri,
Daşları kar gördüm, kar gördüm.


Yazıma gəl dedim, gəl dedim,
Üzümə gül dedim, gül dedim,
Haçandan sönən ocağın
Külünə gül dedim, gül dedim.

Dağları dağ gördüm, dağ gördüm,
Həmişə şax gördüm, şax gördüm,
Bir bulaq aynasında
Saçımı ağ gördüm, ağ gördüm.

Şuşadan yol getdim, yol getdim,
Dedilər, qal, getdim, qal, getdim,
Ürəyim dilə gəldi,
Dinmədim, lal getdim, lal getdim.



İsmayıllı şəhəri



MƏMMƏD İSMAYIL

AZƏRBAYCAN ƏSGƏRİ

Boyuna qurban olum, Azərbaycan əsgəri,
Dünyanın ən mübarək qələbəsi sənindir.


Bu vətənin nəyi var – azı-coxu döyüşür,
Dağı, daşı, torpağı, varı, yoxu döyüşür.
Necə şəhid igidin nakam ruhu döyüşür,
Bir əsgərə cevrilir burda hər məzar daşı,
Qürur yerim, nə yaxşı, başlatdın bu savaşı...

Ocağının başına cıxmağa yad gözləmə,
Dur, ayaqdan başa cıx, başqa imdad gözləmə.
Andın vətənin andı, qeyri bir and gözləmə, –
Adın vətən adıyla çəkilərsə yanaşı,
Bu vuruş haqq vuruşu, bu savaş haqq savaşı.


Bu insan dənizində hər insan bir adacıq,
Doğmaca yurdumuzu viran qoydu yad acıq.
Haqdı səni səsləyən haqq üçün cihada çıx,
Yürü, igid səfinin nə arxası, nə başı,
Bu vuruş haqq vuruşu, bu savaş haqq savaşı.

Beşcə kəlmə sözüm var, canım, ey cavan əsgər,
Yoluna uğur deyim, Xan Eyvazım, xan əsgər.
Boyuna göz dikmişəm, boyuna qurban, əsgər,
Bu hücumun sonunda ölüm var uzaqbaşı,
Bu vuruş haqq vuruşu, bu savaş haqq savaşı.

Ağzımda haqq deyirəm, bu haqq səsi sənindir,
Hələ haqqın nahaqla bəhsəbəhsi sənindir,
Dünyanın ən mübarək qələbəsi sənindir,
Bu qələbə yolunda nə dayan, nə yavaşı,
Bu vuruş haqq vuruşu, bu savaş haqq savaşı!



Tovuz şəhəri



İSA İSMAYILZADƏ


*VƏTƏN DEYİRƏM**

Sən mənim köksümdə çarpan ürəksən,
Mən sənin köksündə – kiçik bir zərrə.
Mənə qanad verən odlu diləksən,
Adına, özünə Vətən deyirəm,
Çölünə, düzünə Vətən deyirəm
Səni heca-heca oxşayıram mən,
Səni heca-heca əzizləyirəm;
Əlim ürəyimin üstündə hərdən
Şəhərdən-şəhərə gümüş qanadla
Göydə uça-uça əzizləyirəm.
Dağında vüqarlı qartal oluram,
Dünya ayağımın altında qalır...
Səndən uzaqlarda xəyal oluram,
Həsrətdən gözümün kökü saralır.
Görüşə tələsən cavanlar kimi
Saata baxıram qatarlarda mən.
Ən əziz, müqəddəs ünvanlar kimi,
Köksümün altında uyuyan Vətən!
Axırsan çay kimi damarlarımda,
Çopur qayana da qaynayır qanım.
Böyüklü-kiçikli arzularım da
Adınla bağlıdır, Azərbaycanım!
Sən mənim köksümdə çarpan ürəksən,
Mən sənin köksündə – kiçik bir zərrə.
Mənə qanad verən odlu diləksən,
Adına, özünə Vətən deyirəm,
Çölünə, düzünə Vətən deyirəm.



Borçalı mahalından bir görüntü

* İllər öncə bu şeiri Murad Rzayevin "Bayatı-Şiraz" improvizəsi əsasında yeniyetmə Tacir Şahmalıoğlu məharətlə oxuyaraq dillər əzbəri etmişdir – M.Ç.



ŞAHMAR ƏKBƏRZADƏ

MƏRKƏZİ POÇTXANA

Mərkəzi poçtxana, əlac et yenə
Havayı düşməyib buraya yönüm.
Pənah gətirmişəm könlümü sənə,
Bir gör neyləyirsən, gözünə dönüm.

Bu payız küsəcək məndən Qarabağ,
Yollarda qalacaq gözü yolların.
Payım budaqlardan özün asacaq,
Bağrı catlayacaq güleyşə narın.

Üstdə dizin-dizin iməklədiyim
Torpağın könlünü nə təhər alım?
Anamdır, bəs ona nə təhər deyim,
Yanına gəlməyə yoxdur macalım?

Mənə kod göstər ki, zəng vura bilim
Dağların marala qalan cağına.
Pərişanlığımı çatdıra bilim
Otların sarala qalan cağına.

Morze əlifbanı Tanrı bilərəm,
Bu işi boynuna götürə bilsən.
Tamarzı könlümü bu saat, bu dəm
Bir acı yovşana yetirə bilsən.

Olarmı təcili teleqram verim
Qönçə balaları solan güllərə?
Sovqat öpüşüm var, necə göndərim
Çörəkli çöllərə, barlı çöllərə?

Bir quşam, mənimki gətirib belə,
Çıxmaz ürəyimdən Əppəkli dərə.
Həsrətim çatarmı, görən, poçt ilə
Qızıl kövşənlərdə bildirçinlərə?!

Mərkəzi poctxana, sifarişim var,
Amandır, qoyma ki, gec eləsinlər!
Xəbər ver, Cənuba köçən durnalar
Bu gecə qəlbimdə gecələsinlər.

İndeksi olmayan bu məktubları
Yalqız yuvalara çatdır birtəhər.
Həsrətim oranı isitsin barı
Sahibi qürbətdən gələnə qədər.

Payız sularının layla səsini,
Anamın ətrini hardan alım bəs?
O yerə burnumun göynərtisini
Teleqraf telləri apara bilməz.

Mərkəzi poçtxana, əlac et yenə,
Havayı duşməyib buraya yönüm.
Pənah gətirmişəm könlümü sənə,
Bir gör neyləyirsən, gözünə dönüm!

1977



ÇİNGİZ ƏLİOĞLU

AND

Yaylıqları bayraq olan Vətənim!
Anaların pak südünə and olsun!
Bayraqları torpaq olan Vətənim,
Torpağının boz külünə and olsun!

Hər qarış yerinçün candan keçərik,
Qaniçən deyilik, düşmən qanını
Su yerinə şərbət sanıb içərik!
Yaylıqları bayraq olan Vətənim!

O ağaran dan yerindən hərəmiz
Əynimizə ağ bir kəfən biçərik!
Anaların göz yaşına and olsun!
Bellərini kədər bükmüş o azman
Babaların ağ başına and olsun!

Yerdə qalmaz bu al qanın ləkəsi.
Qalsa əgər, tutsun bizi qoy sənin
Verdiyin o duz-çörəyin tikəsi!
Yaylıqları bayraq olan Vətənim!

Sən ağlama, sən ağlasan, yanacaq,
Qovrulacaq bax bu canım, bu tənim!
Oğulların divar-divar, min-mindir,
Lazım gəlsə, bundan belə damarda
Axan qanın hər giləsi sənindir.

Sənindir bax bu döyünən ürəklər,
Amal da sən, arzu da sən, şərəf sən,
Səninkidir bu muradlar, diləklər!
Biz getsək də, bu dünyada sən yaşa,
Adımız adınla çəkilsin qoşa.
Yaylıqları bayraq olan Vətənim,
Bayraqları torpaq olan Vətənim...

9 noyabr 2019-cu il



Horadiz qəsəbəsi



NÜSRƏT KƏSƏMƏNLİ

AĞLAMA, TƏBRİZİM, AĞLAMA...

Demə, yollar uzaqdır,
Araya bir çay düşüb,
Vüsal kimin qisməti,
Bizə həsrət pay düşüb.
Birimizə göz yaşı,
Birimizə toy düşüb;
Danış, ucadan danış,
Sən dilini bağlama,
Ağı dediyin bəsdir,
Ağlama, Təbrizim, ağlama.

Ölənlər torpağındır,
Bizə sağlar qalıbdır,
Baxıb köks ötürməyə
Qarlı dağlar qalıbdır,
Bir gözümüz gülürsə,
Biri ağlar qalıbdır,
Sil gözünün yaşını,
Ürəyimi dağlama,
Ağlama, Təbrizim, ağlama.

Bir torpağın üstündə
O taylı, bu taylıyıq.
Torpaq ki ömür deyil,
Necə gəldi, paylarıq.
Nə qədər "qardaş" deyib
Uzaqdan haraylayaq?
Ucalt haqqın səsini,
De sözünü, saxlama,
Ağlama, Təbrizim, ağlama.

Bəlkə, bənövşəmizi
Bu nisgil, həsrət əyir?
Araza körpü üçün
Torpaq oğul istəyir,
Sənə əl uzadıram,
Soyuq məftilə dəyir,
Sən güvən öz ağlına,
Döyüşkən, düz ağlına,
Ağlama, Təbrizim, ağlama.

Çoxu dil pəhləvanı,
Sözdə aşıb-daşırıq,
Bu günahsız Araza
Neçə günah qoşuruq,
Vətənin ortasında
Məftilə dolaşırıq,
Bir də bax dünəninə,
Kimsəyə bel bağlama,
Dur ayağa, "Vətən" de,
Ağlama, Təbrizim, ağlama!..



RƏŞAD MƏCİD

CIDIR DÜZÜ

Dərədə möcüzə, dağda möcüzə,
Torpağa bu qədər vurulmamışdım.
Gözəllik önündə heç vaxt, heç vədə
Belə təzələnib durulmamışdım.

Dili tutulubmu torpağın, daşın?
Görən niyə belə səssizdi bu yer?
Haçansa Üzeyir ayağı dəyib,
Yəqin ona görə əzizdi bu yer.

Sükuta bürünüb Cıdır düzümüz,
Bülbülün səsinə dalandan bəri.
Torpaq dərd əlindən qayalaşıbdır,
Ellər Natəvansız qalandan bəri.

Göz dikib bu yerə yağılar, yadlar,
Su olub düzündə axa bilməyib,
Nə qədər zirvələr fəth edib Qacar,
Amma bu zirvəyə qalxa bilməyib.

Burda daşları da qoruyaq, gəlin,
Hansı bir daşdasa Vaqif qanı var.
Bura yaddaşıdır obanın, elin,
Burda hər bir nəslin öz ünvanı var.

Deyirəm, dünyada sevgi tapılmaz,
Övladın torpağa sevgisi kimi.
Bu yurd yaddaşımda qalacaq mənim–
Tarixin möcüzə sərgisi kimi.



Üçrəngli bayrağımız Cıdır düzündə



ÜÇRƏNGLİ BAYRAĞIMIZIN VƏSFİ



Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik! İnanın ki, gedəcəyik! Şuşa Azərbaycanın gözüdür. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir.

Heydər Əliyev



Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik!

İlham Əliyev



Həmişə sülh tərəfdarı ol, amma müharibəyə də hazır ol.

B. Napoleon




Dövlət xadiminin siyasi xadimdən fərqi budur ki, siyasətçi gələcək seçkiləri, dövlət xadimi isə gələcək nəsilləri düşünərək fəaliyyət göstərir.

U. Çörçill



Dövləti pul, maliyyə qıtlığı deyil, istedadlı şəxsiyyətlərin azlığı zəiflədir.

F. Volter



Öz vətənini sevməyən insan heç kəsi və heç nəyi sevə bilməz.

O. Balzak

HƏRB MUSİQİSİ

Musiqi insan ruhunun ən gözəgörünməz hisslərinin, izharı sözlə çətin olan ovqatının ifadəçisi olduğundan qeyri-adi səfərbərlik qüdrətinə malikdir. Buna görə musiqinin həm də ordunun səfərbər olmasında rolu son dərəcə böyükdür. Xalqımızın apardığı müharibələrin izlərini təkcə tarix kitablarında axtarmaq azdır. Xalqımızın öz keşməkeşli günlərini ağılarda, bayatılarda, nağıl və dastanlarda, özünün musiqi folklorunda yaşatmışdır.

Gumbur-gumbur nağaralar döyüldü,
Burması altun borular çalındı.

("Kitabi-Dədə Qorqud")

Qoç Koroğlunun elə bir qovğası yoxdur ki, qılıncından öncə sazı köynəkdən çıxarmasın. Şavaşdan qabaq Koroğlu öz dəlilərini vuruşa sazla səfərbər edib. Diqqət etsək, "Koroğlu" dastanının hər səhifəsində milli marşlarımızın sədasını eşidərik. Təsadüfi deyil ki, yazılı ədəbiyyatımızda musiqinin insan həyatında nə qədər böyük əhəmiyyət kəsb etdiyinin təsvirini, vəsfini görürük. Dahi Nizami Gəncəvinin qəhrəmanlıq dastanı olan "İsgəndərnamə"sindən fikrimizi təsdiq edən onlarca poetik misal göstərmək olar.

Səsləndi nağara, şeypur dərindən,
Sanki yer oyandı göy tək yerindən.

Məhəmməd Füzuli "Leyli və Məcnun" poemasında sərkərdə Nofəlin döyüş səhnəsini ikicə misrada çox böyük ustalıqla canlandırıb:

Boru ünü çıxdı asimanə,
Xəncər bədəni boyadı qanə.

Əlbəttə, klassik ədəbiyyatımızdan bu qəbildən çoxlu dəlil-sübut gətirmək olar. Tarixə çevrilmiş müharibələr xalqın həyatında, məişətində öz dəhşətli izlərini qoyduğu kimi, şair və ədiblərin, musiqiçilərin də yaradıcılığında öz əksini tapmışdır. Əgər belə olmasaydı, "Keşiş oğlu", "Misri", "Cəngi", "Divani" kimi aşıq havaları, "Mani", "Heyratı", "Mənsuriyyə" zərb muğamları, "Qaçaq Nəbi", "Səttarxan", "Çalpapaq" kimi xalq mahnılarında qəhrəmanlıq ruhumuz, döyüş əhvalımız vəsf olunmazdı. Min illər boyu müəyyən fasilələrlə mövcud olmuş Azərbaycanın dövlətçilik tarixində hərb musiqisinin də öz yeri olmuşdur. Hərbi orkestr dövlət atributu olmasa da, dövlət himnini, döyüşkən ruhlu marşları ifa edərək əsgər ruhunu coşduran, onu səfərbər edən, vətənpərvərlik ruhuna kökləyən gücə malik olduğundan milli ordunun ayrılmaz bir hissəsidir. Əlbəttə, hər dövrün öz musiqi alətləri, öz ifaçıları olmuşdur. "Müasir və təkmil orkestr modeli ölkəmizdə ilk olaraq Azərbaycan Demokratik Cümhuriyyəti ordusunun qoşun növləri arasında yer almışdır. 1919-cu ildə Bakıda təşkil olunan hərbi paradda Cümhuriyyət ordusunun hərbi qüdrəti və onu müşayiət edən hərbi orkestr bütün dünyaya nümayiş olunmuşdur" *(Rüfət Axundzadə, Pərviz Səfərli)*. Təəssüf ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. İkinci dəfə müstəqilliyini əldə eymiş Azərbaycan Respublikasının Müdafiə Nazirliyi



Xalq artisti, dirijor Yusif Axundzadə



Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Orkestrin rəisi, dirijor Rüfət Axundzadə

1 iyul 1992-ci ildə Hərbi Orkestr Xidmətinin yaradılması haqqında qərar qəbul etmişdir. Nazirlik 21 il sovet qoşunlarında xidmət etmiş polkovnik-leytenant Yusif Axundzadəni Müdafiə Nazirliyinin Hərbi Orkestr Xidmətinin rəisi vəzifəsinə təyin etdi. Bu təyinat heç də təsadüfi deyildi. Yusif Axundzadə fleyta ixtisası üzrə Bülbül adına Musiqi Məktəbini, daha sonar Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdi. 1970-ci ildə hərbi xidmətə çağırılan Yusif Axundzadə Xəzər Dəniz Hərbi Donanmasının tərkibində mahnı və rəqs ansamblında mu-



Dirijor Y. Axundzadə rəsmi qarşılama mərasimində

siqiçi matros kimi fəaliyyətə başlamışdı. Tezliklə istedadlı musiqiçi və təşkilatçı kimi diqqəti cəlb edən Yusif Axundzadə 1971-ci ilin iyun ayında leytenant rütbəsində Xəzər Dəniz Hərbi Donanmasının Ali Hərbi Dənizçilik Məktəbində hərbi dirijor və orkestr rəhbəri vəzifəsinə təyin edilir. Bəli, işi iş bilənə, peşəkara tapşıranda müsbət nailiyyətlər əldə etmək olur. Bu baxımdan Müdafiə Nazirliyinin Hərbi Orkestrinin yaranıb formalaşmasında Xalq artisti, Bakı Musiqi Akademiyasının Nəfəs və zərb alətləri kafedrasının müdiri, professor, general-mayor Yusif Axundzadənin çox böyük əməyi olmuşdur. Yusif Axundzadə o günləri yad edərək fəxarət hissilə deyir: "Azərbaycan yenicə müstəqillik qazanmışdı. Sovet ordusu artıq yox idi. Onlar köçüb gedərkən hər şeyi özləri ilə aparmışdı. Hətta musiqi alətlərini belə. Ölkəmiz milli ordu formalaşdırırdı. Hər bir işi yenidən başlamalı olurdu. Mən də öz öhdəmə düşən işi görməli idim. İlk olaraq Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Orkestrini yaratdım. Özü də

çox çətinliklə". General-mayor Yusif Axundzadə bununla da kifayətlənməyib Silahlı Qüvvələrin quru qoşunlarında, hərbi hava və dəniz qüvvələrində, hərbi müəssisələrində hərbi orkestrlər yaratmışdır. Bu gün müxtəlif hərbi hissələrdə 12 hərbi orkestr fəaliyyət göstərir. Yusif Axundzadənin rəhbərlik etdiyi hərbi orkestr rəsmi qonaqların qarşılanma mərasimində milli qvardiya ilə yanaşı istirak edir. Rəsmi mərasimlərdə, hərbi paradlarda dövlət himnləri, əsgər marşları hərbi orkestrin ifasında çox əzəmətlə səslənir. Bu gün general-mayor Yusif Axundzadə Müdafiə Nazirliyinin Orkestr Xidmətinin rəisi və Baş dirijoru vəzifəsində çalışır. Yusif Axundzadənin oğlu Əməkdar incəsənət xadimi, Bakı Musiqi Akademiyasının Nəfəs və zərb alətləri kafedrasının dosenti Rüfət Axundzadə atasının yolu ilə gedərək Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Orkestrin rəisi vəzifəsində çalışır.



Dirijor Rüfət Axundzadə hərbi orkestr ilə



ƏHMƏD CAVAD

ELİN BAYRAĞI*

Sən çıx bu minbərdən doğrunu söylə,
Yalvarma kimsəyə Tanrıdan başqa!
Küskünsə taleyin, sən ona küsmə,
Dinlə qədir səsin, çalış-çabala!

Bu bəxtsiz millətin daddığı acı
Çalış əlac olsun, diriltsin onu!
Düşmən başındakı o zəfər tacı
Görsün ki, ər qəmin deyildir sonu!

Qüruru cahandan, nuru haqdan al,
Hidayət etməyə yol azanları!
Gəlməsin yardımsız qəlbinə həlal,
Yardım: münavələr.... sübh azanları!

Təmiz alnındakı tozu, torpağı,
Haqq üçün açdığın əllərinlə sil!
Qalxıb, bir də enməz elin bayrağı,
O sənin, o mənim əlimdədir, bil!

* Bu şeir 1918-ci ildə ilk dəfə Gəncədə AXC-nin elan olunduğu, üçrəngli bayraq qaldırıldığı zaman söylənilmişdir.

AL BAYRAĞA

Gül rəngində bir yarpağın
Ortasında bir hilal!
Ey Al Bayraq, sənin rəngin
Söylə neyçün böylə al?!

Hakim olub bir torpağa,
Ona etmək böylə naz?
Səndən başqa bir gözələ
Söylə, neyçün yaraşmaz?

Bu bənzəyiş nədən gözüm,
Şəhidlərin qanına?
Uğrunda can verənlər
Neyçün qıyar canına?

Yol üstündə dərdli nənə
Görür səni ağlamaz?!
Sən öylə bir şeirsən ki,
Sevməyənlər anlamaz!

Ey sevgili bayrağımın
O dalğalı duruşu!
Sandım salam rəsmi sana
Buludların yürüşü!

Sən ey hilal, al qoynuna,
Aldın göydən yıldızı!
Mənftun etdin sən kəndinə
Ən sevdalı bir qızı!

Bakı, 24 iyul 1919



AXC-nin ilk bayrağı. 21 iyun 1918-ci il

AZƏRBAYCAN BAYRAĞINA

İngilislərin Bakıya gəlişindən sonra birinci dəfə Bakıya getdiyim vaxt – 10 aprel 1919-da parlament binası üzərində dalğalanan milli bayrağa söylənilmişdir.

Əhməd Cavad

Türküstan yelləri öpüb alnını,
Söylüyor dərdini sana, bayrağım!
Üç rəngin əksini Quzğun dənizdən
Ərməğan yollasın yara, bayrağım!

Gedərkən Turana çıxdın qarşıma;
Kölgən dövlət quşu, qondu başıma!
İzn ver gözümdə coşan yaşıma–
Dinlətsin dərdini aha, bayrağım!

Qayi xan soyundan aldığın rəngi,
Qocalmış Elxanla müsəlman bəgi,
Elxanın övladı, dinin dirəgi,
Gətirdi könlümə səfa, bayrağım!

Köksümdə tufanlar gəldim irəli,
Öpüm kölgən düşən mübarək yeri!
Allahın yıldızı, o gözəl pəri,
Sığınmış qoynunda Aya, bayrağım!

Aprel, 1919

ÇIRPINIRDIN QARA DƏNİZ
Musiqisi Üzeyir bəy Hacıbəylinindir.

Çırpınırdın Qara dəniz
Baxıb Türkün bayrağına!
"Ah!" deyərdim, heç ölməzdim
Düşə bilsəm ayağına!

Ayrı düşmüş dost elindən
İllər var ki, çarpar sinən!
Vəfalıdır gəldi, gedən
Yol ver Türkün bayrağına!

İncilər tök gəl yoluna,
Sırmalar səp sağ, soluna!
Fırtınalar dursun yana
Salam Türkün bayrağına!


"Həmidiyyə" o Türk qanı,
Heç birinin bitməz şanı,
"Kazbek" olsun ilk qurbanı,
Heyran Türkün bayrağına

Dost elindən əsən yellər,
Bana şeir, salam söylər!
Olsun bizim bütün ellər
Qurban Türkün bayrağına!
Yol ver Türkün bayrağına!

Gəncə, 14 dekabr 1914

MÜSTƏQİLLİK UĞRUNDA

1957-ci ilin may ayının 28-də Xalq Cümhuriyyətinin üçrəngli bayrağını Qız qalasının üstünə sancan Cahid Hilaloğlu sürgün həyatını başa vurduqdan sonra da, nəzarət altında olmasına baxmayaraq, öz əqidəsinə sadiq qalıb. İngilis, ərəb, alman, fransız, fars dillərini bilən



C.Hilaloğlu 1969-cu ildə İrəvan Dövlət Teatrında rejissor-aktyor kimi fəaliyyət göstərib. Burada Nəcəb bəy Vəzirovun "Hacı Qəmbər" pyesini səhnəyə qoyub. 1971-ci ildə Bakıya qayıdaraq Dövlət İncəsənət İnstitutunun Tədris Teatrında rejissor işləyib və dərs deyib. O zaman M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun tələbəsi olan Xalq artisti Yasin Qarayev C.Hilaloğlunun "Yusif və Züleyxa" əsərini tamaşaya qoyduğunu söyləyir. Cahid Hilaloğlu Xalq artisti Naibə Allahverdiyevanın anası Bilqeys xanımla ailə qurub. Naibə xanım söyləyir ki, atalığı kimsəyə qoşulmayan, maddiyyətdən, şöhrətdən uzaq olan insan idi. Daim Azərbaycanın müstəqilliyindən, azadlığından danışardı. Hətta o zaman üçrəngli bayrağımızı təsvir edərək anama tikdirmişdi. Evimizə gələn olanda bayrağı gizlədərdik. Atalığım çox savadlı, istedadlı insan idi. Librettolar, şeirlər yazardı. Ancaq onun yazdıqları başqa adamların imzası ilə çap edilərdi. Onun məzarını çox görmək istəyirəm.

1976-cı ildə institutun rektoru Rahib Hüseynov həbs edildikdən sonra Cahid Hilaloğlu öz ərizəsi ilə işdən çıxıb. Xeyli işsiz qaldıqdan sonra vətəni Ağdamda Dövlət Teatrında rejissorluq edibdir. 30 may 1991-ci ildə Teatr binasının qarşısında nömrəsi bilinməyən "Volqa" avtomobilinin vurması nəticəsində vəfat edib. Onun cənazəsini Ağdam rayonunun Mərzili kəndində dəfn ediblər.



CƏFƏR CABBARLI

AZƏRBAYCAN BAYRAĞINA

Buraxınız, seyr edəyim, düşünəyim, oxşayayım,
Şu sevimli üç boyalı, üç mənalı bayrağı.
Mələklərin qanadımı üzərinə kölgə salan?
Nə imiş bu, aman Allah?! Od yurdunun yarpağı!

Göy yarpaqlı, al çiçəkli yaşıl otlar topasımı?
Xayır, xayır? Çiçək solur, otlar yerdə tapdanır.
Fəqət bizim bayrağımız ucaları pək seviyor,
Yulduzlardan hilaldan da yüksəklərdə fırlanıyor.


Kölgəsində ay əyilib bir gözəli qucmada,
Qucaşaraq sevdiyilə yüksəklərə uçmada,
Şu görünüş bir ananın şəfqətinə oxşuyor.
Düşündükcə zövqlərimi, vicdanımı oxşuyor.

Bu ay, yıldız, boyaların qurultayı nə demək?
Bizcə böylə söyləmək!
Bu göy boya Göy Moğoldan qalmış bir türk nişanı,
Bir türk oğlu olmalı!
Yaşıl boya islamlığın sarsılmayan imanı,
Ürəklərə dolmalı!

Şu al boya azadlığın, təcəddüdün fərmanı,
Mədəniyyət bulmalı.

Səkkiz uclu şu yulduz da səkkiz hərfli OD YURDU
Əsarətin gecəsindən fürsət bulmuş quş kibi,
Səhərlərə uçmuşdur,
Şu hilal da türk bilgisi, düzgün sevgi nişanı,
Yurdumuzu qucmuşdur!
Allah, əməllərim edib şu bayrağı intiqal,
Birər-birər doğru olmuş, bir ad almış: İSTİQLAL!
Yürəyimdə bir dilək var, o da doğru kəsilsin,
O gün olsun bir göy bayraq Turan üstə açılsın.

1919



AXC-nin parlament binasının ön tərəfdən görüntüsü



Azərbaycan Xalq Cümhuriyyətinin parlamentdə dalğalanan bayrağı


SEVDİGİM

Altun köksün hilal-yıldız, işıqları öpüncə,
Zirvəsindən Şah dağının gündoğuşu dinilür.
Rəhmallahi gözəlliklər tanrısı tək pək incə,
Bir siyaqla könüllərə hey salamlar söylüyür.
O yerlərdə qardaşları, dostları var, pək sevir,
Yaşıl donlu, mavi gözlü, al yanaqlı sevdigim.

Canalıcı bir görkəmlə dağ başında durunca,
Oxşadıqca bahar yeli açıq-dağnıq tellərin.
Nazlı elin umuzunda saçlarına vurduqca,
Bir-bir oxşayırsan bütün Turan ellərin.
Altaylardan, Altun dağdan doğma sellər gəliyor
Yaşıl donlu, mavi gözlü, al duvaqlı sevdigim.

Rəmuz ilə dörd bir yanə işıq saçmaq istiyor,
Ara-sıra tərpəniyor, bu kəsik uçmaq istiyor,
Qollarilə türk ellərin bütün qucmaq istiyor,
Yaşıl donlu, mavi gözlü, al duvaqlı sevdigim.

25 avqust 1919-cu il



ƏBDÜLXALİQ CƏNNƏTİ

BAYRAĞIMIZ

Olsa meydanda əgər şəqqəgüşa bayrağımız,
Düşmənin qəddini etməzmi düta bayrağımız?
Çün hilali çəkib ağuşə səadət təcmin,
Məhi-nov tək olub əngüştnüma bayrağımız.
Görsə köksündəki ay-yulduzu, göz xirələnir,
Bərqi-lame kimidir çöhrənuma bayrağımız.
Dunadılmış gül ilə, səbzə ilə, zənbəq ilə,
Sanki gülşəndə tapıb nəşvü nüma bayrağımız.
Qibleyi-taəti-ixfvanı-səfadır, əlhəq,
Kəfəni-cismi-şərifi-şühəda bayrağımız.
Ta ki türk oğlu ayıqdır, vətəni qoruyacaq,
Yatmayıb, yatmayacaqdır əbəda bayrağımız!
Cənnəti, xiteyyi-Azərbaycan cənnətdir,
Sayə salmış ona tuba kimi ta bayrağımız.

1919



AXC-nin Osmanlı İmperiyasındakı Diplomatik Nümayəndəliyində dalğalanan bayrağı

SANCAQ

Uğurlusan, xoşyəminsən, gözəlsən,
Sayəndə yaşarız vəcdi-hal ilə.
Nöqsansızsan, bimüslü bibədəlsən,
Kəmalə yetmisən bir hilal ilə.

Göksündə ay-yıldız səma misali,
Şənin çox yüksəkdir, rütbəndir ali,
Sənə baş endirər alivü tali,
Xidmətində durar canü mal ilə.

Rayəti-nüsrətsən, fatihi-kişvər,
Bayraqlar içində yox sənə bənzər.
Təməvvücün görcək buludlar titrər,
Öylə kim, dəryalar bir şimal ilə.

Vacib olmuş biz millətə hörmətin,
Həqq artırsın günü-gündən rifətin.
Gər bilməsək sənin qədrü-qiymətin,
Yaşarız dünyada infial ilə.

Sayəndə ordumuz olmuşdur cəri,
Sözümüzün səninlədir kəsəri,
Hilalında vardır nüsrət əsəri,
Əsrlərlə nə ki mahü sal ilə.

Rəzmgah içində sabitqədəmsən,
Aləmlərdə şöhrətinlə ələmsən.
Cənnəti, sən əgər sahibqələmsən,
Yaz sancağın vəsfin xoş məqal ilə.

1919-cu il



Azərbaycan Xalq Cümhuriyyətinin zabit və əsgərləri. İstiqlal Muzeyi.
1918–1919-cu illər

AZƏRBAYCAN SOVET SOSİALİST RESPUBLİKASININ BAYRAĞI

Bolşevik Rusiyası 28 aprel 1920-ci ildə ölkəmizə qoşun yeridib Azərbaycan Xalq Cümhuriyyətini devirdi, əvəzində yerli bolşeviklərin gücündən istifadə edərək Azərbaycan Sovet Sosialist Respublikası yaradıldı. Kremlin göstərişlərini, tələb və təkliflərini qeyd-şərtsiz yerinə yetirməyə məhkum olunmuş Azərbaycan Sovet Sosialist Respublikası cəmi 70 il mövcud oldu. Mövcudluğunun başlanğıcından Cümhuriyyət qurucularına, torpaq, mülk sahiblərinə, milyonçulara, bəylərə, bəyzadələrə, maarifpərvər ziyalılara qənim kəsilən, onların var-dövlətini milliləşdirmə şüarı ilə əlindən alan, müxtəlif bəhanələrlə həbs edən, güllələyən, sürgün edən bir quruluş, əlbəttə, çox yaşaya bilməzdi. Bütün çatışmazlıqlarına, avtoritar idarəçilik üsuluna baxmayaraq, xalqımızın həyatında oynadığı müsbət cəhətləri də inkar etmək düzgün olmaz. Biz istəsək belə, minbir məhrumiyyətləri və müsbətyönlü uğurları yaddaşlarda, kitablarda iz salmış 70 illik bir dövrü tariximizdən silib ata bilmərik. O dövrdə yaradılan zavodların, fabriklərin, ən ucqar kəndlərdə belə açılan məktəblərin, kitabxanaların, mətbu orqanlarının, nəşriyyatların, institutların həyatımızda oynadığı müsbət rolu da yad etməliyik. Məhz bu cəhətlərinə görə 70 il mövcud olmuş Azərbaycan Sovet Sosialist Respublikasının bayraq və gerbinin şəkillərini kitabda verməyi lazım bildik.



Sovet Azərbaycanın bayrağı (1920–1921)



Sovet Azərbaycanın bayrağı (1956–1991)



Sovet Azərbaycanın gerbi



Gültəkin ana Azadlıq meydanında

BAYRAQDAR GÜLTƏKİN ANA*

1988–1989-cu illərdə Azadlıq meydanında, sovet hakimiyəti dövründə yüz minlərlə mitinq iştirakçılarının qarşısında dalğalanan, əldən-ələ ötürülən Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını tikən sadə bir Azərbaycan qadını idi. Heç kəs onun kimliyini bilmirdi. Gün-gündən bu üçrəngli bayrağın sayı da artırdı. Ancaq 1990-cı ilin avqustunda bir müsahibədən bildik ki, üçrəngli bayrağı öz əli ilə tikib meydana gətirən Gültəkin xanım Həsənovadır. Gültəkin Həsənova verdiyi müsahibədə üçrəngli bayrağa olan sevgisi haqqında belə demişdir:

"Atam Həsən Səfərli Hüseyn Cavidin tələbəsi idi. Naxçıvanda teatrın yaradıcılarından biri olub. Üzeyir bəy teatrın birillik yubileyində ona qızıl lira bağışlayıb. Atam müsavatçı idi. Həmişə mənə keçmişdən, mübarizələrindən danışardı, o, bayrağı təsvir edərdi: mavi, qırmızı, yaşıl... 1988-ci ildə mitinqlər başlayanda meydana mən də gəlirdim. Onda meydanda bir bayraq gördüm. Bayrağın yuxarı hissəsi göy idi. Mən yaddaşıma həkk olan bayrağı tikmək qərarına gəldim. Əvvəlcə oğlum Azər (rəssamdır) mənə bir qədər kömək etdi. Tikirdim, gətirib meydanda paylayırdım. Bir dəfə gördüm ki, tribunada bayraq yoxdur. Eyni cür iki ədəd bayraq tikdim, saçaqlar düzdüm, ötürdüm tribunaya. Heç vaxt da adımı bildirməmişəm. Elə sevinirdim ki, meydanda bayraq çox olanda, başımız üzərində dalğalananda. Nə qədər nəfəsim var, tikəcəyəm ki, hər yerdə bayrağımızı görə bilək. Mənim dövlətim bunlardır".

Yaxşı ki, o ağır günlərdə çox sayda bayraq tikən Gültəkin xanım Həsənova üçrəngli bayrağın Azərbaycan dövlət bayrağı kimi bir daha ucaldığı günləri gördü. Bundan böyük sevinc olardımı?! 21 may 2014-cü ildə 86 yaşında dünyasını dəyişən Gültəkin Həsənovanı bu gün hər kəs Gültəkin ana kimi minnətdarlıqla xatırlayır. Qəbri nurla dolsun!

---

* Tarixçi Dilqəm Əhmədin "Ölkə üçün bayraq tikən Gültəkin ana" məqaləsindən istifadə edilmişdir. – *M.Ç.*



BAYRAQDAR FAİQ HƏSƏNOV

Faiq Mobil oğlu Həsənov 28 mart 1946-cı ildə Gəncə şəhərində, ziyalı ailəsində anadan olub. O, 1971-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirib. 1971–1972-ci illərdə hərbi xidmətdə olub. Ordudan tərxis olunduqdan sonra Azərbaycan Dövlət Plan Komitəsində iqtisadçı vəzifəsində çalışıb. İqtisadçı olmaqla yanaşı, Azərbaycan tarixini, incəsənətini öyrənməyə, inkişaf mərhələlərini tədqiq etməyə səy göstərib. Qız qalasının tarixi barədə dəyərli məqalələr yazıb çap etdirib.


Faiq Həsənov 1988-ci ildə Xalq Azadlıq hərəkatına qoşulub. 28 may 1989-cu ildə, Bakıda Fövqaladə vəziyyət və komendant saatının olmasına baxmayaraq, gecələr lampa işığında toxunmuş Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağını saat 11 radələrində Qız qalasına çıxaraq onun üstündə dalğalandırıb. İndi həmin bayraq İstiqlal Muzeyində saxlanılır.

Faiq Həsənov bədii yaradıcılıqla da məşğul olub. Faiq Sirdaş təxəllüsü ilə "Qəmini yel aparsın" şeirlər kitabının, "Gözəllər gözəli Nüşabə xanım" və "Birillik azadlıq" adlı tarixi romanların müəllifidir.

Çətin bir şəraitdə üçrəngli Azərbaycan bayrağını Qız qalası üstündə dalğalandıran Faiq Sirdaşın ruhu şad olsun.



Qız qalasında ucaldılan bayraq.
Bu bayraq İstiqlal Muzeyində saxlanılır.




BƏXTİYAR VAHABZADƏ

BAYRAQ

Torpağım üstünə kölgələr salan
Mənim varlığımın cilası-bayraq.
Zəfərdən doğulmuş Göytürkdən qalan
Qurdbaşlı bayrağın balası bayraq.

Üçrəngli bayrağın kölgəsində mən
Qaraca torpağı vətən görmüşəm.
Zəfər güllərini dövri-qədimdən
Bayraq işığında bitən görmüşəm.
Bayraq mənliyimdir, bayraq kimliyim,
Bayraq–öz yurduma öz hakimliyim.
Harda əcdadımın ayaq izi var,
Bu zəfər bayrağım orda dikəlsin.
Keçdiyi yerlərdə dağlar, yamaclar
Onun hüzuruna salama gəlsin.

Tarixdən qədimdir, zamandan qoca
Mənim bayrağıma sancılan hilal.
Aləmə nur saçdı tarix boyunca
Məbədlər başına tac olan hilal.
Daim ucalasan! Savaş günündə
Əsgər silahıyla səni tən görüm.
Yalnız zəfər çalmış şəhid önündə
Səni alqış üçün əyilən görüm.



FİKRƏT QOCA

BAYRAQ MEYDANI

Dünya kimi qədim Şəki,
Zaman səndən kənar gedib.
Bükülməyib qəddin Şəki.
Şimalda qala-divarım,
Mənim sınmayan vüqarım,
Canım, gözüm, üsyankarım,
Müstəqillik bayrağını
Hamıdan çox gözləmisən.
Yad əllərdən qorumusan
Ürəyində gizləmisən!
Gəldim, amma gedəmmədim
Sənin bayraq meydanına.
Qaldır üçrəngli bayrağı
As Ay-ulduzun yanına.
Hayqır bütün Yer üzünə
Bu istiqlal bayrağımdı.
Dostlarıma bələdçidi,
Düşmənlərə göz dağımdı.
Hər torpağın bayraq adlı
Mərkəzi var.
Elin istinad yeridi,
Göydə onun kölgəsi var!

26 avqust 2017-ci il

BAYRAQ TUTAN OĞULLARA

Kilsədə gizlənən səkkiz nəfər azərbaycanlı döyüşçü yeddi gün ac-susuz mühasirədə qalıb. Yeddi yoldaşı həlak olduqdan sonra onların ən cavanı yenə də müqavimət göstərməkdə davam edib. Nəhayət, əlacı kəsilmiş oğlan əlində Azərbaycan bayrağı meydana çıxıb.

Xankəndiyə ezamiyyətə gəlmiş rus jurnalisti təsadüfən bu səhnənin şahidi olub. Oğlanın şəklini çəkib. Şəkil "Oqonyok" jurnalında çap olunmuşdu. Müəllifin sözlərində həzin bir sızıltı vardı: "Təəssüf ki, mən o oğlanın nə adını, nə də sonrakı taleyini bildim".

17-18 yaşında arıq, qarabuğdayı oğlan. Əlində Azərbaycan bayrağı. Sağında və solunda əli avtomatlı iki erməni yaraqlısı. Oğlan, bəlkə, aparatın qəfil şıqqıltısına dönüb, düz obyektivə baxıb. Bəlkə, ona atəş açıldığını zənn edib, ölümün gözünün içinə dik baxmaq istəyib. Geniş açılmış o gözlərdə nələr vardı, Allah...

Top atılıb gənc bəbirə,
Cələ qurulub qartala.
Mat qalıbdı bu dünyaya,
Pöhrə çinar, cavan qala...
Can ay oğul, can ay bala!
Ulu Tanrım, bir cavab ver
Bu nə dərddir, bu nə bəla?!
Yoğurub tutdun, torpaq adlı
Bu kündəni.
Bu kündədən yaratmısan
Bu gün məni.
Bu kündənin hər bir dəni.
Əkilməli, biçilməli,
Döyülməli,
Daş altından keçilməli,
Üyünməli.
Bu xəmirə qatılmalı.
Bu kündənin xaşalına
Atılmalı,
Yeyilməli.
Bəli, bəli...
Dərd üyüdüb,
Göz yaşıyla yoğurmusan,
Bir az hicran, bir az vüsal,
Bir az nifrət, bir az sevgi
Qata-qata.
Bu müqəddəs xəmiri sən kündələyib
Düzdün sonsuz kainata.
Ulu Tanrım, böyük ata,
Sən arada bizi də gör.
Bu şəkildən
Dərgahına sual verən
Gözü də gör.
Deyəcəksən: "İşıq sanı
Dərgaha əl açanlar var.
Cansız-canlı, üzənlər var,
Sürünənlər, yeriyənlər,
uçanlar var".
Deyəcəksən: "Fəza sonsuz
Milyon illər–andı keçir,
Dünya xəmri yoğurursan
Hardasa karvanın köçür".
Bu da yola gördüyün bir
Tədarükdü.
Mən baxıram bu şəkilə,
Bir də sənə,
Vallah, billah,
Heç bilmirəm kim böyükdü.
Əfv et məni, ulu Tanrım.
Yandığımdan danışıram.
Bu da sənin öz işindi –

Yandırırsan, alışıram.
Tanrım, sənin yaratdığın
Biz görməyən milyon qatdı.
Böyüklüyün ondadır ki.
Sən yaradan hər zərrənin
Özü böyük kainatdı.

Bəlkə, onu sevdiyindən
Bu bəlaya göndərmisən.
Bəlkə, elə sevirsən ki,
Bizim həzrət peyğəmbərin
Nəvəsinə döndərmisən?!
Anlat, bilək.
Kirpiklərində göz yaşları
Məşəqqətə baxaq, gülək.
Şəkildən baxan o gözlər
Elə sözdü, elə səsdi,
Əlindəki bayraq kimi
Müqəddəsdi.
Əbədiyyət qazanmağa bu da bəsdi.
Yenilməzlik, haqlıq, düzlük
Elə budu.
Sən əsir düşmədin belə,
Əlindəki bayraq ilə.
Xankəndini tapdaladın,
Qisas aldın.
Azərbaycan bayrağıyla
Keçdin ordan, zəfər çaldın.

***

Rus da ora gəlmişdi ki,
Ermənіyə tərif desin.
Qəhrəmanlıq görüb çəksin,
Sonra da göstərib desin...
Səni gördü.
Obyektivdən keçib onun
Ürəyinə hökm verdin.
Azərbaycan bayrağına
Sən ona da baş əydirdin.
İnsanlıqdan ucalmısan,
Sən müqəddəs bir ocaqsan.
Elə orda, Xankəndidə
Nəhəng heykəl olacaqsan.
Əlində də öz bayrağın.
Bayrağının altından da
İllər, nəsillər keçəcək,
Zaman-zaman, axın-axın,
Sən oğulsan,
Mənim də atadır adım.
Şəklinə baxdım, baxdım
Gözlərinə qurban olum,
ağlamadım.
Ağlamadım,
Oğul, kişi ağlayarmı
bərkdə, darda???
Bu günə də şükür olsun,
Çox şükür ki,
Bayraq da var,
bayraq tutan oğullar da.

25-27 avqust, 2012-ci il



BAYRAQDAR NATİQ*

Natiq Səlim oğlu Qasımov 1992-ci ilin martın əvvəllərində yeddi döyüş yoldaşı ilə Ağdamın Xramort kəndində yerləşən alban kilsəsində əlverişli mövqe tutmuşdu. Burada mühasirəyə düşən igid əsgərlərimiz erməni silahlı qüvvələri ilə qeyi-bərabər döyüşə girirlər. Döyüş yoldaşları həlak olan Natiq Azərbaycan bayrağını kilsənin üzərinə sancaraq ermənilərlə təkbaşına döyüşmüş, düşmənə beş gün inadlı müqavimət göstərmişdir. Onlara qarşı bütöv bir batalyonun döyüşdüyünü düşünən ermənilər əsir götürülən Xocalı sakini Cəfər Cəfərovu danışıq üçün kilsəyə göndərirlər. Şərt belə idi: əgər kilsədəki döyüşçülər təslim olmasalar, ermənilər 22 dinc sakini öldürəcək. Günahsız sakinlərin öldürməsini istəməyən Natiq təslim olur. Onun kilsədən tək çıxdığını görən erməni quldurları heyrətə gəlir. Qəhrəman əsgərimiz kilsənin üzərindəki Azərbaycan bayrağını çıxararaq sinəsinə basır və təslim olur. Həmin



Bayraqdar Natiq təslim olsa da, üçrəngli bayrağımızı düşmənə verməmişdir.

vaxt Qarabağda ezamiyyətdə olan Rusiyanın "Oqonyok" nəşrinin jurnalisti və fotoqrafı Enriko Sarsini bu mənzərənin şahidi olmuş, şəkillər çəkmişdir. Üçrəngli Azərbaycan bayrağını düşmənə verməyən Natiq Qasımov hələ də itkin düşmüş Azərbaycan vətəndaşlarının siyahısındadır. Haqqında 2016-cı ildə sənədli film çəkilmişdir.

---

* 9-cu sinif, "Zəfər tarixi"dərsliyindən götürülmüşdür. Şərq-Qərb, 2021.



NƏRİMAN HƏSƏNZADƏ

CƏNAB ALİ BAŞ KOMANDAN,
HALALDI SİZƏ

Cənab Ali Baş Komandan,
halaldı Sizə,
istirahət eləməyə
var tam haqqınız.
44 günü siz yazdınız
tariximizə,
Günəş kimi dünyaya da
doğacaqsınız.

"Xanbülbül" festivalı
bir möcüzəydi,
yerlər-göylər ovsunlanıb
dedim, – Şuşada.
Dağlar təzə, həyat təzə,
yollar təzəydi,
"Paytaxt Şuşa" doğulurdu
qədim Şuşada.

Dünən Qalib Sərkərdəni
xalq alqışlayır,
mən gördüm ki, növbədədi
söz də, ülfət də.
Baş Komandan harda durub,
ordan başlayır
bu dünyaya ilk xəbər də,
müraciət də.

"Sən azadsan, əziz Şuşa!" –
doğma səsiydi,
vurğusu da, nidası da
yadda qalırdı.
Festivalda işğalçının
məhkəməsiydi,
ilk dəfəydi, "əsir" dağlar
nəfəs alırdı.

Filankəsi, filankəsi
dağlarda gördüm,
Paytaxtın ilk qonağıydı
Şuşada onlar.
Üzeyiri də, Bülbülü də
mən orda gördüm,
Festivalda, yarışlara
qoşulmuşdular.

Ulu Öndər "Şuşa!", – deyə
nitq eləyirdi,
Vətən, Ana həsrətidi,
Şuşa həsrəti.
Xoşbəxtəm ki, – oğlu İlham
belə deyirdi:
Mən yerinə yetirmişəm
bu vəsiyyəti.

Cənab Ali Baş Komandan,
halaldı Sizə,
istirahət eləməyə,
var tam haqqınız.
44 günü Siz yazdınız
tariximizə,
Günəş kimi dünyaya da
doğacaqsınız.



Ali Baş Komandan İlham Əliyev azad olmuş Suqovuşanda üçrəngli bayrağı ucaldarkən

ÜÇRƏNGLİ BAYRAĞA BÜKÜLƏNLƏRİM

(Alboma yazılan şeir)

Şəhid oğulların bu şəkilləri,
hərəsi – gözümün bir işığıydı.
Hərəsi – Tanrının bir şah əsəri,
yerin də yer üstü yaraşığıydı.

Gör, necə şax durub, canlı heykəldi,
bu tuncdan əbədi tökülənlərim.
Üçrəngli bayrağı qaldıran əldi,
Üçrəngli bayrağa bükülənlərim.

Tarix bir məqamı qoy unutmasın,
Bizim andımızdı, sağ olsun Vətən.
Nişan üzüyünü gör, neçə qızın,
gətirən olmadı oğlan evindən.

Bir əsgər istəyib doyunca gülsün,
səngərdə səsinə səs verə bilmir.
Neyləyim, düşmənin gözü tökülsün,
kordu, gözəlliyi o görə bilmir.

Xarici qonaqdan bir xahişim var,
döyüş meydanıdı qədimdən bu yer.
Şəhidi, Qazidi vaxtsız yatanlar,
Asta keç, o ruhlar oyana bilər.

"Gələn Yermolovdu, təslim ol, Qafqaz!.." –
çoxları daş atdı taleyimizə.
Yadelli bilmədi, qafqazlı qorxmaz,
qafil, bir yəhər də – Vətəndi bizə!

Çapdı at belində qaçaq oğullar,
Şəhid oğullara dönənə kimi.
Şahid bu dağlardı, bir də bu yollar,
yaşayır indi də ənənə kimi.

Şəhid oğulların bu şəkilləri, hərəsi –
gözümün bir işığıydı.
Hərəsi – Tanrının bir şah əsəri,
yerin də yerüstü yaraşığıydı.

XİLASKAR

Qələm dostum Bəxtiyar Sadıxovun
"Xilaskar İlham Əliyev"
kitabını oxuyarkən

Bu qədər həsrətmi olar ürəkdə,
bu qədər yanğımı olar, İlahi!
Güllə yağışında,
qarda, küləkdə,
meşəyə qaçdılar onlar, İlahi!

Faşist ləhcəsində kəkələyənlər,
yerin paklığını ləkələyənlər.
Tankların üstündə doldu şəhərə,
daha az qalırdı
onda səhərə.
İnsanın əlindən insan qaçırdı,
görüb içindəki qəsd-qərəzini,
qayalar insana qucaq açırdı,
güllәyə verirdi
daş sinəsini.

Əlsiz-ayaqsız da geri qalmayıb,
– Qaçma, –
bir-birinə deyib qaçırdı.
Ağdam Qarabağın gözüydü,
hayıf,
o gözü arxada qoyub qaçırdı.
Sən onda səngərdə yuxusuzuydun,
səni qoruyurdu,
səni yaradan.
Düşmənin birini hədəfə qoydun, –
Ağdamın hayfını alırdın ondan.
Onda ki göstərdi dəmir yumruğu,
Ali Baş Komandan qalxdı ayağa, –
silaha sarıldı hər vətən oğlu,
and içdi,
əyilib ana torpağa.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev
tarixi bir şəkil haqqında söhbət edərkən

Onda ki "Qarabağ Azərbaycandır!",
sən dedin,
mən dedim,
bir millət dedi.
Biz gördük, ölkədə
xalq qəhrəmandı,
nə dedi, ilahi bir qüvvət dedi.

"Sənə qurban olum, a şəhid balam!"
alovlu sinəndən qopan səs oldu.
Qatillər əlindən qurtuldu Ağdam,
Qarabağ torpağı,
müqəddəs oldu.

"Sənə qurban olum, a türk qardaşım!"–
bu da Qarabağın şirin diliydi.
Qədim babaların bu qan yaddaşı,
adi görünsə də,
dahiliyiydi.

Xilaskar – əynində əsgər paltarı,
odların içiydi keçdiyi o yol.
Allahım,
hifz elə sən Xilaskarı,
Ali Baş Komandan, sən yaşa, var ol.

15 iyun 2021-ci il

MƏNİ BAYRAQ KİMİ TUTUN YUXARI

Mənim həyatımın nə mənası var,
sizin üzünüzdə gülüş olmasa.
Babamın yadigar bir duası var:
səngər nəyə gərək döyüş olmasa.

Həyatın əzəli qanunu budur,
bağı dolaşırlar bağ bağ olanda.
Hər torpaq dünyada məmləkət olmur,
parça var – yaşayır bayraq olanda.

İnsanlar olubdu dünyada bir vaxt,
kimidən ad qalıb, kimidən əsər.
Dibçəkdə bəslənən palıdlara yox,
çöldə – ağaclara meşə deyiblər.

Çətindir keçilən ömür yolları,
yaşamaq özü də istəyir hünər.
Məni bayraq kimi tutun yuxarı,
sizə lazım olsam... o parça qədər.

22 aprel 2011-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə azad olunmuş Suqovuşanda bayram tonqalını yandırarkən



SABİR RÜSTƏMXANLI

BAYRAĞIM

Başımızın üstündə dalğalanan, dev bayrağım!
Yarı torpaq, yarı göy, yarı alov bayrağım!
Dalğalan, qoy havanla Bakımız küləklənsin,
Düşmənin gözü çıxsın, sevənlər ürəklənsin!
Bu məğrur ucalıqda tarixin ərintisi,
Səni kəfən yerinə geyənlərin gur səsi!
Səni ümid yerinə qəlbində gizləyənlər
Əsarətin, işğalın sonunu gözləyənlər,
Səni namus səngəri, Səni qutsal əmanət,
Səni ocaq sayaraq gizli əzizləyənlər,
Dərindən nəfəs alıb dincəlsinlər süsündən.
Sənə əyri baxanlar dağlansınlar gözündən...
Hava tutqun olanda Ayı çək qucağına,
Ulduzun işıq səpsin yurdun hər bucağına!
Mavi – türklük şərəfim, varlığımız əbədi!
Yaşıl – dinim, imanım, sevgimizin məbədi!
Qırmızı da al qanım, axdı vətən yolunda,
Əsarət zəncirini atmaq üçün qolumdan!

Ucal başımız üstə, ruhumuz kimi ucal!
Qanadlanan eşqimiz, duyğumuz kimi ucal!
Dünən səni cıraraq ayaqlara atanlar
Qızıldan tökdürərək oxşasın sinəsində!

Xəzər səndən rəng alsın, sən Xəzərdən coşquluq.
Yurdumun üzü gülsün bu birlik nəğməsindən!
Sən Günəşə qalxsan da, bu torpaqdı beşiyin,
Daha sənə əl çatmaz dursalar da qəsdində.
Bu gün azadlığımsan Bakının göylərində,
Sabah da bütövlük ol, ucal Təbriz üstündə!

2012



Üçrəngli bayrağımız Suqovuşanda



VAHİD ƏZİZ

ALİ BAŞ KOMANDAN...

Bizə tərəf çəkir vaxtın kəfkiri,
savaş Qələbəylə yetəcək sona.
Ali Baş Komandan bizlərdən biri –
o, bizə inandı, bizlər də ona!

Göstərdi yolları öndər əlilə,
mehriban yaşatdı xalqıyla illər,
dar gün belədir ki, biri-birilə
hamını ya düşmən, ya dost eləyər,

Qəlbən xəbərdaram el sevgisindən –
millət "Heydər"– deyib, "İlham"– eşidib.
Ruhu şad olacaq Öndərin, desəm:
"Ata yerişilə irəli gedib!"

Bir amal yolunda toplayıb gücün,
İç-içə yaşadı xalqla ilbəil,
gərək kor olasan görməmək üçün;
naşükür qalanlar–bizlərdən deyil!

Hələ gör kimlərlə baş-başa gəlib?!
bütün "supergüclər" yalançı satqın,
vaxtında anlayıb, vaxtında bilib,
içində nələr var – "Üçlü yastığın".



Prezident İlham Əliyev Dövlət Bayraq Muzeyində

Vətən iki qardaş Liderlə pərvaz –
bunu hər düşünən çoxdan anlayıb:
"Can-can deyən çoxdu, canı yanan az –
Türkün türkdən özgə dostu olmayıb"!

Bizə tərəf çəkir zaman kəfkiri,
Qələbə qovuşur Azərbaycana,
Ali Baş Komandan bizlərdən biri,
O, bizə inandı, bizlər İlhama...

Zülmət getdi Qarabağdan,
ömrünü çıraq elədin,
var ol, Ali Baş Komandan,
çox günahkar nəsillərin
üzlərini "ağ elədin"!

Sındı düşmən həmlələri,
həm qırıldı, həm qovuldu,
nəvələr mərd
Soykökünə layiq oldu...

28 oktyabr 2020-ci il

AZƏRBAYCANDIR QARABAĞ...

Doğmadır torpağı, daşı,
Türk övladı vətəndaşı,
ömrü-günü, can sirdaşı;
biri alov, biri ocaq –
Azərbaycandır Qarabağ!

Tanıyarlar boyumuzdan –
irsimizdən, soyumuzdan,
su içər öz quyumuzdan –
biri gövdə, biri budaq –
Azərbaycandır Qarabağ.

Dünya–dünya olan gündən,
varlığımız ona Vətən,
biri ürək, biri bədən;
hər ikisi Ulu torpaq –
Azərbaycandır Qarabağ.

Baba adı – "Odlar Yurdu",
keşikçisi igid ordu,
biri alov, biri ocaq–
bizimdir, bizim olacaq–
Azərbaycandır Qarabağ...

29 oktyabr 2020-ci il

AZƏRBAYCAN BAYRAĞIDIR BU BAYRAQ...


Yaranandan doğmasıdır hər kəsin,
Sədasıdır hər nidanın, hər səsin,
Yarandı ki, sabahlara səsləsin –
Gözümüzdə bəbək kimi qoruyaq,
Azərbaycan bayrağıdır bu bayraq!

Zirvəsində cuşa gələn "Cəngidir",
Tanrımızın məkanının rəngidir!
Qanlar hopmuş çəmən rəngli bu torpaq
Yüksəldib ki, ona baxıb ucalaq –
Azərbaycan bayrağıdır bu bayraq!

Kainata bağlayanı hilaldı,
Ona görə yenilmədən ucaldı,
Qurban gedən canlarımız halaldı,
Hara getsək, ərən kimi aparaq –
Azərbaycan bayrağıdır bu bayraq!



Dövlət Bayraq Muzeyi



RAMİZ MƏMMƏDZADƏ

BU BAYRAQ

Bu bayraq
Şəfəqlər kimi
Bərq vurar,
–Sönməz bu bayraq!–
Zirvələrdə cilvələnir.
Enməz bu bayraq!
Ürəyim,
Diləyim çağlayar
Göy rəngində,
Yaşılında,
Alında.
Qızıl aypara, ulduz
Möhürlənib alnında.
Ala bilməz
Top-tüfənglər onu daha.
Bu bayrağı Ulu Öndər
Sancdı Ali qərargaha!
İgidlərin and içdiyi,
Uğrunda candan keçdiyi
Bu bayraq bizim!
Dalğalanır səmasında
Vətənimizin!
Bu bayraq Əsgər kimi

ön sırada addımlayar.
Gəl-gəl – deyən dağlara.
İşıq saçar,
Qərq eyləyər O yerləri bahara.
Bu bayraq İçimdədi –.
Köksüm altda Ürək kimi döyünər.
Bu bayraq – Uca millət!
Bu bayraq – Şərəf, hünər!
Bu bayraq varlığımda
Çinar kimi şaxələnib,
Kökləri çox dərində...
Bu bayrağı Qılınc kimi
Sıyıracam içimdən.
Asacağam
Şuşanın göylərindən!

17 yanvar 2014-cü il



Ağdam şəhəri işğaldan öncə



VAQİF NƏSİB SARIHÜSEYNOĞLU

BAYRAQ NƏĞMƏSİ

Qız qalası
ölkəmizin daş bayrağı,
Əsrlərcə bayraqların salınmazı.
Əlincəmiz
Naxçıvanın baş bayrağı
Teymurlənglər ordusuyla alınmazı.

nəqərat

Bir sahildə
ölkəmizin daş bayrağı
səhərində daş himnimiz oxunmada.
Səbaildə
yurdumuzun baş bayrağı
Azadlığın dərgahına toxunmada.

Bu bayraqlar
Yad əllərlə enən deyil,
dəstəyində polad əllər birləşibdi.
Himnimiz də yad dillərə dönən deyil,
İfasına doğma ellər birləşibdi.

1 fevral 2018-ci il



Orda ulduzlarla dayanıb qoşa,
Sabaha aparan yol çırağımsan.

Elə göylərdədir Azərbaycanım,
Olubdur dünyada şöhrətim-şanım.
Sən də ol səmada ömür həyanım,
Bu azad yurdumda öz bayrağımsan.
Öz bayrağımsan....

KƏMALƏ

24 may 2011-ci il

GÖYLƏRİN QOYNUNA UCALAN BAYRAQ

Sənmi nurlandırdın uca göyləri?
Ya göylərmi səni nurlandırıbdır?

Səmada yeni bir planetmisən?
Ya odlar yurdunda çilçırağımsan?
Sən bütün elləri heyran etmisən,
Yerlərdən göylərə bir sorağımsan.


Sən göydə ikinci qövsi-quzehsən,
Uca qamətinə, rənginə əhsən.
Hələ gündən-günə yüksələcəksən,
Sən sabah ünvanlı bir növrağımsan.

Tanrıya daha da olmusan yaxın,
Qoy sənin boyuna doyunca baxım,
Uca zirvələrdə ol qibləgahım,
Sən mənim sarsılmaz bir dayağımsan.

Sənin dalğaların bənzər uçuşa,
O gözəl hüsnünlə göylərdə yaşa.



Dağlarımızda ucalan bayraq



ADİL CƏMİL

KÖNLÜMÜN SEVİNCİ, QƏMİ BU TORPAQ

Marağa üzündən, Təbriz gözündən
Hələ öpməmişəm, öpəsiyəm mən.
Ayağım dəyməyən o torpaqları
Həsrətli gözümə təpəsiyəm mən.

Çəkilmir başından duman xalqımın,
Günlərdən gün payı uman xalqımın...
Qoynu qasırğalı ümman xalqımın
Küləklər sovuran ləpəsiyəm mən.

Yaylağım qovuşmaz, yaylam bitişməz,
Baharı gətirən bayram bitişməz...
İki parcalanmış laylam bitişməz –
Bölünmüş beşiyin körpəsiyəm mən.

Qaradağ, Qarabağ – qədim mahalım,
Al sınıq könlümü, qoyma yuxalım.
Yetər Savalana, yetər bu halım –
Yurdumun nisgilli Kəpəziyəm mən.


Yaramı açmayın – aranı açın,
Qəribdir qardaşım, yalqızdır bacım...
Bu tayda göyərən yaşıl ağacın
O tayda qaralan kölgəsiyəm mən.

Ömrümdən-günümdən baxan Arazdır,
Araz aramızdan axan Arazdır.
Desələr günahkar o xan Arazdır,
Arazı gözümdən səpəsiyəm mən...

Könlümün sevinci, qəmi bu torpaq,
Sünbülə döndərər dəni bu torpaq...
"Ciyninə aşırıb" məni bu torpaq –
O taylı, bu taylı heybəsiyəm mən...



Xudafərin körpüsündə ucalan bayrağımız



RAMİZ QUSARÇAYLI

GÖZÜN AYDIN, QARABAĞ!

Güman keçməz dağları,
Aşa-aşa qayıtdıq,
Yumruq kimi birləşib
Coşa-coşa qayıtdıq,
Biz Kəlbəcər-Kəlbəcər
Şuşa-Şuşa qayıtdıq,
Başın uca, üzün ağ,
Gözün aydın, Qarabağ!

Hər döyüşün başında
"Yurd yeri" var, "Cəngi" var,
Hər həmlədə ordumun
Nərəsi var, cəngi var,
Cəngavər oğulların
Şanlı zəfər rəngi var,
Gör nə deyir Lələdağ, –
Gözün aydın, Qarabağ!

Hər qazi bir qaladı, –
Bir qələbə örnəyi,
Şəhid-şəhid ovundu
Bu torpağın göynəyi,
Göydə mələklər öpdü
Neçə qanlı köynəyi.
Bu müqəddəs nura bax,

Gözün aydın, Qarabağ!
Vətəndi bu savaşın
Hər sirri, hər sehri də,
Bir atanın öyüdü,
Bir ananın mehri də,
Uçundu Göyçə-Göyçə
Zəngəzur da, Mehri də,
Silkələndi Ağrıdağ
Gözün aydın, Qarabağ!

Bir fırtına kükrədi
Qisas adlı limandan,
Yer əsdi, göy titrədi
Bu anddan, bu imandan,
Xalqın güvənc yeridi
Ta Ali Baş Komandan,
Dalğalan bayraq-bayraq,
Gözün aydın, Qarabağ!
Gözün aydın, Qarabağ!

AZƏRBAYCAN BAYRAĞI

Şənini vəsf etməyə yetər, qüdrətim yetər,
Ulduzunu, ayını göydə mələklər öpər,
Hər rəngində "ya qazi, ya şəhid" bir mən bitər,
Sən ey İstiqlalımın əbədiyyət sancağı,–
Azərbaycan bayrağı !

Yağının min hiyləsi küydən, kələkdən keçər,
Sən sancılan ucalıq min-min ürəkdən keçər,
Dağlar yerindən oynar, daşlar ələkdən keçər,
Göylərin nur yağmuru, yerlərin göy qurşağı,–
Azərbaycan bayrağı!

Sən Arazın, Samurun umuduna bələndin,
Çəni ağlar Göyçənin buluduna bələndin,
Dərbəndin dərd hıçqıran sükutuna bələndin
O tayımda Savalan, bu tayımda Şahdağı,
Azərbaycan bayrağı !

Cəngidə cövlan yerim, cövlanda can yerimsən,
Barışda gül çələngim, savaşda qan yerimsən,
Sən mənim and yerimsən, mənim iman yerimsən,
Dalğalı ləngərlərin yelpiklənən yarpağı,-
Azərbaycan bayrağı !

Sənsən Azadlıq eşqim, sənsən Hürr, – deyəcəyəm,
Ən son nəfəsimdə də sənə şeir deyəcəyəm,
Şuşada sən qonduğun daşa pir deyəcəyəm,
Çəkəcəyəm gözümə kölgən düşən torpağı
Azərbaycan bayrağı !
Azərbaycan bayrağı !

XARIBÜLBÜL

Canını çox üşütdü həsrət Xarıbülbülün
Ləçək-ləçək dilləri için-için sızladı.
Sudan duru gözləri aydan arı bülbülün
Naləsinin şehində ümid yeri buzladı.

Rəng alıb rəng qatırdı Tanrının bəstəsindən
Rəngi solan güllərin ölü qonşuluğunda.
Əsir düşən səslərin şikəst şikəstəsindən
Hallanırdı Turşsuyun şirin turşuluğunda.

Diksinib ahlarından ətrafdakı güllərin,
Çəkirdi ciyərinə tövşüyən yağışları.
Bağrının gül başında buğlanan nisgillərin
Üşənirdi nəmindən pərişan baxışları.

Açdı qırışlarını doğma azan sədası,
Axdı ilahi səslər donan minarələrdən.
Qopardı mehvərindən "Dəmir yumruq" nidası
Qarabağ silkələndi alovlu nərələrdən.

Yetişdi imdadına xilas ruhlu əsgərim
Gül ətirli qanıyla öpdü Xarıbülbülü.
Qəzəbindən qan daman qisas ruhlu əsgərim
Gözünə məlhəm kimi təpdi Xarıbülbülü.

17 aprel 2021-ci il



Xarıbülbül çiçəyi





Əziz, Şuşa, sən azadsan! 8 may 2021-ci il

BARAT VÜSAL

BU YOL ŞUŞAYACAN GEDİR

Sevin Vətən, torpaq, sevin,
Bu yol Şuşayacan gedir.
Daha yarıda qırılmır,
Bu yol Şuşayacan gedir.

Aşıb-daşıb sel olmuşuq,
Birləşib bir el olmuşuq.
Hamımız bir yol olmuşuq,
Bu yol Şuşayacan gedir.

Əyil, qarşısında əyil,
Bələdçi-zad lazım deyil.
Yollar qucaqlaşıb deyir:
"Bu yol Şuşayacan gedir!".

Yeri, vur birbaşa yolu,
Qoyma dəysin daşa, yolu.
Bütün yollar Şuşa yolu,
Bu yol Şuşayacan gedir.

İgidlərin namı salıb,
Şəhidlərin qanı salıb,
Yurdumun İlhamı salıb,
Bu yol Şuşayacan gedir.

Bax dağ burda, dəniz burda,
Bax yol burda, bax iz burda,
Bax görünür Təbriz burdan,
Bu yol Şuşayacan gedir.

Ağabəyimi görəcəm,
Ağa, evimi görəcəm.
Ağabəyimi görəcəm,
Bu yol Şuşayacan gedir.

Di kef ver bu kefə yolçu,
Ay Əfəndi – Əfə yolçu!
Əmin ol, bu dəfə yolçu,
Bu yol Şuşayacan gedir.

Yol da keçib başa, durub,
İstər yola düşə, durub.
Yollarla ötəşə durub,
Bu yol Şuşayacan gedir.

Duman enir, çən qayıdır,
Yerinə Vətən qayıdır.
Şuşa səfərdən qayıdır...
Bu yol Şuşayacan gedir.

Sual-sorğu olmayacaq,
Qara-qorxu olmayacaq.
Heç kim yolda qalmayacaq,
Bu yol Şuşayacan gedir.

QƏLƏBƏ BAYRAMI

Şəhid qəbirləri üstə yellənən
Bayraqları görün, muştuluq verin.
Vətənin bir qarış torpağı üstə
Təki mən də ölüm... muştuluq verin.

Elə ki deyildi: "Şuşa alındı",
Qaçanlar qəbiristan səmtə qaçdılar.
Qəbirlər başına dönüb, dolanıb,
Qəbirlər başına bayraq sancdılar.

Alındı düşməndən intiqamımız,
Alındı Qarabağ – mərdlər yuvası!
Bayraq-bayraq olub yelləndi, gördüm,
Şəhid oğlu-qızı, şəhid anası!

Tutduğu işindən peşman olub,
Ölüm təbrik edir öləni, baxdım.
Şəhidlər hamısı qəbirdən durub,
Bayraqla yanaşı yellənir, baxdım.

Nə xoşbəxt vaxtıdır ana vətənin,
Qorundu şərəfi, qorundu adı!
Bayraq yellənmir ha, bayraq dillənir,
Deyir ki, şəhidlər, gözünüz aydın!

Belə ölməmişdi bu zülmət zülüm,
Belə görməmişdik biz aydınlığı.
Allahım, qoy mən də bayrağa dönüm,
Verim şəhidlərə gözaydınlığı.

Kişi adamların kişilər deyir,
Olanda öz namı bax belə olar.
Hamımız bayrağın biri kimiyik,
Qələbə bayramı bax belə olar,
Qələbə bayrağı bax belə olar!

28 noyabr 2020-ci il

DÖYÜNƏN BAYRAQ

Mən hər gün altından keçirəm sənin,
Hər gün ucalırsan başımın üstə.
Hər cür döyüşlərə sən də hazırsan,
Torpağımın üstə, daşımın üstə!
Hər gün başım üstə sən varsan deyə,
Başımı dik tutub gəzirəm mən də.
Vətən, Torpaq, Millət əmr eylədiyi
Döyüşdə olmağa hazıram mən də,
Döyüşdə ölməyə hazıram mən də!
Layiqsən göylərdə dalğalanmağa,
Günəş bayrağısan, Ay bayrağısan!
Sən yerlər bayrağı deyilsən, haşa,
Əcdadım Göy türkün göy bayrağısan!
Uğrunda vuruşaq, uğrunda ölək,
Meydanı boşaldıb mərdə qoysunlar.
Vaxt olsun, məni də sənə bükərək,
Məzara sallayıb, qəbrə qoysunlar.
Hünər dastanını, şair, bu yurdun
Hamımızdan qabaq bayrağım yazır.
Bayrağı olmayan məmləkət quldur,
Bayrağı olmayan məmləkət yazıq!
Yerlərdə susmayaq əlacsız halda,
Göylərin qatında danışa bilək.
Nə var danışmağa öz adımızdan,
Bayrağın adından danışa bilək,
Torpağın adından danışa bilək!
Qürurmu yoxumdur, sevincmi yoxum?
Dərdim Vətən, Millət, Torpaqdır mənim.

7 iyul, 2018-ci il



VAQİF BƏHMƏNLİ

BAYRAQLAR

Qartal şəkilli,
at üzlü,
nal şəkilli
bayraqlar...
yolunda ölüm, itim!

Zəhmli şir şəkilli
Günəş
Ay,
Ulduz,
Yer şəkilli
bayraqlar
və mütləq didim-didim!

Əjdaha şəkilli,
ox uclu,
seşpər şəkilli,
qalxan,
qılınc,
təkər şəkilli
bayraqlar...
və mütləq qovğa-qovğa!

Şah duruşlu
kəniz şəkilli,
göy üzlü,
dəniz şəkilli
bayraqlar...
və mütləq dalğa-dalğa!

Yaşıl-yaşıl,
mavi-mavi,
qara-qara
bayraqlar...
və mütləq tarixi şanlı!

Alabəzək
cürəbəcürə,
cərgə-cərgə,
sırabasıra
bayraqlar
və mütləq qumaşı qanlı!

2010

ŞUŞA QOŞMASI

Otuz il bundan öncəyə qədər Şuşa mədəniyyət, musiqi, istirahət məbədi idi. 44 günlük Vətən müharibəsi tarixi yaddaşı təzələdi! Bu gün Şuşa mədəniyyət rəmzi olmaqla bərabər, türk dünyasının, xalqımızın hünər, mətanət, qeyrət qalası, rəşadət və şəhadət zirvəsi, Azərbaycanın Qarabağ ucalığında yenilməz bayraqdır!

Sinənə ox batmaz, dəmir torlusan,
Ay qaya qalalı, ay damlı Şuşa!
İndi şairlisən, aktyorlusan,
gün gələr olarsan adamlı, Şuşa...
Zirvənə göz dikən ikimi, üçmü? –
Hərbin ən çətini dərdlə döyüşdü!..

Uca beşiyindən aralı düşdük –
ay nənə-babamlı, atamlı Şuşa!

Rədd oldu quldurlar gözləri dağlı,
Dörd yanın basılmaz qaladı – bağlı.
Laçın, Kəlbəcərli, Qarabulaqlı,
Cəbrayıl, Zəngilan, Ağdamlı Şuşa!

Sənə Vaqif qurban, dər məni... yaşıl,
Yaralı köksünün dərmanı... yaşıl!
Havan gümüşüdü, ormanın yaşıl,
suyun zəmzəm kimi, a tamlı Şuşa!

2022

BAĞIŞLA MƏNİ, ƏSGƏR...

Ümuman Qarabağ və eləcə də Şuşa uğrun da döyüşlərdə zəfər bayrağı qaldıran və şəhid düşən cəmi əsgərimizin əziz xatirəsinə.

Məzarının üstünə gəlmişəm topa güllə,
Ehsanat gətirmişəm təmiz, halal ətimdən.
Niyə məni dəlmədi sinəni dələn güllə?
Ölüb yerə girirəm indi xəcalətimdən...
Bağışla məni, əsgər, əsgər, məni bağışla!

Otuz il bundan öncə tarana getməliydim,
keşikçi durmalıydım Daşaltının qaşında.
Qoca-qaltaq yaşımda mən ölüb-itməliydim,
niyə sən öldün axı, cavan-cahıl yasında? –
Bağışla məni, əsgər, əsgər, məni bağışla!
Yəqin varmış gözaltın...
bəlkə də, heç yox imiş,
ya bəlkə, körpən qalıb evinin bucağında.
Sümüyümü doğrayım,
düzüm türbənə diş-diş,
adına qala qurum xan Şuşa torpağından...
Bağışla məni, əsgər,
əsgər, məni bağışla!

Qəlbi genişdi yurdum, bala qatar acını,
bürüyər gül adını yaz gülünün ətrinə.
Qubadlı, Zəngilanın, Kəlbəcərin, Laçının,
Şuşa, Ağdam, Füzuli,
Cəbrayılın xətrinə
bağışla məni, əsgər,
əsgər, məni bağışla!

Nə üzlə diri gəzim...
sən də orda uyu tək,
"Oğul!", – deyib vaysınım,
hərlənim dəli kimi?!
Ananın göz yaşını içim Kəbə suyutək,
ruhunun ayağına döşənim xalı kimi...
Bağışla məni, əsgər,
əsgər, məni bağışla!

2022



Şəhid ərinin cənazəsini çiyinlərinə alan qadın



ƏBÜLFƏT MƏDƏTOĞLU

ŞUŞAM

Əlim ürəyi sıxdı,
Gözüm torpağı tutdu...
Dilimdən "MÜJDƏ!" çıxdı,
Varlığımı unutdum –
ŞUŞAM!

Dünyanın ağırlığın
Silkələdim çiynimdən...
Otuz ilin töhmətin
Mən soyundum əynimdən –
ŞUŞAM!

Gözümə yuxu döndü,
Həyatıma tər yaşam...
Qəmin işığı söndü,
Qalibdi ordum, Paşam –
ŞUŞAM!

Günün günlərin Tacı,
Anın anların Şahı!
Zəfərlə sevindirdi
Şəhidlərin, Allahı!
Qazilərin, Allahı! –
ŞUŞAM!

BAYRAĞIM

Dalğalandığın hər yer
Özün boyda Vətəndi...
Üçrəngli bayrağım –
Ana Vətənlə təndi!
Qələbənin təsdiqi,
Azadlığın rəmzidi...
Üçrəngli bayrağım –
Millətimin əzmidi!

Düşmən səngəri yaran –
Şəhidimin andıdı.
Şuşada dalğalanan –
Qazimin inadıdı!

...Qazandığı Zəfərlə
Şöhrət oldu, həm də şan!
Bu gün bütün dünyaya –
Bayraqdı Azərbaycan!



Prezident İlham Əliyev Xocavəndin Tuğ kəndində



RAFİQ YUSİFOĞLU

"ÜÇRƏNGLİ BAYRAQ"

Bu üçrəngli bayrağım
Gözümün işığıdır.
Azadlıq yağışından
Doğan göy qurşağıdır.
Üstündəki ay, ulduz
Gəlir mənim xoşuma.
Ay üzüyə bənzəyir,
Ulduz onun qaşına.
Üçrəngli bayraq bizə
Təsəllidir, dayaqdır.
Yolumuzun üstünə
İşıq saçan mayakdır.

ŞƏHİD, ŞƏHİD BALASI VƏ AZƏRBAYCAN BAYRAĞI

Televiziyada torpaqlarımız uğrunda döyüşlərdə həlak olan taqım komandiri, kapitan Nəcməddin Savalanovun dəfn mərasimindən hazırlanan süjet verirdi-lər. Onun körpə qızının atasının məzarı başında mənim "Üçrəngli bayraq" şeirini söyləməsi hamını ağlatdı. Ekranın bu üzündə mən də göz yaşlarımı saxlaya bilmədim...

Üçrəngli bayrağın
göy qurşağı kimi şəfəq saçır,
onun rəngləri nur saçır,
heç zaman deyil solası.
Bayrağımın üstündə
"Üçrəngli bayraq" şeirini
oxuyur şəhid balası...
İntiqam almaq istəyi
onlara rahatlıq vermir,
nə mürgüləyə,
nə yata bilirlər.
Şəhid oğullarımız
bayrağa bükülüb
dəfn olunduğundan,
şəhid övladları
bayrağı özlərinə
ata bilirlər...
Bəsdi uyuduğumuz,
İlin-günün bu vədəsində
bu nə mürgüdü,
bu nə yuxudu?
Bayraqları dalğalandıran
küləklər deyil,
şəhidin intiqama səsələyən
ruhudu...

19 may 2017-ci il



Erməni faşistlərinin törətdikləri Gəncə terroru



Terrorun mahiyyətini dərk etməyən məsum uşağın təbəssümü

ZƏFƏR MÜJDƏSİ

Çat-çat ürəyimdə dərd qəlpə-qəlpə,
Gəldi doğma yurda səfər müjdəsi.
Həsrətdən göynəyən viranə qəlbə,
Gözəl məlhəm imiş zəfər müjdəsi...

Axır ki, açıldı paslı kilidlər,
Bayraqlar yurdumu bəzəyir necə!
Xaraba şəhərlər, xaraba kəndlər
Viranə könlümə bənzəyir necə?!

Ağır sınaqların, möhnətin izi
Elə bilməyin ki, bizi sarsıtdı...
Qəlbimizdə olan vətən sevgisi
Bitib tükənməyən silah-sursatdı...

Yaşadıq ayrılıq məşəqqətiylə,
Bir göz kömür olub, bir gözüm gülür.
Doğmalar öldülər yurd həsrətiylə,
Bir gözüm ağlayır, bir gözüm gülür...

Uşaqlar böyüyüb, qocalmışıq biz,
Anıb kövrəlirik o çağımızı...
Şükür, boş qalmayıb bizim yerimiz,
Yandıran olacaq ocağımızı...

Ötdü uzun illər, namərd sənələr,
Gəldi başımıza sonsuz bəlalar.
Köçdü bu dünyadan baba-nənələr,
Yurda sahib çıxın, əziz balalar...

Çox yola salmışıq tufanları biz,
Quruyan ümidlər tumurcuqlayır.
Görəndə qeyrətli cavanları biz,
Dolan gözümüzdə yaş muncuqlayır...

Ürək çan atırsa çata yurduna,
Yenə bu torpağa bahar gələcək!
Övlad sahib çıxsa ata yurduna,
Qərib məzarlarda ruhlar güləcək.

Yadlara qıymayın, özünüz dərin,
Cavanlar, köksümdə bitən həsrəti.
...O yurdu bir dəfə görməyənlərin,
Gözündən boylanır vətən həsrəti...

Qəlbimiz titrəyən nanə yarpağı,
Həsrət quyusuna daş atmışıq biz.
Bir yol görməsək də doğma torpağı,
Onu qəlbimizdə yaşatmışıq biz...

Geriyə dönərmi yaydan çıxan ox?
Dönürük vətənə, qərar qətidi...
O torpaq tək bizə babaların yox,
Həm də şəhidlərin əmanətidi...

...Çat-çat ürəyimdə dərd qəlpə-qəlpə,
Gəldi doğma yurda səfər müjdəsi.
Həsrətdən göynəyən viranə qəlbə,
Gözəl məlhəm imiş zəfər müjdəsi...

ALİ BAŞ KOMANDANIN QUBADLI SƏFƏRİ

Bitdimi bu qara-qorxulu nağıl?
Ürək xiffət çəkir ötən çağ üçün.
Torpağı ölümdən qurtaran oğul
Gedir xəstə yurdu yoluxmaq üçün...

Yanır, şölələnir köksündə məşəl,
Can atır kəndləri qurub tikməyə...
Düşmənin başında yumruq olan əl,
Gedir küskün yurda sığal çəkməyə...

Sevincdən uçunur bərələr, bəndlər,
Divarlar dikəlmək, qalxmaq istəyir.
Yaralı şəhərlər, viranə kəndlər
Xilaskar oğluna baxmaq istəyir.

Elə bil budaqda yarpaq sevinir,
Könlündən dil açmaq arzusu keçir.
Doğma qədəmlərdən torpaq sevinir,
Qəlbindən gül açmaq arzusu keçir...

Böyük də, kiçik də olub səfərbər,
Çirkinə vermərik gözəlimizi!
Əlini Arazda yumasa rəhbər,
Zəfərdən yumuşduq biz əlimizi...

Güclü ol, zamanın budur tələbi,
Sanki köks ötürür Araz dərindən...
Sevinc karvanları keçir elə bil
Əsrlər şahidi Xudafərindən...

Qaçıbdır Mollanın gözündən yuxu,
Bənd uçub, Həkəri dolama gəlir.
Qəhrəman Nəbinin, Həcərin ruhu
Bir cüt nəvəsini salama gəlir...

Gülür Şah İsmayıl, Babək, Koroğlu,
Bu zəfər çevrilib heyrət rəmzinə.
Elin qeyrətini çəkən oğulun
Özü də çevrilib qeyrət rəmzinə.

Nəğməkar Bərgüşad coşqun, inadlı,
Kükrəyən çayların ilhamı gəlib.
Sevinir ürəyi dağlı Qubadlı
Onun görüşünə İlhamı gəlib...

Payız gülləri də ətir qoxuyur,
Duman, get, sevirik biz aydınlığı.
Sanki Ağa çayı nəğmə oxuyur,
Verir doğma yurda gözaydınlığı...

Açır gözlərini yaralı torpaq,
Üzləri təbəssüm bəzəyir indi.
Zirvədə yellənən üçrəngli bayraq
Zəfər çələnginə bənzəyir indi...

Duman dağ başında olubdur cuna,
Sevinc gözümüzdə ulduzdu, aydı...
Yaralı heykəllər gəlibdir cana,
Əziz şuşalılar, gözünüz aydın!

Düşmənin gördüyü sərsəm yuxunu,
Şükür, cəhənnəmə göndərə bildik.
Xoşbəxtik, yenidən xalqın ruhunu
Vüqar qalasına döndərə bildik...

Tələsir yaxından, uzaqdan gələn,
Bu yol ulu yurda səfər yoludu...
Bu yol Qobustandan, Azıxdan gələn
Ulu bir millətin zəfər yoludu...

ŞUŞA YOLU – ZƏFƏR YOLU

Həsrət buludları dönübdür selə,
Dağlar da "Yallı"ya, "Halay"a gedir.
Şuşaya çəkilən təzə yol ilə
Ali Baş Komandan Qalaya gedir...

Yenidən geriyə dönür o çağlar,
Zirvəyə ucalan yollar sevinir...
Gəlib həyəcana dərələr, dağlar,
Ağaclar sevinir, kollar sevnir....

Qeyrət karvanının qaçın önündən,
Halal zəmimizə sünbül qayıdır...
Qalaya tələsən köçün önündə
Natəvan, Üzeyir, Bülbül qayıdır...

"Şuşanın yolları dolambadolan",–
Görən ürəyindən büstün nə keçir?
Bu yol ümidləri gözündə qalan
"Yan"arın,"hay"ların üstündən keçir...



Qələbə sevinci. Qubadlı



XANIM İSMAYILQIZI

CƏNAB GENERAL

General-mayor Polad Həşimova ithaf

Təkcə Vətən üçün çırpındı hər an
Köksünün altında o böyük ürək.
Polad kimi möhkəm iradən ilə
Öz ölkəni sevdin son qanınadək.

Əsgər şərəfinlə ömür yaşadın,
Əfsanəyə dönən müqəddəs Adam.
Öncə Vətən, torpaq, haqq və sədaqət –
Belə yaratmışdı səni Yaradan.

Qalxıbdır ayağa bütün Oğullar,
Əsgərlər də hücum əmrinə hazır.
Elə bir iz qoydun özündən sonra
Hər bir kəs adını ömrünə yazır.

Sən bir Türk oğlusan, Azərbaycanın
Əzmini tarixə adınla yazdın.
Cəbhədə, səngərdə haqqın səsini
Dünyaya ruhunla, odunla yazdın.

Həm ata, həm ana, həm qardaş, həm dost,
Həm də övlad idi sənə bu torpaq.
Döyüş meydanında son nəfəsədək
Üsyanın, harayın oldu – Qarabağ.

Sevdiyin torpağın qucağındasan,
Güllələr altından mərdliklə keçdin.
Canında bayrağın, nəfəsdə Vətən,
Yurdu ucaltmaqçün ölümü seçdin.

Əllərdədir silah, ruhun bizimlə,
Düşmən bayrağını endirəcəyik.
Qələbə müjdəli xoş xəbərləri
Sənə də hədiyyə göndərəcəyik.

Sən əsl Oğulsan, unudulmazsan,
Belə cəsurlardır qürur yerimiz.
Qəhrəmanlar ölmür, məkan dəyişir,
Səni yaşadacaq bizim sevgimiz.

Qoy dünya eşitsin, Polad gücündə
Ürəklilər qurban olmağa hazır.
Vətənin Poladtək oğulları var,
Hər qarış torpağı almağa hazır.

Bizim fəxrimizsən, Cənab General,
Mərdlik, vətəndaşlıq, yurd yolu oldun.
Elə zirvədəsən, elə yerdəsən,
Bütün anaların öz Oğlu oldun.

21 noyabr, 2020


BAYRAQ

Tək bayraq dalğalanır,
Dayanıbdı yüksəkdə.
Təkbaşına dolanır
Ətrafında külək də.
Zirvənin bəzəyidir
Bu bayrağın üç rəngi.
Möhtəşəmlik rəmzidir
Bu qürurlu ahəngi.
Yaşılında dirilik,
Qırmızısında qan var.
Göyündə göylər qədər
Böyük bir asiman var.
O, böyük bir millətin
Azadlıq nəfəsidir.
Sancıldığı hər zirvə,
Öz xalqının səsidir.
Baş qoyub, and içməyə,
O, "Quran"a tən gəlir.
Tək bayrağın ardınca
Bu Ana Vətən gəlir.

TÜRKİYƏ, AZƏRBAYCAN

Yumruq kimi birləşib, eyni hədəfə vurub,
Eşq ilə, məhəbbətlə ucalan məbəd qurub,
Çiyin-çiyinə verib yenə də məğrur durub,
Bir ananın övladı – Azərbaycan, Türkiyə.
Qartalın cüt qanadı – Türkiyə, Azərbaycan.

Ən çətin zamanlarda bir-birinə dost, yoldaş,
Siyasət meydanında əqidəbir vətəndaş,
Böyükdən kiçiyədək hər bir mənada sirdaş,
Dili bir, amalı bir – Azərbaycan, Türkiyə.
İkisi bir ürəkdir – Türkiyə, Azərbaycan.



Şəhid general Polad Həşimov

Elə bir qüvvədir ki, addımında fəxarət,
Bu birliyin gücündə birləşibdi həqiqət,
Kökündə sədaqət var, canındadı ədalət,
Bir millət, iki dövlət – Azərbaycan, Türkiyə.
Bu birlikdədir qüdrət – Türkiyə, Azərbaycan.
Ordusu var, gücü var, səsi xalqın səsidir,
Bir-birini sevməsi ən böyük qüvvəsidir,
Həm möhür, həm and yeri tək bircə kəlməsidir.
Dostluğu sarsılmayan – Azərbaycan, Türkiyə.
İki bədəndə bir can – Türkiyə, Azərbaycan.

Bu dostluq yenə böyük sınağa sinə gərdi,
Qardaşlığın əbədi olduğunu göstərdi,
Əsrlərlə bir olmaq, doğma olmaq hünərdi.
Qana köç edən yaddaş – Azərbaycan, Türkiyə.
Bir ruhda iki qardaş – Türkiyə, Azərbaycan.

21 noyabr 2020



Şəhid general Polad Həşimovun dəfn mərasimi (15 iyul 2020)



Polad Həşimovun intiqamını alan Cəbrayıl Dövlət oğlu Dövlətzadə

CƏBRAYIL DÖVLƏT OĞLU DÖVLƏTZADƏ

Dövlətzadə 11 sentyabr 2001-ci ildə Sumqayıt şəhərinin Corat qəsəbəsində anadan olub. Əslən Zəngilan rayonundandır. 2019-cu ilin oktyabr ayından sərhəd qoşunları sıralarında xidmət edib. 9 il cüdo ilə məşğul olub. Deyilənə görə, musiqi də bəstələyirmiş.

Tovuz döyüşlərində general Polad Həşimovun şəhid olması 19 yaşlı Cəbrayıla çox pis təsir edir. Generalın qisasını alacağına and içir. 44 günlük Vətən müharibəsi başlayan gündən könüllü olaraq ön cəbhəyə yollanır. Murovdağda düşmən mövqelərini və xüsusi postlarını ələ keçirilməsi planı həyata keçirilir. Əməliyyatda 11 zabitlə yanaşı, 19 yaşlı Cəbrayıl Dövlətzadə də iştirak edir. O bu döyüşdə erməni generalını, əlbəyaxa döyüşdə isə düşmən polkovnikini boğaraq öldürüb. Təəssüf ki, Cəbrayıl Dövlətzadə bu əməliyyat zamanı yaralanıb və 28 sentyabr 2020-ci ildə şəhid olubdur.

Cəbrayıl Dövlətzadə ikinci Fəxri xiyabanda, general Polad Həşimovun yanında dəfn olunub. Ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda"(15.12.2020), "Azərbaycan Bayrağı" (15.12.2020) ordeni və "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif olunub. Ruhu şad olsun!



MUSA ƏLƏKBƏRLİ

"BİR KƏRƏ QALXAN BAYRAQ"

Müzəffər ordumuzun Ali Baş Komandanı Cənab İlham Əliyevə minnətdarlıq hisslərilə

Gücümü, iradəmi
Heç bir kəs yenən deyil.
Bozqurdum uladısa
Sinsiyib sinən deyil.

Axan günahsız qandı,
Ölən sivil insandı.
Qəzəbim gur tufandı,
Səngiyib sönən deyil.

Hanı təmas xəttiniz?
Bilindimi həddiniz?!
O əyilən qəddiniz
Dikəlib "dinən" deyil.

Elim-yurdum talanıb,
Yerinə su calanıb.
Sinəmizdə qalanıb,
Bu atəş sönən deyil.

Ordum ordundan üstün,
Yurdum yurdundan üstün.
Tarix yazıram bu gün
Bu sənə dünən deyil.

Sizdə olmayan yaraq,
Hökm edir: səddi yaraq!
"Bir kərə qalxan bayraq
Bir daha enən deyil!"


19 dekabr 2020-ci il



Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Sumqayıtda Bayraq Muzeyinin açılışında



Sumqayıt şəhərindəki Bayraq Muzeyinin binası



ZAKİR FƏXRİ

QARABAĞSIZ

Mahir muğam ustadlarımızdan biri çadır şəhərciyində – Xoş gəldin elinə, obana, nə yaxşı... – dedi mənə və "Şuşanın dağları" nı oxudu...

Dostlar, bağışlayın, əliboş gəldim,
Gəldim qapınıza mən, Qarabağsız.
Vallah, gözlərimdən çəkilib getmir
Duman Qarabağsız, çən Qarabağsız.

Ələ qələm aldım, əlim göynədi,
Hər adı gələndə dilim göynədi.
Çiçəyim göynədi, gülüm göynədi,
Bölündüm ortadan tən, Qarabağsız.

Sel də yox Saranı gəlib aparsın,
Bu dərdi, bəlanı bölüb aparsın.
Qoymayın süpürüb, silib aparsın,
Qara saçlarımı dən, Qarabağsız.

Könül sevdan vətən adlı bu bağa,
Göz aç bir gör bağban kim oldu, qağa,
Dəmyə taleyinə min yağış yağa,
Bitirməz bir sünbül, dən, Qarabağsız.

"Qalmaz belə, qalmaz dünya" yazanda,
Umud közərərdi könül sazında.
Zakir Fəxri hər üzünə yozanda,
Anasız yetimsən sən, Qarabağsız.



Prezident İlham Əliyev Ağdamda Bayraq Muzeyinin açılışında



Ağdam şəhərinə qayıdış.
(20 noyabr 2020)



AKİF AZALP

Duymamış bunca qürur xalq otuz ildən bu yana,
Ruhuna, gör, nə qədər təşnədi ki ərşi-əla,
Doymamış sehrinə bir yerdə Vətən adlı ana,
Göydə didarın üçün intizar Allah-Təala!

O bilir təkcə bu eşq səndə yaranmış haradan,
Naümid etdimi heç bircə kərə ümmətini?!
Səni yurda hələ çox qaytaracaqdır Yaradan,
Qorumaqdan ötəri yer üzünün cənnətini!

2020

ŞƏHİD ÖYGÜSÜ

("Əruz həmlələri" silsiləsindən)

Qarabağ müharibələrində Haqqa qovuşan bütün şəhidlərin müqəddəs ruhuna sonsuz ehtiramla!

Taleyi qan-qadaya yoğrulu yurd torpağının
Nə qədər göz yaşı var, bir elə şəhid qanı var.
Yerin üstündə yığıb zülmünü qəddar yağının,
Yerin altından atəş püskürən öz tüğyanı var!

Bu Vətən yavrusunun əfsanədə yoxdu tayı,
Şan yazır, yer o yana, göydə könüllər yaxaraq!
Zəfərində yenə "Ya Heydəri-kərrə!" harayı,
Yıxılır köksünə bir bayrağı bərk-bərk sıxaraq!

Nəsib olmuş bu səfər öygü demək bəxti mənə,
Döz bir az, ey Basatım, dözməlidir qurd ürəyin!
Nə qənim, hətta ölüm tək bata bilməzdi sənə,
Gözü düşmüş, görünür, göydəki qısqanc mələyin!

Son anında belə şən zillənib, ərşə tələsən
Bu mübarək baxışı mən necə vəsf eyləməyim?!
Vurub atdıqca külək, qanlı yaran üstə əsən,
Qan-qızıl köynəyinə mən necə bayraq deməyim?!

XİLASKAR NİDASI

("Öndərnamə" silsiləsindən)

Ümummilli lider Heydər Əliyevin 1990-cı ilin yanvarında sabiq SSRİ paytaxtındakı məşhur bəyanatı əsasında

Xalqımın göyləri tutan fəğanı
Ağır illərimin acısı oldu.
Bakıdan birinci şəhidin qanı,
Səbrimin sonuncu damcısı oldu.

Əlvida, yolunu azan səltənət,
Nahaq qan içində üzən səltənət!

Anlatmışdı bir vaxt şeytanlığını
Minlərlə nərlərə qurduğun tələ.
Gəncliyimdən sənin zindanlığını
Hamleti oynarkən sezmişdim hələ!

Əlvida, yolunu azan səltənət,
Mərdlərinə zəhər süzən səltənət!

Yalnız sığınıb bir yurd muradına,
Can atdım üzünü ağ etmək üçün.
Azadlıq eşqinə çatıb dadına,
Elimin bəxtinə bir yetmək üçün.

Əlvida, yolunu azan səltənət,
İçdiyi andları pozan səltənət!

Heyhat, sınaqlara gərdikcə sinə,
Səngimək bilmədi böhtan daşların.
Aldanmış qəlblərin son ümidinə
Son qoydu yelbeyin keçəl başların!

Əlvida, yolunu azan səltənət,
Yalanı gerçəyə yozan səltənət!

Gözümə görünər nə xof, nə hədə,
Nə şöhrət, nə mənsəb, nə də kabinet...
Daha yerim yoxdur belə firqədə,
Al, başına dəysin, bu da partbilet!

Əlvida, yolunu azan səltənət,
Öz qəbrini özü qazan səltənət!

Artıq yollarımız başqa-başqadır,
Sən biryolluq uydun şərə, şeytana.
Məni isə məslək eşqim aparır,
Son sığınacağım Azərbaycana!

Əlvida, yolunu azan səltənət,
Əcəlin Qafqazdan gəzən səltənət!

İSTİQLAL

Azərbaycan Xalq Cümhuriyyətini və müstəqil Azərbaycan Respublikasını birləşdirən əbədi İdeal üçün!..

Nurlu yaşın mübarək, yaş tanımaz məlikəm!
Nəhayət, bunca sitəm, qan-qadalardan sonra,
Bu qədər sınaqlardan, qasırğalardan sonra,
Çox şükür, vüsalına yetişdi yenə ölkəm!
Bu gün artıq çar-naçar gülümsəyir qarşında,
Səni iki yaşında oğurlayan namərdlər.
Bu gün artıq ərşdədir çoxu igid yaşında,
Sənin dalınca gedən adı dağ boyda mərdlər!
Yalnız sən göylərə xas ecazkar qüdrətinlə
Zülmətlərə sığmadan zindanları dağıtdın.
Yetmişillik qeybindən səməndər xislətinlə
Sən yenidən doğuldun, sən yenidən qayıtdın!
Qutsal medalyon kimi köksündə yanır tuğran,
İçində bir şəkillə bir ad var – Azərbaycan!
Sağ olsun gül-çiçəklə ərsəyə gətirənlər,
Var olsun qoruyaraq bu həddə yetirənlər!
Bu gün artıq vətəndə sənlə nəfəs alan,
Doqquz milyon uğrunda can verməyə hazırdır,
Bu gün artıq dünyada sənin hüsnünə heyran,
Əlli milyon növbədə qan verməyə hazırdır!
Hökm elə bircə dəfə, ey qəlbimin səması,
Son arzunun yolunda birinci qurban olum!
Hökm elə bircə kərə, ey şeirimin siması,
Hüsnünə kəc baxanı gözündən vuran olum!
Füsunkarsan, illah da, can alanda varlığın,
Elə ki başın üstdə ay-ulduzun sayrışır!
Məftunkarsan, illah da yellənəndə yaylığın,
Elə ki al yaşıla, yaşıl göyə qarışır!
Şanlı yaşın mübarək, yaşdan uca bakirəm,
Dik tut başını, artıq sən əbədi mənimsən!
Bir də əl uzadanın əllərini kəsməsəm,
Qanım halaldır sənə, eşqimə and içirəm.

2011

GENERALIN SON ƏMRİ

Azərbaycan Ordusunun şəhid general-mayoru Polad Həşimovla birgə bütün şəhid-lərin müqəddəs ruhuna dərin ehtiramla!..

Bayrağı uca qaldır,
qələbəyə gedirsən!
Ey şəhid oğlu qazi!
Saldır, ölümə saldır,
hər cür zülümə saldır!
Şəhid düşən hər kəsi
Ölməzliyə yol aldır,
Bayrağı uca qaldır!
Yurd yolunda can vermək
hər mərdin vüqarıdır,
Baxsana, şəhidlik də
sıravi ölümlərdən
bir bayraq yuxarıdır!
Bayrağı uca qaldır!
Gördükcə o şiddəti
bükülür şərin dizi,
Sezdikcə o qüdrəti
kəsilir hənirtisi...
Bayrağı uca qaldır!
Otuzillik həsrətə
o nöqtə qoyacaqdır,
Düşmənlərinlə birgə
xainlərin gözünü,
satqınların köksünü
o bayraq oyacaqdır!
Bayrağı uca qaldır!
Hər anında güvənib
arxandakı zirvəyə,
Tufanında söykənib
milyon-milyon kütləyə,
Bayrağı uca qaldır!
Ey Günəş törəməsi,
Odlu səfər üstdəsən,
Şanlı zəfər üstdəsən,
Bərk ayaqda ərşi də
səfərbər edəcək o,
Dağından, dənizindən
vulkan püskürdəcək o!
Unutma ki, kiminlə güləcəksə o bayraq,
Kimin hünəri ilə dönəcəksə Qarabağ,
Onun nurlu adını daşıyacaq bu torpaq!
Bayrağı uca qaldır!..

İyul 2020

XARIBÜLBÜL

Əfsanən doğulan andan
Könüllərə od salmısan.
Sən yara vurğun olandan
Görkəmindən pay almısan.
Yarı gülsən, yarı bülbül,
Xarıbülbül, Xarıbülbül!

Ötdükcə cəh-cəhlər ilə
Gah sağında, gah solunda,
Sirlərini saçmış elə:
Heç demə sənin yolunda
Saralıbmış sarı bülbül,
Xarıbülbül, Xarıbülbül!

Bunca qəm çəkdiyin yetər,
Gül, ey gülşənlər göyçəyi!
Ümidlər getmədi hədər,
Qarabağın xan çiçəyi,
Şuşanın vüqarı bülbül,
Xarıbülbül, Xarıbülbül!

Demişdin, İlham anları
Bitdiyim yerə dönəcəm.
Sonda qara tikanları
Mətanətimlə yenəcəm!
Cıdırın ilqarı bülbül,
Xarıbülbül, Xarıbülbül!

Bu sehr, bu lətafətlə
Sən güllərin birincisi!
Bu mehr, bu sədaqətlə
Yurd gülzarının incisi!
Elin iftixarı bülbül,
Xarıbülbül, Xarıbülbül!

2022

ŞUŞA COŞQUSU

"Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!.."
İlham Əliyev

Saçdı ətrin boğub sevinc yaşına,
Zəfər çələnginin tər qızılgülü!
Qayıtdı gülləri yığıb başına,
Vətən gülşəninin Xarıbülbülü!
Gözəllik məvası, aram şəhəri,
Bəxtində var imiş İlham zəfəri!
Qənimin yadında xof kimi hər dəm,
Şuşa adın çəkmək qorxusu qaldı!
Mənimsə gözümdə düzünü desəm,
Yolunda can vermək arzusu qaldı!
Coş, ey qalaların ən bəxtəvəri,
Bəxtinə yar oldu İlham zəfəri!
Qoy desin cəngilər, nər operalar,
Haqdan buta almış tarınla sazın!
Qoy kükrəsin şanlı uvertüralar,
Sən səs paytaxtısan qoca Qafqazın!
Musiqi səması, muğam səngəri,
Bir şərəfdir sənə İlham zəfəri!
Yenilməz əsgərlə qazandığın şan
Nur bəxş etdi yurdun toy-düyününə!
Müjdən isə Ali Baş Komandandan
Ən gözəl töhfədir Bayraq gününə!
Coş, ey qalaların ən müzəffəri,
Tarix yazır bir-bir İlham zəfəri!



Ümummilli lider Heydər Əliyev və ədəbiyyat-incəsənət xadimləri Şuşada M.P.Vaqifin məqbərəsinin açılışında. 14 yanvar 1982-ci il



RƏFAİL TAĞIZADƏ

QARABAĞ BAYATILARI

Bağında bağlığın varmı,
dağında dağlığın varmı,
köynəkdə ağlığın varmı?
Q A R A B A Ğ.

Can atıram çiçəyinə,
əlim çatmır ətəyinə,
necə qonum pətəyinə,
Q A R A B A Ğ.

Sənsiz aran, yaylaq itib,
yaddan çıxmaz, oylaq itib,
su quruyub, çaylar itib,
Q A R A B A Ğ.

Cığır dolu izim hanı,
eşidilən sözüm hanı,
o həyalı üzüm hanı,
Q A R A B A Ğ.

Qırılıbdı budaqların,
qoyunsuzdu yataqların,
quzulayıb otaqların,
Q A R A B A Ğ.

Çaylarından sular axmır,
şimşək daha elə çaxmır,
ruhlar məni tək buraxmır,
Q A R A B A Ğ.

İşıq gəlmir çırağından,
xəbərsizəm sorağından,
necə çıxım qınağından,
Q A R A B A Ğ.

Bu yerlərin təhnəsi boş,
Cıdır düzü, səhnəsi boş,
dədə-baba məhləsi boş,
Q A R A B A Ğ.

Mənim nəyim qalıb daha,
dərd alan yox, satım baha,
ahlarım çatmır Allaha,
Q A R A B A Ğ.

2000

ŞƏHİDLƏR XİYABANI

Şəhidlər xiyabanı.
Qara mərmər başdaşları,
göyərdəcək torpağını göz yaşları,
Ağlamazmı səni görən,
hönkürməzmi dərdin bilən,
nə söyləyər bunu edən
cavabında analara,
torpaqlaşmış ataların
başdaşını ata sanan
oğullara.
Hara baxdım hönkürtülər,
gilə-gilə göz yaşları.
Başdaşını qucaqlayıb
Qurumuş barmaqlarıyla

oğul saçı darayan
analar gördüm
dərdin içindən sovrulmuş.
Aydan arı, sudan duru
sonalar gördüm
dərdin içindən sovrulmuş.

Şəhidlər xiyabanı.
Nələr gördüm,
nələr, nələr –
neçə-neçə, cavan-cavan
ata gördüm,
oğul səsi eşitməmiş,
arzulara yetişməmiş.
Ata gördüm ümidlərdə
inamlarda yaşayası,
ataya oğlun tanıdan
gəlin ana –
əlində xına yarası.

İllər ötüb keçsə də,
için-için ağlayacaq:
ata qucağı, ata sığalı görməyən,
ürəkdən doyunca gülməyən,
bir gün zülmət gecəsi
işıqlı səhərə çevriləcək uşaq.
Düşmənə nifrəti, kini,
zəfərə çevriləcək uşaq.

Qəlbimizdə Şəhidlər xiyabanı,
dalğalanan bayrağımızda şəhid qanı.

9 avqust 2000



Birinci Qarabağ müharibəsində
Azərbaycan əsgərləri



Əsgərlərimiz azad edilmiş Şuşada



AĞALAR MİRZƏ

BAYRAQ

"Ya Allah" deyib al əlinə,
İrəli bax, özünü aparmasa,
Ruhunu aparacaq.
Bayraq... Ruhundu ağ göyərçin,
Göy üzü gömgöy bayraq,
And göyərsə dilində
Köməyə çatan çatacaq.
Qaldır bayrağı köksündən
Allah pənahına!
Qan qardaşınca sev
Kim ki təkdi...
"hu-hu" deyincə
Qapılar açılacaq.
Əynindəki laləli köynəkdi
Əlindəki bəxtəvər bayraq.
Çap atını hünərlə,
Köksünlə axını yar,
Bayraq tutan ərlər
Yarasını yalayar.
Örtüləcək üzünə
Qapılar... son kərə bax.
Taleyi hər kişiyə
Ya kəfəndi, ya bayraq.

5 mart 2009-cu il



ƏLİ RZA XƏLƏFLİ

SƏS BAYRAQ, HARAY BAYRAQ

Qanında bir qeyrət, təpər gəlirsə,
Doğulan, göz açan oğuldu bayraq.
Min acı üstündə şirin gəlirsə,
Bayramdı, Novruzdu, noğuldu bayraq.

Qalxmağında, enməyində yaşayan,
Dalğasında könülləri oxşayan.
Yaddaşında ağrı yükü daşıyan
Sözdü, əfsanədi, nağıldı bayraq.

Hədəfi gözündən düz vurmadısa,
Əsgər xain gözə bozarmadısa.
Şəhidin qanında qızarmadısa,
Rəngi soldu getdi, ağ oldu bayraq.

Məsləkin yanında özü təkdisə,
Vətən ağrısını tənha çəkdisə.
Yasasız bir millət, Vətən çökdüsə,
Dövlət sarayıdı–dağıldı bayraq!

Qüruru əyilməz, vüqarı yenməz,
Düzdən üz çevirməz, doğrudan dönməz.
Yanar ürəklərdə, işığı sönməz,
Neçə dərdin üstə dağ oldu bayraq!

Tikanlar üstündə oxudu, bəlkə,
Bülbül sinəsini toxudu, bəlkə...
Özü ölməzlərin ruhudu bəlkə,
Təmkindi, hikmətdi, ağıldı bayraq!

Qüruru ucalar ucalığında
Yenilməz qüdrəti qocalığında.
Vətənin kədərli, dərdli çağında
Ümidə, inama dağ oldu bayraq!

Neçə daş üstündə tarix yazıldı,
Demə ki, yazıldı, niyə az oldu?
İllər də göyərdi, fəsil yaz oldu,
Daş da gül toxudu–çağ oldu bayraq.

Al güllər bitirdi çəmənlər üstə,
Arzuda, istəkdə çimənlər üstə.
Göy üstə al gəldi, yaşılı dəstə,
Azadlıq bağçası–bağ oldu bayraq!

Səs bayraq, haray bayraq,
Ulduz bayraq, ay bayraq.
Qan çəkər boyçəkəri
Türk, turan, Altay bayraq.

8 noyabr 2018-ci il



Bayrağımız azad olmuş ilk şəhərimiz Cəbrayılda



Ali Baş Komandan İlham Əliyev Cəbrayıl şəhərində müqəddəs bayrağımızı ucaldarkən



FƏRƏC FƏRƏCOV

ZƏFƏR PARADI

Torpağa pir deyən ərənlərim var,
Düşməni yerlə bir sərənlərim var,
Qələbə meyvəsin dərənlərim var.
Baxın qürur saçır bəhrəsi, dadı,
Müzəffər ordumun Zəfər paradı.


Canım Qarabağın bitdi savaşı,
Dəyişdi yurdumun kirli havası,
Çin oldu elimin, xalqın duası.
Daha söylənməsin bəxtim qaradı,
Artıq mənimkidir Zəfər paradı.

İlhamla Ərdoğan dayanıb qoşa,
Köksü zəhərlilər düşüb çaş-başa.
Var ol Odlar yurdum, Türkiyəm, yaşa!
Qardaş qardaşını tapdı, aradı,
Birlikdə yapdılar Zəfər paradı.

İlahi, bu nə gün, bu nə büsatdır,
Hamı çal-çağırda, ürəklər şaddır,
Bəlkə, cənnət adlı yeni həyatdır
Ünvan Azərbaycan–Bakıdır adı,
Səs saldı dünyaya Zəfər paradı.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan paytaxt Bakıda keçirilən Zəfər paradında. 7 noyabr 2020-ci il



Paytaxt Bakıda Zəfər paradı



YUSİF NƏĞMƏKAR

AZƏRBAYCAN, TÜRK BAYRAĞI

Məğrurluğu tərkedilməz,
Siz sancılan Yurd yenilməz –
Ey Tanrısal, vəsfəgəlməz
Azərbaycan, Türk bayrağı.

Varlığınız güvəncimiz,
Yarlığınız – yar incimiz,
Zəfər donlu sevincimiz –
Azərbaycan, Türk bayrağı.

Ay, ulduz – səmavi dəstə,
Bəyazlıq ali al üstdə,
Al da, yaşıl da ruh bəstə –
Azərbaycan, Türk bayrağı.

Atlaz zəmin üstdə qumaş,
Qoşa namus, qoşa ardaş,
Qoşa sirdaş, qoşa qardaş –
Azərbaycan, Türk bayrağı.

Mərdlik–əzəl ünvanınız,
Arkadaşlıq–hər anınız,
Həp birlikdə dalğalanız –
Azərbaycan, Türk bayrağı.

Birdən yaranan ikilik,
İkilikdən doğan birlik.
Hər çalarında dirilik –
Azərbaycan, Türk bayrağı.

Anası bir – əkiz övlad,
Birdi əsli, soyu, əlbət,
Ey bir millət, iki dövlət –
Azərbaycan, Türk bayrağı.

Hər zəhmi, zəhmətçiyi bir,
Hər rəhmi, rəhmətçiyi bir,
Əsgəri, Mehmetçiyi bir –
Azərbaycan, Türk bayrağı.

Bu vəhdətdən ha yaz, keçməz,
Qış adlayıb, ayaz keçməz,
Arasından Araz keçməz,
Azərbaycan, Türk bayrağı.

Totemi – Bozqurd – Göy oğlu,
Savaş – yolgöstərən ağlı...
Qurd dişi nəzərə bağlı –
Azərbaycan, Türk bayrağı.

Kəsər söz, ayıq baş, ağ üz,
Şərqi – türküsü bir ağız,
Kökü Şumer, Şaman, Oğuz –
Azərbaycan, Türk bayrağı.

Oğuz Qayı boyu doğrul,
Süleyman oğlu Ərtoğrul;
Ər nəsildən Osmanı bul,
Azərbaycan, Türk bayrağı.

Alban, Qıpçaq, Hun börküyəm,
Şərhsiz bir şərqi, türküyəm,
Azərbaycanım – Türkiyəm –
Azərbaycan, Türk bayrağı.

Biz türkləriz – mərdlər dəsi,
"Çadırımız – göy qübbəsi";
Bilgə Kağan təntənəsi –
Azərbaycan, Türk bayrağı.

Hürr bəhərindən barınım...
Andım, imanım, "Quran"ım,
Pak qibləm yönü Turanım –
Azərbaycan, Türk bayrağı.

Ozandan azana gələn,
Yazandan yozana gələn,
Dürüst bir mizana gələn
Azərbaycan, Türk bayrağı.

Şəhid qanıyla güllənən.
Hünər şanıyla dillənən,
Çanaqqalada yellənən
Azərbaycan, Türk bayrağı.

Zaman-zaman zülmü tərk mən.
Yer üzündə göyə görk mən...
Ulu Səlcuq, Təkə Türkmən –
Azərbaycan, Türk bayrağı.

Yetirilən – ayparası,
İtirilən – xətər yazı...
Qarış-qarış qaytarası –
Azərbaycan, Türk bayrağı.

Zülmətlər biçib, gəldiniz,
Sidqən and içib, gəldiniz,
Odlardan keçib, gəldiniz
Azərbaycan, Türk bayrağı

Məhəbbətdir qoynundakı,
Suyu, odu, yeli, xaki,
Ankara, İstanbul, Bakı –
Azərbaycan, Türk bayrağı.

Güman yeri Yer bəndimin;
Təbrizimin, Dərbəndimin...
Hər şah misram, hər bəndimin
Azərbaycan, Türk bayrağı.

Ağrıdağın ağı zərdi.
Ruh nə əkdi–can becərdi,
Ərzurumdu, Kəlbəcərdi
Azərbaycan, Türk bayrağı.

Göydə laylan, Yerdə yer aş,
Ulduza dön, günə yaraş,
Şuşa, İzmir, Gəncə, Maraş –
Azərbaycan, Türk bayrağı.

Ağ, Mərmərə, Egey, Xəzər,
Qara dəniz – aydın nəzər..
Könül-könül, əl-əl gəzər
Azərbaycan, Türk bayrağı.

Dönməz qəlb – Kövrək "şüşə"i,
Həm səkkiz, həm beşguşəli,
Əzəl İmandan rişəli
Azərbaycan, Türk bayrağı.

Şəhpər qanadlı istiqlal,
Təpər inadlı istiqbal,
Alın yazım – qədər, iqbal –
Azərbaycan, Türk bayrağı.

Eeheyy, şərə uzanan əl,
Eşit, bədxah, xəbis əməl,
Sarsılmazdır bu tunc təməl –
Azərbaycan, Türk bayrağı.

Qərib bilmə, nankor yağı.
Gelibolu. Qarabağı!..
Gözmüzün qarası, ağı
Azərbaycan, Türk bayrağı.

Ruhu göylər, göyü Göytürk,
Bayanı xan, bəyi bəy türk,
Mutlu millət, milli, yey türk –
Azərbaycan, Türk bayrağı.

Qayələnsin, bəyan olsun,
Ayələnsin, əyan olsun!..
Cahana nur yayan olsun
Azərbaycan, Türk bayrağı

Haqqa səslər bölgələri:
Qitələri, ölkələri,
Gündoğandır kölgələri –
Azərbaycan, Türk bayrağı.

Baş-başadır miz üstündə.
Yeri könül, göz üstündə.
Önündəyik diz üstündə –
Azərbaycan, Türk bayrağı.

Doğma yurdların can səsi,
Cümhuriyyət iradəsi,
Məslək, amal təntənəsi –
Azərbaycan, Türk bayrağı.

Sancıl qüdrət dərgahında,
Yerin, göyün cinahında.
Ucal Tanrı pənahında
Azərbaycan, Türk bayrağı.

3 oktyabr 2020-ci il



Qardaşlaşmış Azərbaycan Türkiyə



GÜLƏMAİL MÜRAD

ŞƏHİD ANASIYAM

Şəhidlərim – Göydə buludlar hönkürüb mərsiyə deyir, yerdə ana-bacıların göz yaşı, layla-bayatısı ilə yuyulur.

Şəhid anasıyam, qoy bilsin ellər,
Amma göz yaşımı boğacağam mən!
Bətnimdən doğduğum şəhid balamı
İndi öz ruhumdan doğacağam mən!

Mənimdir Kür çayı, Göyəzən dağı,
Hər daşım, hər qayam aslan yatağı!
Sinəmə dağ çəkmək istəyən yağı,
Görsün necə zirvə, necə dağam mən!

Ah çəksəm, ahıma dinər ulduzlar,
Göylərdən yerlərə enər ulduzlar!
Üçrəng bayrağıma dönər ulduzlar,
Ana görkəmində bir bayrağam mən!

Oğulsuz keçsə də neçə illərim,
Dərddən ağarsa da qara tellərim,
Deməz qədirbilən, doğma ellərim,
Deməz xəzan vurmuş bir yarpağam mən...

Düşmənlər yurduma girməyəcəklər,
Bağımdan gül-çiçək dərməyəcəklər!
Şəhidlər ölməyib, ölməyəcəklər,
Nə qədər Vətən var, hələ sağam mən.

AZƏRBAYCAN BAYRAĞI

Sən Tanrıdan qismətim, sən taledən payımsan!
İşıq saçan ulduzum, nur çiləyən ayımsan!
Min illik diləyimsən, yüz illik harayımsan!
Ey iki sözlü yazı, üçrəngli göy qurşağı!
Azərbaycan bayrağı, Azərbaycan bayrağı!

Göy rəngin millətimin hünər, qeyrət rəngidir!
Yaşıl rəngin inancım, dinim, hümmət rəngidir!
Qırmızın azadlığım, şərəf, şöhrət rəngidir!
Qalibiyyət rəmzisən bu dövranın, bu çağın!
Azərbaycan bayrağı, Azərbaycan bayrağı!

Bir əsrdir ucaldın, dalğalandın, enmədin!
Döndərmək istədilər, məramından dönmədin!
Elə bir məşəlsən ki, alovlandın, sönmədin!
Qaranlıq gecələrdə haqqın sönməz çırağı!
Azərbaycan bayrağı, Azərbaycan bayrağı!

Öndərim öpdü səni, yenə dalğalan dedi!
Yolunda həlak olan şəhidlər can-can dedi!
Bir bayrağın altında neçə qəhrəman dedi:
"Sənə kəc baxanlara çəkdirərik göz dağı!
Azərbaycan bayrağı, Azərbaycan bayrağı!"

Ucalardan ucasan dağda şəlalə kimi!
Gözün dəniz kimidir, yanağın lalə kimi!
Başımızın üstündə yandıqca halə kimi
Uzaq planetlərə qoy yayılsın sorağın!
Azərbaycan bayrağı, Azərbaycan bayrağı!

Ali Baş Komandanım elin bayraqdarıdır!
Yolumuz haqqa doğru, zəfərlərə sarıdır!
Bayrağım millətimin, ölkəmin vüqarıdır!
Qazandıq, itirmərik bir daha bu növrağı!
Azərbaycan bayrağı, Azərbaycan bayrağı!

Haqqın əliylə yanan bir ocaqsan, bilirəm!
Qalxdın Lələtəpədə, çünki haqsan, bilirəm!
Gün gələcək Şuşada qalxacaqsan, bilirəm,
Atəşlərdən ucalan bir səməndər sayağı!
Azərbaycan bayrağı, Azərbaycan bayrağı!

10 iyul 2021-ci il



Xalqın bayraq sevgisi



ƏYYUB ŞIRLANLI

SƏNDƏN XAHİŞİM VAR, AY ŞƏHƏRSALAN!..

Səndən xahişim var, ay şəhərsalan,
Toxunma ruhuna köhnə Şuşanın!
Şuşa – Qarabağın daş yaddaşıdır,
Şuşa – Qarabağın zümrüd qaşıdır.
Şuşa – Vətənidir türksoy babamın,
Cənnətməkanıdır Azərbaycanın!
Şuşa – Pənah xanın tac şəhəridir,
Şuşa – yerdə cənnət, göydə pəridir.
Şuşadan söz açmaq hər gün yeridir...
Şuşadan yazılıb yüzlərlə əsər,
Diqqət et, gör burda nələr var, nələr?!
Dahilər ruhu var hər bir daşında,
Bunları gəl saxla sən yaddaşında!..
Təzə şəhərlərə oxşatma onu!..
Orda Pənah xanın əl izləri var,
Orda səyyahların yol izləri var,
Orda anaların cehizləri var,
Şuşanın bənzərsiz gündüzləri var...
Orda Pənah oğlu İbrahim xanın,
Şuşa bəylərinin sarayları var.

Orda Şuşa üçün canından keçmiş,
Şəhidin, qazinin harayları var!
Orda Kərbəlayı Şəfixan bəyin,
Daşlara həkk olmuş naxışları var.
Şuşa gözəlinin – Gövhər ağanın,
Qoşa minarədə baxışları var!
Orda qanad açıb min-bir arzular,
Orda Natəvanın "Məclisi-Üns"ü var.
Böyük kitabədir qayası, daşı,
Qoyma əl uzatsın Şuşaya naşı...
Təzə şəhərlərə oxşatma onu!..
Unutma tarixdən gələn yaddaşı,
Qaytar qoy yerinə hər sınıq daşı.
Tullama kənara bir çınqılın da,
Tullama ocağa qamqalağın da...
İnsanı mat qoyur dağı, dərəsi,
Heyrət dünyasıdır hər mənzərəsi.
Başqa bir aləmdir suyu, havası,
Dərdlərə dərmandır çıçək dünyası...
Bu şəhər – yenilməz bir Komandanın,
"Dəmir yumruğ"unun təntənəsidir!
Bu şəhər – Şəhidin, həm də Qazinin,
Bizə gəlib çatan şah əsəridir!
Bu şəhər – şəhərlər şahənşahıdır,
Bu şəhər – Günəşlə, Ayla qoşadır,
Bu şəhər – dünyanı heyrətə salıb,
Adı – Pənahabad, adı – Şuşadır!
Təzə şəhərlərə oxşatma onu!...
Yuxumda mələklər dedi bu sözü:
"Qibləyə qoy baxsın Şuşanın üzü!"
Diz çöküb öpmüşəm şəhidin qanın,
Toxunma ruhuna köhnə Şuşanın!
Şuşa – Vətənidir türksoy babamın.
Şuşa – Paytaxtıdır Azərbaycanın!!!
Təzə şəhərlərə oxşatma onu!..

2021

ÜÇRƏNGLİ BAYRAĞIM

Üçrəngli bayrağımız,
Şöhrətimiz, şanımız!
Qoy sənə qurban olsun
Döyüşlərdə canımız!


Dalğalanan bayrağın
Ətrindən doymamışam.
Bir qarış torpağımı
Yadlara qıymamışam!

Bayrağımız rəngini
Şəhid qanından alıb.
Başımızın üstündə
Şuşamızda ucalıb.

8 noyabr 2020-ci il



Ölkə başçısı İlham Əliyev ailəsi ilə Üzeyir bəy Hacıbəylinin yenidən bərpa olunmuş büstünün açılışında



Güllələnmiş heykəllər yenidən doğma Şuşada



BALAYAR SADİQ

AZƏRBAYCAN BAYRAĞI

Milyonlara müjdəsən Şah Xətai elindən,
Səni təbrikə gəldim Şəhriyarın dilindən.
Göylər əyilib öpür dalğalanan telindən,
Sən ey azadlığımın gülümsəyən dodağı,
Azərbaycan bayrağı!

Səni görmək eşqinə çox ümidlər qocaldı,
Bir canda ünvan etdin üç hikməti, üç adı.
Sən ucalan ucalıq şəhidlikdən ucadı,
Hürriyyət kitabımın ilk mübarək varağı,
Azərbaycan bayrağı!

Üç rənginlə Tanrıya üç köynək yaxın oldun,
Milyonları isitdi bu hənirin, bu odun.
Neçə adsız şəhidin arzusundan doğuldun,
Sən bölünmüş yurdumun bölünməzlik sorağı,
Azərbaycan bayrağı!

Ey iman işığından köynək geymiş hilalım,
Sənin ucalığınla qanadlanır xəyalım.
Təbrizdən Dərbəndəcən göz oxşayan amalım,
Əbədiyyət ətirli həqiqətin duvağı –
Azərbaycan bayrağı!

Zəngəzurun, Göyçənin yuxusunda dalğalan,
Qarabağsız həsrətin qorxusunda dalğalan.
Sən Şuşanın, Laçının qoxusunda dalğalan,
Ey milli qeyrətimin ən ovxarlı yarağı,
Azərbaycan bayrağı!

Rənglərinlə yoğurdum şeirimin hər sətrini,
Ürəyimdən asmışam hörmətini, xətrini.
Dalğalan, duysun ellər azadlığın ətrini,
Milyon-milyon ürəkdə istiqlalın növrağı,
Azəbaycan bayrağı!

2016



Üçrəngli bayrağımız qalib idmançımızın başı üzərində



FƏXRƏDDİN MEYDANLI

AZƏRBAYCAN BAYRAĞI

Yüz il əvvəl ucaldı,
Düşünmə ki, qocaldı.
Bu torpaqdan güc aldı –
elə bağlandı bağı,
Azərbaycan bayrağı.

O Şərqin bayraqdarı –
əzəməti, vüqarı.
Xalqımın İstıqlalı –
bir əldə beş barmağı,
Azərbaycan bayrağı.

Onu tez endirdilər,
Yad dillə dindirdilər.
Hərdən baxıb, güldülər –
saralmadı yarpağı,
Azərbaycan bayrağı.

Büküb küncə atdılar,
Yetmiş il tozlatdılar.
Yüz bayraq yaratdılar –
heç olmadı parlağı,
Azərbaycan bayrağı.

Dünya bənzər bir çarxa,
"Su gələr yenə arxa".
Yadelli baxa-baxa –
gəlib yeni növrağı,
Azərbaycan bayrağı.

İstiqbalım əyilməz,
Bayrağım bir də enməz.
Amalından o dönməz –
qələbələr sorağı,
Azərbaycan bayrağı!

Ulduzu, ayparası,
Üç rənglidir yaxası.
İldırım tək çaxası –
üfüqdə göy qurşağı,
Azərbaycan bayrağı.

Şəfəqim, günüm, ayım,
Basılmayan sarayım.
Qəlbim, səsim, harayım –
Sənsən ilham bulağı,
Azərbaycan bayrağı

Xankəndidə dalğalan
Səni qucsun İrəvan.
Təbriz sarı yol alan –
türkün sönməz çırağı,
Azərbaycan bayrağı.

Ruhusan Meydanlının,
Hər bir vətəncanlının.
İgid, dəliqanlının –
paslanmayan yarağı,
Azərbaycan bayrağı.

4 dekabr 2015



Azərbaycan gəncləri İstiqlal abidəsi önündə



Keçmişdən bu günə...



DAYANDUR SEVGİN

AZƏRBAYCAN BAYRAĞI

Millətimin fəxridi, haqqa gedən yoludu,
Koroğlumun qılıncı, Babəkimin qoludu,
Müstəqillik günəşi, Azadlıq simvoludu,
Seyr elə, igid əsgər, dalğalanan bayrağı.
Üçrəngli göy qurşağı, Azərbaycan bayrağı!

"Balam" deyib ağlama, o millətin balası,
Vətən yolunda getdi, qurdu qeyrət qalası,
Düzəlt, qəddini düzəlt, şax dur, şəhid anası,
Ucalarda saxlayar tökülən qan bayrağı.
Üçrəngli göy qurşağı, Azərbaycan bayrağı!

Yaşılı islamçılıq, göyü Turan şanıdı,
Vətən oğlu, qırmızı şəhidlərin qanıdı,
Ümummilli liderin bizə ərmağanıdı,
Oğullardı ucaldan, ata sancan bayrağı.
Üçrəngli göy qurşağı, Azərbaycan bayrağı!

Tanrıdan səda gələ, yazdığın haqqa yaza,
Mələklər səcdə edə, bu aya, bu ulduza,
İgid oğlanlarımız, sevdiyi gözəl qıza,
Atsın zərif çiyninə, versin nişan bayrağı.
Üçrəngli göy qurşağı, Azərbaycan bayrağı!

Azadlığın yanğısı alışar, sönməz dedi,
Millətim haqq yolundan, heç zaman dönməz dedi,
Bir dəfə qalxan bayraq, bir daha enməz dedi,
Endirmərik bir daha işıq saçan bayrağı.
Göylərin göy qurşağı, Azərbaycan bayrağı!

Könlümdə göyərəni Qarabağda bitirsin,
Dalğalansın, arzumu Savalana yetirsin,
Ucaldıqca ucaldaq, dosta sevinc gətirsin,
Göylərin göy qurşağı, Azərbaycan bayrağı!

Hayqırır azad ölkəm tiranlara, şahlara,
Qaranlıq gecələrdən, işıqlı sabahlara,
Oyatsın səhər mehi, oxşasın dan bayrağı.
Göylərin göy qurşağı, Azərbaycan bayrağı!

Gözəldi qarlı qışı, həm də yazı Vətənin,
Qəriblikdə bilinər dadı-duzu Vətənin,
Uğrunda şəhid olaq, ya da qazi Vətənin,
Yolunda verək qurban, qorusun can bayrağı.
Göylərin göy qurşağı, Azərbaycan bayrağı!

QƏLƏBƏ QİSMƏT ELƏ...

Hələ ölməmişəmsə ürəyimin tabıdı,
Vulkan kimi püskürür, hələ göylərdə ahım.
Onu görmədən ölmək cəhənnəm əzabıdı,
Məni belə əzaba tuş eləmə, Allahım.
Qələbə qismət elə, Tanrım, Azərbaycana.

Dəllalların əlində siyasətin bazarı,
Qəlbimizi şam kimi yandırıb tutaq sənə.
Yeriyən pilləkəndi hər şəhidin məzarı,
Gəlirik səcdənə biz, az qalıb çataq sənə.
Qələbə qismət elə, Tanrım, Azərbaycana.

Yağı gərək boğula özü murdar qanında,
Yolunu gözləyirik nə vaxtdı belə anın.
Düşmənə qahmar duran dövlətlərin yanında,
Sözün kəsərli elə Ali Baş Komandanın.
Qələbə qismət elə, Tanrım, Azərbaycana.

Uşaqları öldürür, insafsızdı bu yağı,
Quruyubdu göz yaşı içimizdə qəhərdən.
Biz xəbər gözləyirik, ey təklərin pənahı,
Hər qaranlıq gecədən, hər işıqlı səhərdən.
Qələbə qismət elə, Tanrım, Azərbaycana.

ALİ BAŞ KOMANDANIM

Mənim doğma yurdumda bu hayların nə işi,
İçimdəki bu dərdlə haçanacan utanım?
Dönüm sənin başına, dayandırma atəşi,
Şərəfi olmayanla sülh olmaz, Komandanım.

Ürəklərdə nalədi, qulaqlarda top səsi,
Qaramat zindan idi azad olan ruhumuz.
İndi-indi düzəlir belimizin əyrisi,
İçimizdə boy verib dikəlir qürurumuz.

Könlüm toxdu özgənin torpağında gözüm yox,
Tanrıdan gələn payım beş-üç səslə dəyişməz.
Belə bir atəşkəsə vallah indi lüzum yox,
Donuzun donuzluğu atəşkəslə dəyişməz.

Otuz ildi ah-vayla keçib dəqiqəm, anım,
Düşünmüşəm hər kəsin Tanrıdan qisməti var.
Bu tayfaya inanma, Ali Baş Komandanım,
İçində gəzdirdiyi erməni xisləti var.

Səs salıbdı dünyaya yazıq-yazıq səsi ilə,
Türkiyədi, yağdırır başıma dron deyir.
Əl açır liderlərə, həminki hiyləsilə,
Gah Trampa yalvarır, gah da ki Makron deyir.

Bir dağın zirvəsində dönüm vətən daşına,
Torpağımı bəzəsin mənim də şəhid qanım.
Dayandırma atəşi, dönüm sənin başına,
Qələbə müjdəsi ver, Ali Baş Komandanım.

DEYİR

Otuz ildi çəkirik görünməmiş zilləti,
Üstümüzdən götürdü Ali insan töhməti,
Milləti bilinməyən ermənіyə nifrəti,
Səngərdəki əsgərin gözlərində qan deyir.

Üstümüzə gəlsə də dörd tərəfdən yağılar,
Silah ilə yanaşı yollar cızır ağıllar,
Yetişib neçə-neçə Polad kimi oğullar,
Qurban olsun Vətənə ürək deyir, can deyir.

Çıxar ey köynəyindən, aşıq, köklə sazını,
Toya, şənliyə döndər bu millətin yasını,
Vətən yolunda gedən şəhidin laylasını,
Çiçək üstə şəbnəmə qızaranda dan deyir.

İndi qaçan görürük meydan sulayanları,
Yağış kimi süzülür Qarabağda qanları,
Qovduq iti qovantək, daban yalayanları,
Azərbaycan xalqına Ali Komandan deyir.

13 avqust 2022-ci il



Zəngilanda dalğalanan bayraq



Ali Baş Komandan İlham Əliyev Zəngilan şəhərində üçrəngli bayrağımızı ucaldarkən



Zəngilan Beynəlxalq Hava Limanının açılışı



Zəngilan Beynəlxalq Hava Limanı



Ağcabədi Bayraq Muzeyinin binası



Ağcabədi Bayraq Muzeyinin içdən görünüşü



OKTAY ABDULLA

VƏTƏN

Vallah, bir dünyaya dəyişmərəm mən,
Qanımda təpərim, qeyrətdi, Vətən!
Bu sonsuz kainat, günəşim odur,
Başımın tacıdı, şöhrətdi, Vətən!

Axtarsan dünyada gözəl-göyçəyi,
Hər yandan qoxuyan gülü, çiçəyi.
Sözümün gövhəri budur gerçəyi,
Tükənməz arzular, istəkdi Vətən.

İblistək, şeytantək ara qatanlar,
Alçaqlıq gətirər Vətən satanlar.
Bir görün nə demiş müdrik atalar,
Laləzar, gülüstan, cənnətdi, Vətən!

Xəta var qəfildən qaçılmaz olur,
Qala var, səngər var, alınmaz olur.
Vətəni sevəndə basılmaz olur,
İlahi qüdrətdi, heyrətdi, Vətən!

Keçər günortadan düşər kölgələr,
Azman meşələri sərinlik ələr.
Büllur bulaqları şeirimə gələr,
Şəkərim, şirinim, şərbətdi, Vətən.

O böyük Yaradan sahmana salmış,
Çox şair söz deyib xəyala dalmış.
Vaqifin, Vurğunun ruhuna alqış,
İnsanlıq dünyası, məktəbdi Vətən!

Dərd tüğyan eylədi, şəmində oldum,
Tapılmır çarələr, qəmində oldum.
Fikrimin qatarı cəmində oldum,
İrəvan, Ərdəbil, Dərbənddi Vətən!

Əzəlin kim idi, sonun kim oldu?
Ətirli bağçalar, güllərin soldu.
Ah, necə sızladım, gözlərim doldu,
Qəlbimi həsrətin göynətdi, Vətən!

Çörəyi, neməti, süfrəsi boldu,
Döyüşən əsgəri qəhrəman oldu.
Şəhidlik zirvəsi Tanrıya yoldu,
Ata nəsihəti, hikmətdi Vətən!

Düşmənin, yağının səsini kəsəm!
Yarımçıq olmaqdan uzağam, pəsəm.
Biləsən mən səni bütöv görməsəm,
Qəbrim də torpaqda qürbətdi, Vətən!

Ağrımız, acımız olmasın gərək,
Diləyim, istəyim çox həzin, kövrək.
İnsanlar, torpağı, bu xalqı sevək,
Hər daşın ruhumu titrətdi, Vətən!

Kamalım, düşüncəm, yanıltmaz zəndim,
Vətəndir qürurum, o kiçik kəndim!
Mən zirvələr qalxdım, zirvələr endim,
Oktaya sevməyi öyrətdi, Vətən!

2017

AZƏRBAYCAN BAYRAĞI

Düz yoldasan, doğrusan,
Yanındayam, çağırsan.
Sən xalqımın uğrusan,
Azərbaycan bayrağı!

Qanadımsan, qolumsan,
Haqqa gedən yolusan.
Ululardan ulusan,
Azərbaycan bayrağı!

Sənə qurban canımız!
Halalındı qanımız.
Hamımızsan, hamımız,
Azərbaycan bayrağı!

Ayın solmaz bədrisən,
Yerin, göyün ətrisən.
Haqqın qızıl sətrisən,
Azərbaycan bayrağı!

Ey ruhumdan güc alan!
Düşmənimdən bac alan.
Xankəndidə dalğalan,
Azərbaycan bayrağı!

4 noyabr 2017-ci il



SƏDAQƏT ƏHMƏDOVA

AZƏRBAYCAN

Od ürəkli, od nəfəsli diyarımsan,
Ocağına canım qurban, Azərbaycan!
Əzilsən də, əyilməyən vüqarımsan,
Bu cağına canım qurban, Azərbaycan!
Savaşlardan alnıaçıq çıxan zaman
Tarixlərə bağışladın neçə qurban.
Hər qonşuda bir parçası əsir qalan
Torpağına canım qurban, Azərbaycan!
Neçə gizli sərvət yatır qucağında,
Neçə ölkə od aparır ocağından,
Azadlığın al rəmzi var bayrağında,
Bayrağına canım qurban, Azərbaycan!
Hər uğurun gələcəyə bir yol açır,
Hər dost elə xoş niyyətin işıq saçır.
Hər millətə, hər məzhəbə isti, açıq
Qucağına canım qurban, Azərbaycan!
Başım ustdə məğrur-məğrur dalğalanan
Bayrağına canım qurban, Azərbaycan!
Ruhuma büt, cismim üçün vətən olan
Torpağına canım qurban, Azərbaycan!

VƏTƏN SAĞ OLSUN

Millətimiz yenə versin əl-ələ,
Viran ellər gül-çiçəkli bağ olsun.
Açılmasın od nəfəsli güllələr,
Bu torpağın yaraları sağalsın,
Yenə Vətən sağ olsun!

Biz bir olduq, yumruq olduq, dayandıq,
Hər gün, hər an qələbəyə inandıq.
Hər qarışı şəhid verib qazandıq!
Məğlub düşmən öz kinində boğulsun!
Yenə Vətən sağ olsun!

Dastan yazdı Azərbaycan əsgəri,
Heyran qoydu yaxın, uzaq elləri,
Tarixlərə həkk olundu hünəri -
Ordumuzun daim üzü ağ olsun!
Yenə Vətən sağ olsun!

Biz gözü tox, qəlbi geniş millətik,
Zəfər çalıb sülhü seçmiş millətik,
Vətən üçün candan keçmiş millətik -
Başımız dik, vüqarımız dağ olsun,
Yenə Vətən sağ olsun!

İyul 2021



Zəfər paradı. 7 noyabr 2020-ci il



ƏHMƏD QƏŞƏMOĞLU

AZƏRBAYCAN BAYRAĞI

Gözlərin mənə deyir ki,
Sənsən o sirdən gələnim...

Bir baxın, səmaya necə yaraşır
Bayraqlar içində mənim bayrağım.
Qəlbim kainata köklənib hər vaxt,
Ulu tarixlərdən gəlir sorağım.

Ruhum türk ruhudur! – deyir bu bayraq,
Tarixin ən ulu memarı türkdü.
Hər vaxt ürəklərdə, bu yer üzündə
Ədalət, igidlik qalası tikdi.

Dövran mənim doğmam! – deyir bu bayraq,
Nurundan nur aldım, ona nur verdim.
Üstümə yol aldı naşı yağılar,
Qorxmam, hünərimlə qorunar yurdum!

Dinim islam dini! – deyir bu bayraq,
Nizama səsləyir o, yer üzünü,
Dərindən arasan, orda taparsan,
Hər işdə ən doğru yolun düzünü.

Gör necə möhtəşəm dayaqlarım var!
Xeyir-dua verir Ay ilə ulduz.
Ulduz səkkiz guşə – qeyb ilə yerin
Ahəngi rəmzidi, Ay – şərq, gülərüz.


Müqəddəs torpaqdı mənim torpağım,
Yer üzü bir varlıq, ürəyi burda.
Dil açıb danışır mənim bayrağım,
Sonsuz nurlu məna gizlənib orda.

Bir baxın, səmaya necə yaraşır
Bayraqlar içində mənim bayrağım.
Qəlbim kainata köklənib hər vaxt,
Ulu tarixlərdən gəlir sorağım.

2 mart 2019-cu il



Üçrəngli bayrağımız Dənizkənarı bulvarda



İSLAM SADIQ

TÜRKÜN BAYRAĞI

Dedilər ki, Rauf Denktaş Quzey Kıbrısda bir dağın üstünə çəkilmiş türk bayrağı gecələr də görünsün deyə, dağa işıq çəkdirib.

Boyası göydəndi, parçası yerdən.
Hamıya bir gözlə baxır bu bayraq.
Xain baxanların gözünü hərdən
Yandırır bu bayraq, yaxır bu bayraq.

Bayraq özü boyda güldü elə bil,
Bir türk sevgisindən gül açıb dağ da.
Mənim gəldiyimi bildi elə bil,
Mən türkəm söylədi dil açıb dağ da.

Durmuşam uzaqda, baxıram gendən,
Doldurur qəlbimi bir sevinc, qürur.
Ya bu bayraq tutub dağın əlindən,
Ya bu dağ bayrağa söykənib durur.

Bir səs qulağıma deyir ki, kiri.
Türküyə, qulaq as, yerin dilində.
Elə bil dağ deyil, bir türk əsgəri
Türkün bayrağını tutub əlində.

Köksünün başından asıb bayrağı,
Türkün öz dağıyam deyir düşmana.
Körpətək bağrına basıb bayrağı.
Mən bir göz dağıyam deyir düşmana.

3 dekabr 2011-ci il

Kıbrıs. Lefkoşa



Quzey Kıbrısda bir dağın üstünə çəkilmiş türk bayrağı



Komando təlimləri zamanı Türkiyə və Azərbaycan əsgərləri



ƏSMƏT MƏHSƏTİ

DALĞALAN, BAYRAĞIM,
UCAL, BAYRAĞIM!

Üçrəngli bayrağım biz səni seçdik,
Uğrunda vuruşduq, odlardan keçdik.
Önündə diz çöküb, öpüb and içdik,
Vətən torpağından güc al, bayrağım,
Dalğalan, bayrağım, ucal, bayrağım!

Yüksələn bayrağım bir daha enməz,
Azadlıq günəşim bir daha sönməz.
Bu haqqın yolundan millətim dönməz.
Vətən torpağından güc al, bayrağım,
Dalğalan, bayrağım, ucal, bayrağım!

Himnim, gerbim, dilim, bir də bayrağım,
Millətlər içində mənim varlığım,
Sizsiz azadlığım, bəxtiyarlığım.
Vətən torpağından güc al, bayrağım,
Dalğalan, bayrağım, ucal, bayrağım!

Hər vaxt başım üstdə, hər vaxt öndəsən,
Əngin səmalardan heç vaxt enmə sən!

Zəfər yürüşümdə öndə gedənsən,
Vətən torpağından güc al, bayrağım,
Dalğalan, bayrağım, ucal, bayrağım!

Rəngində azadlıq ünvanı vardır,
Ölməz şəhidlərin al qanı vardır,
İslamın müqəddəs nişanı vardır,
Vətən torpağından güc al, bayrağım,
Dalğalan, bayrağım, ucal, bayrağım!

3 oktyabr 2020-ci il



Sabirabad Bayraq Muzeyinin binası



Sabirabad Bayraq Muzeyinin içdən görünüşü



SEVİNC NURUQIZI

QALADAKI BAYRAĞIM

Qaladakı bayrağım
Göyə necə yaxınsan...
Qorxma, buludlar tutar
Həyəcandan yıxılsan…

Dəniz səviyyəsindən
Yaman uzaqlaşmısan…
Şuşayla qol-boyunsan
Rəbblə qucaqlaşmısan...

Bu hündürlük illərin
Xəyalıydı, deyilmi…
Qulağına ruhların
Pıçıltısı dəyirmi?!

Süzürmü göy üzündə
Qartalları Şuşanın…
Sənlə açılıbdır
Qandalları Şuşanın…

Sinəndəki qırmızı
Şəhid qanıdı, bayraq...
Bu Qala üstdə dünya
Səni tanıdı, bayraq!

Qaladakı bayrağım,
Qalan mübarək olsun!
Səni sinəsi üstə
Alan, mübarək olsun!

Göydən yerə baxanda
Əzmin dağı parçalar!
Şuşa dağ başında yurd,
Yurdda bayraq uçalar!

20 dekabr 2020



Qarabağ atları Londonda keçirilən Olimpiya Beynəlxalq Atçılıq Şousunda



ƏYYUB QİYAS

ÜÇRƏNGLİ BAYRAQ KİMİ

Ümummilli liderdir.
Azadlıq bayrağıdır.
Düşmənə sinə dağı,
Dosta sülh çırağıdır!

Körpələrin sevinci,
Kimsəsizin hamisi.
Müstəqil ölkəmizin
Qurucusu, banisi.

Həm sərkərdə, həm İNSAN,
Həm qılıncdır, həm qələm.
Sözündə-söhbətində
Ziya dolu bir aləm.

Üçrəngli bayraq kimi
Məğrur-məğrur canlanır.
Təpədən dırnağadək
Vətən eşqiylə yanır.

Şəninə nəğmə dedi
Saz da, kaman da, tar da.
Məlahətlə oxundu
"Şur" da, "Rast" da, "Qatar" da.

Tanrı şah əsərini
Yazanda "Heydər!" yazdı.
"Müstəqil Azərbaycan!"
Onu da Heydər yazdı.

Müdrik insan, sərkərdə
Tanrısından güc aldı.
Cahan boyu boy atdı,
And yerinə ucaldı.

Əbədi yanan çıraq,
Ən ali insan oldu.
Əfsanəvi qəhrəman,
Tarixi dastan oldu.

Gecə-gündüz çalışdı,
Sinə gərdi çətinə.
İşıqlı yol yaratdı,
Xalqına, millətinə.

Öz əliylə oyatdı
Xalqın qan yaddaşını.
Min il bundan sonranın
Qoydu təməl daşını.

Tanrı yazan taleyi
Şərəflə başa vurdu.
Ürəklərdə, qəlblərdə
Böyük abidə qurdu.

Hələ sona yetməmiş
Əməli, sözü qaldı.
Tarixin yaddaşında,
Silinməz izi qaldı.

Günəş kimi parlayan
Amalları yaşayır.
Vətənin taleyini
Gələcəyə daşıyır.

Müstəqil Vətənimiz –
İşıqlı, nurlu sabah.
Onu Heydər yaratdı!
Sabaha İLHAMLA bax!

BAYRAQ

Dalğalan! Şanlı zəfər nitqi kimi ərşə yayıl!
Oyan, ey dünya, oyan! Onu gör, sən də ayıl!
Şəhid olsam, yemə qəm, gəl məzarım üstə qoyul!
Sənin uğrunda ölərsəm, mənə xoşdur, mənə xoş,
Kükrə ümman kimi, nəhr ol ləpələn, daima coş.
Türkün qanı hopmuşdur onun rənginə, dur bir bax,
Sellər kimi daş, göy kimi coş, şimşək kimi çax,
Uca ol, enmə yerindən, düşmənin bağrını yax!
Yolumu gözləyir amma hələ bir şanlı savaş,
Hələ uğrunda gedəcəkdir neçə can, gör neçə baş.

Minillik bir yolu vardır bu Vətən torpağının,
Ümmanı, bozqırı vardır bu Vətən torpağının.
Hürrü var, özgürü vardır bu Vətən torpağının!
Adı Türk, ünvanı İslam, başı üstündə də sancaq,
Südünü Qurddan əmən Hürr olacaqdır ancaq!

Önündə diz çökənin, baş əyənin var olsun,
Səni sevməz biri varsa, bu cahan dar olsun,
Duamı sonda deyim... Rəbbim sənə yar olsun!
Rənginin hər çaları, hər üzü göydən gəlmiş.
Daha enməz ucalıqdan, çün bir kərə yüksəlmiş!

26 may 2018-ci il



Prezident İlham Əliyev hərbi hissədə



ELNUR UĞUR

ALİ BAŞ KOMANDAN

Əzminlə tarixi yaz sən yenidən,
Ali Baş Komandan, şanlı sərkərdə!
Vətən məhəbbəti qığılcımlanıb,
Saçır şöləsini hər bir əsgərdə.

Vur əmrin dur əmri əvəz etməsin,
Haqqün axan qanlar hədər getməsin.
Eybi yox, sonadək savaş bitməsin,
Düşmən ömrü bitsin qanlı səngərdə.

İllərdir Laçında duman, sis dərin,
Şuşada həsrət – o lənət hiss dərin.
Bu gün hər vətəndaş sadiq əsgərin,
Ali Baş Komandan, şanlı sərkərdə!

24 oktyabr 2020-ci il



Naxçıvan Döyüş Şöhrəti Muzeyi

AZƏRBAYCAN BAYRAĞI

Səni qandan yoğurdu
Uğrunda can verənlər.
Yurdu torpaq edən yox,
Torpağı yurd edənlər.

Namusumun hicabı,
Əqidəmin sancağı,
Tariximin yaşıdı,
Azərbaycan Bayrağı!

Dalğalan başım üstə,
Azadlığım şirindir.
Hara ki kölgən düşür,
Müqəddəs and yerimdir.

Vətən üfüqlərində,
Ləpələnsin bu üç rəng.
Səmandan nur ələsin,
Ay - Ulduz, öpüşərək.

Türk elləri salamlar,
Üzündə xoş növrağı.
Türklüyümün sübutu,
Azərbaycan Bayrağı!

SƏN QALİB OLACAQSAN!

Sayəndə taxt da qurdum,
Başı dik şanlı ordum!
Yurdumda qərib yurdum,
Sən qalib olacaqsan!
Gün saçacaq qışın da,
Gül açacaq daşın da.
Bu zəfər savaşında,
Sən qalib olacaqsan!
Ey eşqə təşnəm mənim,
Eşqi susadıb gəlim.
Odlar yurdum Vətənim,
Sən qalib olacaqsan!

24 oktyabr 2020-ci il

AZƏRBAYCAN BAYRAĞI

Şəhidlərin qanından yoğrulmusan, halalım.
Gündüzlər al günəşim, gecələrsə hilalım.
Azadlıq xəzinəmə sənsən cahım-cəlalım.
Namusumun örpəyi, ismətimin duvağı,
Azərbaycan bayrağı!

Hər rəngində bir ülfət doğur bəşərə eşqi,
Dalğalan, dalğalansın qoy göyün yerə eşqi.
Kölgəndə işıq saçır yurdun zəfərə eşqi,
Ey zülmətin bağrını yaran haqqın çırağı.
Azərbaycan bayrağı!

Bir çətirtək açıldın Vətənin göylərində.
Kölgəndə yaşıllaşdı dağım, dərələrim də.
Öpür Ay ulduzumu qırmızı dan yerində.
Varlığımın varlığı, sabahımın növrağı,
Azərbaycan bayrağı!

Yaşılın əbədiyyət, həyatın aynasısan,
Göy rəngin bəşərilik, sən eşqin anasısan.
Səmalardan enmisən, yurdumun səmasısan,
Sən ey söz yağışımın üçrəngli göy qurşağı,
Azərbaycan bayrağı!

Daima şux dayan sən bizim ön cərgəmizdə,
Sənə baxıb güc alaq, dərs alsın dünya bizdən.
Hər dalğası kişnər at həyat adlı dənizdə.
İnamımın yelkəni, əqidəmin sancağı,
Azərbaycan bayrağı!

29 yanvar 2022-ci il

ŞƏHİD ATASI

Kişilər ağlamaz axı,
Ağlama, şəhid atası!
Göz yaşından Vətən axır,
Ağlama, şəhid atası!

Əyilmə, qaldır başını,
Göylərə sil göz yaşını.
Daş elə Vətən daşını,
Ağlama, şəhid atası!

O tək sənin oğlun deyil,
Onu Vətənin oğlu bil!
Fəxr elə, qəbrinə əyil,
Ağlama, şəhid atası!

Dağ qaldırmaz oğul dağın,
Kəsilib bağdan göy tağın.
Qurbanıyıq bu torpağın.
Ağlama, şəhid atası

O məzar xalqın and yeri,
Alt diri, üstü diri.
Sən də and içənlərin biri,
Ağlama, şəhid atası!

24 oktyabr 2020-ci il

ZƏFƏRİN MÜBARƏK

Nə böyük səadət, nə böyük eşqdi?
Oğullar yolunda canından keçdi.
Qarabağ azadlıq şərbətin içdi,
Tarixə yazıldı bu eşq dastanım.
Zəfərin mübarək, Azərbaycanım!

Uğrunda oğullar verdilər ki, can
Təki yaşayasan, can, Azərbaycan!
Xoşbəxtəm dadıram azadlığından.
Hər şəhid sevdası canımda canım.
Zəfərin mübarək, Azərbaycanım!

Səmanda keşikçi üçrəngli bayraq.
Gülür gələcəklə nə gözəl növraq.
Şəhid qanlarıyla yoğrulan torpaq,
Kəbəm, müqəddəsim, ən xoş ünvanım.
Zəfərin mübarək. Azərbaycanım!

Samidlər diyarı, Camallar yurdu,
Hər qazin, şəhidin biri bir ordu.
Axan qanlar üstə Vətən dik durdu,
Ey mənim yenilməz şərəfim, şanım
Zəfərin mübarək. Azərbaycanım!

Ali Baş Komandan verdi "vur!" əmrin.
Ha dünya hər yerdən versin dur əmrin.
Ordumuz göstərdi yurdumun əzmin.
Güldü bulud örtmüş Gün üzlü danım.
Zəfərin mübarək, Azərbaycanım!

29 yanvar 2022-ci il



Paytaxt Bakıda qələbə sevinci



Ağdamda şəhidlərin xatirəsinə tikilən abidə-bulaq



Məktəblilər şəhidlər bulağının açılışında. Salyan



ŞÖVKƏT ZƏRİN HOROVLU

ƏBƏDİ BAYRAQ KİMİ

Məni Qarabağımın həyatından
Süpürüb atdılar,
Yurdumda yadlar, torpağa haqsızlar
At oynatdılar,
Anamın laylasını, nənəmin duasını
Oğurladılar.
Gözlərimdən Araz-Araz
Dərd sağıldı,
Günahsız körpələr Xocalı doldağının
Acı tüstüsündə boğuldu.
Ümid ağacında lülə-lülə
Güllər bitdi,
Torpağıma mərmilər əkildi,
Babamın ruhu Şuşada dara çəkildi.
Qoca nər,
Yenilməz ər Qarabağımın
Dizləri büküldü.
Amma ayağa qalxacaq,
Qılınca sarılacaq haqq kimi,
Göylərə sancılacaq,
Əbədi bayraq kimi.

***

Azadlığımı yığmışam
nənəmin toxuduğu,
ilmələrinə dualar oxuduğu
ikigözlü naxışlı xurcununa,
Atmışam çiynimə.
Qoymaram bir də düşə, enə,
Dərdi təzələnə, dinə
Bükəcəm bayrağımın maviliyinə,
Öyünəcəm əyilməzliyinə, əbədiliyinə.
Vermərəm daha şimaldan gələn,
Ətəyimə yamaq-yamaq tikilən
Qırmızı don geyinə.
Məlhəm kimi Arazdan ötürəcəm
Ölüm ayağında olan Urmu gölünə,
Təbrizə, Rəşdə, Ərdəbilə.
Gözləri yol çəkən əcəm ellərinə.

***

Uzaq, yaxın qitələr
Böyük, kiçik ölkələr çəkir məni,
Uşaqlığımda olduğu kimi.
Xəyalən qucaqlamaq istəyirəm bütün aləmi.
Uçan sehirli xalçada
Dənizlərin, okeanların üstündən adlayıb
Yer üzünü qarış-qarış gəzmək həvəsim səngimir,
Qəmi-sevinci, xeyri-şəri ilə
bütün insanları sevmək həvəsim ovunub kirimir,
Sevgi sərhəd bilmir.
Sevgimi insanlarla bölmək istəyirəm,
Sonda doğma yuvamda,
əzəli, əbədi dünyamda
ölmək istəyirəm.

***

Payız yarpağı kimi
Ömür tökülür,
İllər, aylar günbəgün qeybə çəkilir.
Payız duruşumdan, baxışımdan yağır.
Bakirə arzularım köçəri quşlar kimi
Ürəyimdən uçur qərib-qərib, çəkilir,
Ürəyim qışda eyvanımızdan
Lülə-lülə asılan buz parçasına dönür.
Nə atam var, nə anam,
Qızınmağa qucaq axtarıram.
Ayaqlarımın yuxusuna girir
Gəldiyim kənd yolları,
Anamın həsrət qolları, isti qucağı,
Onun da indi mərmi, güllə ilə
Yanır ocağı.
Ümiddən asılmışam
Hörümçək sayağı.
Xəzri küləyi dadıma çatır,
Məni xırç... xırç xışlayır torpağa qatır.
Bakımın da həyatından
Süpürüb Xəzərə atır.

***

Heç kim, heç nə məni ovutmur,
Ümidi yalın,
Dərdə yanar dağ ürəyimi
Heç nə soyutmur.
Məni kim ovudacaq?
Nə bahar küləyi, nə qar çiçəyi,
Nə payız nağılları açır ürəyimi,
Kim verəcək diləyimi?
Özüm od qızıyam,
Oddur ilkim, əzəlim,
Oddan tökülüb təməlim.
Yana-yana od olub,
boyat nisgillərim
aram olmur bir hovur,
sinəmdə çatıb ocaq,

Yaşıl ümidlərimi, çəmən-çəmən arzularımı
İlğıma dönüb cınqır-cınqır qovurur.
Onu kim söndürəcək?
Həsrətim çox uzaq,
Ağrılarım oyaq
Məni kim ovudacaq?
Kim ovudacaq?

***

Bir payız şeiri yazdım bu axşam,
Sapsarı misralar düzüldü bir-bir.
Payız sükutunda azdım bu axşam,
Payız ovqatına bələndi ömür.

Bir həsrət kövrəltdi şairliyimi,
Qələm söz dililə dərdi ağladı.
Tale sevincimi haram buyurub,
Ağrımı canımda gizli saxladı.

Hələ həsrətimdən boylanır zamana,
Ruh öz dünyasına yollar axtarır.
Dərdim nə xoşbəxtdir, Tanrım, bu axşam,
Gözümdən süzməyə sellər axtarır.

Bu payız şeirimin gözü mürgülü,
Həsrəti upuzun, ağrısı oyaq.
Boyat ağrılarım ömür çəkili,
Bu çiyin yükümü kim daşıyacaq?

6 yanvar 2016-cı il

BAYRAQ BİTİRİB

Yenə ürəyimin qubar vaxtıdır,
Yenə gözlərimdən payız tökülür.
Payız duyğularım kövrəlib deyə,
Köhnə həsrətimdən qəlbim sökülür.
Göylərin qəmini çəkən yağışım,
Elə bil mənimlə söz-söhbəti var.
Tələsmə, yağışım, bu yolun neçə –
Qatı açılmamış hekayəti var.

Dünyanı gəzirsən qəmsiz, kədərsiz,
Hardan biləsən ki, nələr çəkmişəm.
Həsrəti kiridib ovutmaq üçün
Şeirimə bürünüb gecələmişəm.
Gəl köhnə dost kimi duraq üz-üzə,
Yaddaş boğçamızı açaq, danışaq.
Kələfi açılan bu uzun yolun
Könlünü şeirlə alaq, barışaq.

Bir şeir oxuyaq yağış dilində,
Küsən o kənd bizi bəlkə tanıdı.
Asta keç yanından, burda hər daşın
Üstündə gül açan Şəhid qanıdı.

Burda hər ağacın qan yaddaşı var,
Barıt qoxuludu gül də, çiçək də.
Dindirsən insantək sənlə danışar,
Burda yağan qar da, əsən külək də.

Burda vətənləşən Vətən oğullar
İtən haqqı alıb bizə yetirib.
Eynəsi açılan dağlarımızın
Döşündə üçrəngli bayraq bitirib.



İBRAHİM İLYASLI

ZƏFƏR MARŞI

Ayağını yerə bir az da bərk vur,
Başını bir az da uca tut, əsgər!
Sən başdan ayağa qürursan, qürur,
Sən ey komutanı Tanrıkut əsgər!
Göylər zəfərinə maşallah deyir,
Yerlərdə baqisən, inşallah, deyir!

Sən Tanrıdağından qopan ərənsən,
Qanı bozkırlara hopan ərənsən.
Şuşa qalasında diş-dırnağıyla
Yağını aslantək qapan ərənsən.
Göylər zəfərinə maşallah deyir,
Yerlərdə baqisən, inşallah, deyir!

Zəfəri Haqq sənə halal buyurub,
Ulduzun üstünə hilal buyurub.
"Bismillah"! deməyə dil verib sənə,
Deyincə, düşmənə zaval buyurub.
Göylər zəfərinə maşallah deyir,
Yerlərdə baqisən, inşallah, deyir!

Orduya dönüşə, el səni yenməz,
Min irmaq yığıla, sel səni yenməz.
Səni yenmək üçün yaradıb Allah,
Özündən savayı əl səni yenməz!
Göylər zəfərinə maşallah deyir,
Yerlərdə baqisən, inşallah, deyir!

Ayağını yerə bir az da bərk vur,
Başını bir az da uca tut, əsgər.
Bəşərin xilası səni gözləyir,
Ey Haqqın ordusu, Tanrıqut əsgər!
Göylər zəfərinə maşallah deyir,
Yerlərdə baqisən, inşallah deyir!

QARŞINIZDA BİR ÖMÜR SAYQI DURUŞUNDAYIZ

Vətən sizə can dedi, Vətənə can verdiniz,
Damarları təpimiş torpağa qan verdiniz.
Otuz il otuz yerdən yaraları çatlayan,
Millətə qırx dörd gündə şəfayla şan verdiniz!
Adınızla tarixə möhürləndi bu payız,
Qarşınızda bir ömür sayqı duruşundayız!

Bir çağırışı bəs etdi Ali Baş Komandanın,
Yüz illərə tən oldu – hökmünə bax bir anın?!
Vahimədən yağılar pərən-pərən oldular,
Haləsi böyüdükcə çəkdiyiniz hilalın.
Adınızla tarixə möhürləndi bu payız,
Qarşınızda bir ömür sayqı duruşundayız!

Belə Vətən savaşı yer üzü görməmişdi,
Nə dağı, nə dərəsi, nə düzü görməmişdi...
Bu xalq on min doqquz yüz əlli gecə yaşayıb,
On min doqquz yüz əlli gündüzü görməmişdi.
Adınızla tarixə möhürləndi bu payız,
Qarşınızda bir ömür sayqı duruşundayız!

Xan Araz Sizi görcək qəhərlənib ağladı,
Köhlən Xudafərinin şahə qalxdı tağları.
O taydan bir ün qopdu, yer-göy lərzəyə gəldi,
Bu tayda ucalınca sənin zəfər bayrağın!
Adınızla tarixə möhürləndi bu payız,
Qarşınızda bir ömür sayqı duruşundayız!

Azğın düşmənlərinə çoxları çıxdı yiyə,
Avropa diş qıcadı, Asiya getdi küyə...
Ancaq birə-beş artdı gücünüz, qüdrətiniz,
"Hər zaman yanındayız!" – hayqırınca Türkiyə.
Adınızla tarixə möhürləndi bu payız,
Qarşınızda bir ömür sayqı duruşundayız!

Nərənizdən Şuşada qaya qopdu, daş yandı,
O gün qaş qaralmadı, qaralacaq qaş yandı.
Dəmir yumruğunuzun zərbindən yer titrədi,
Odlu nəfəsinizdən düşmən başa-baş yandı!
Adınızla tarixə möhürləndi bu payız,
Qarşınızda bir ömür sayqı duruşundayız!

Ruhlar səltənətində ucalıqlar sizindi,
Uca başlar sizindi - uca dağlar sizindi.
Başqa yerdə gəzməsin haqqı haqq arayanlar,
Məmləkətdə haqq olan bütün haqlar sizindi.
Adınızla tarixə möhürləndi bu payız,
Qarşınızda bir ömür sayqı duruşundayız!

Ürəyim parçalansın, üzüm ağ olsun! – dedi
Heç nəyimiz olmasın, Qarabağ olsun! – dedi.
Bundan böyük ibadət görünməyib cahanda –
Şəhid doğan analar: "Vətən sağ olsun!" – dedi.
Adınızla tarixə möhürləndi bu payız,
Qarşınızda bir ömür sayqı duruşundayız!

Azərbaycan adını sinənizdən asdınız,
Yeni tarix yaradıb, yeni dastan yazdınız.
Qazi hüzurlarıdır daha səcdə yerimiz,
Şəhid məzarlarıdır ən müqəddəs andımız.
Adınızla tarixə möhürləndi bu payız,
Qarşınızda bir ömür sayqı duruşundayız!



Zəfər paradı



NƏZAKƏT MƏMMƏDOVA

ŞƏHİD ZİRVƏSİ

Göyləri titrədir ahı-naləsi,
Ana layla deyir qəbir daşına.
Hər gün qucaqlayıb soyuq məzarı,
Sanki gəlib keçir beşik başına,
Həzin layla çalır qəbir daşına.

Oğullar içində gəzir oğlunu,
Güc verir gözünün həsrət yaşına.
O qədər sözü var, kimə desin ki,
Dərdini söyləyir məzar daşına,
Ana sığal çəkir qəbir daşına.

Gündə bir arzusun söyləyir ona:
Axı heç keçmədin bəy otağına.
Xonçanı tutmadım, xına yaxmadım
Gülüzlü gəlinimin əl-ayağına.
Ana layla deyir şəhid oğluna.

Göylərə yalvarır: məni də apar,
Sözümü deməyə çatım taxtına.
Göylərdən səs gəlir: sənin oğlunun
Şəhid ucalığı düşüb baxtına.
Ana layla deyir şəhid oğluna.

Oğlunun qəbrinin üstünə gedən,
Ananın harayı, dərdin səsidir.
Tanrı dərgahında uca sayılan,
Oğlunun yetdiyi şəhid zirvəsi,
Ananın yeganə təsəllisidir.

ŞƏHİDİM

Yaman narahatdır ruhun, bilirəm,
Durur qisas günün hələ, şəhidim.
Torpaq qan içində, düşmən əlində,
Dağın göz dağıdır elə, şəhidim.

Yalana dönübdü mənim gerçəyim,
Solub düymə-düymə gülüm-çiçəyim.
Analar açmayıb qara ləçəyin,
Göz yaşı dönübdür selə, şəhidim.

Yolu yox Vətənə aparan yolun,
Şikəstəm, sınıbdır qanadım-qolum.
Didərgin ruhunun qurbanı olum,
Məni də kəfənə bələ, şəhidim.

Sənə "söz vermək"dən sözüm qaralıb,
Xəcalət çəkməkdən üzüm qaralıb.
Qisas qiyamətə dirənib qalıb,
Ağırdı çiynimdə şələ, şəhidim.

Nə qədər ağrın var, ağrınla varam,
Yaramdı köksünün altdakı yaran.
Sən göydən enəsən, mən burdan duram,
Gələ zəfər günü, gələ, şəhidim.



ŞƏHİD XUDAYAR YUSİFZADƏ

Bu gün şəhid gizir Xudayar Yusifzadənin adı dillərdə əzbərdir. Xudayar Müslüm oğlu Yusifzadə 15 iyul 1998-ci ildə Bərdə şəhərində anadan olmuşdur. Atasını çox erkən yaşda itirən Xudayar Bərdə şəhərində Bülbül adına 1 nömrəli Uşaq incəsənət məktəbində təhsil almışdır. Xudayar Yusifzadə 2016–2018-ci illərdə Dövlət Təhlükəsizliyi Xidmətinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olmuşdur. Hərbi xidmətini başa vurduqdan sonra Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının sıralarında xidmət etmişdir. 2020-ci ildə Tovuz hadisələrindən sonra könüllü olaraq orduya yazılmışdır. 44 günlük Vətən müharibəsində vuruşmuşdur. Xudayar Yusifzadə 15 dekabr 2020-ci ildə Zəngilan uğrunda gedən döyüşlər zamanı Ağbənd qəsəbəsi yaxınlığında şəhid olmuşdur. O, ölümündən sonra "Azərbaycan bayrağı" ordeni, "Vətən uğrunda", "Zəngilanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Şəhid Xudayarı bütün Azərbaycanda məşhurlaşdıran isə ölümündən 2 gün əvvəl, 20 oktyabrda döyüş zamanı Xalq artisti Əlibaba Məmmədovun qəzəlxan Əliağa Vahidin sözlərinə bəstələdiyi "Vətən yaxşıdır" mahnısını oxuyaraq telefon vasitəsi ilə lentə aldığı ifası olmuşdur. Bu gün həmin mahnı Əlibaba Məmmədovun öz istəyi ilə "Xudayar təsnifi" adlanır. Bu yerdə xəyalınıza qanad verin, 22 yaşlı şəhid Xudayar Yusifzadənin gülümsər çöhrəsini gözləriniz önünə gətirib, onun yaddaşınıza köçən nəğməli səsini dinləyin..

XUDAYAR TƏSNİFİ

(Şəhid Xudayarın son nəğməsi)

Dumanlı dağların başında durdum,
Dumandan özümə bir xeymə qurdum,
Keçdi xəyalımdan öz gözəl yurdum,
Dumanlar içində duman görünür.

Xəzər dəniztək eşqimlə coşdum,
Xülyalar içində sanki bihuşdum,
Vətən arzusuyla nəğmələr qoşdum,
Tufanlar gözümdə dastan görünür.

Könüllər cəlb edən bu xoş mənzərə
Şövqümü artırdı şeirə, qəzələ,
Çatdıqca vətənim, elim nəzərə,
Təbiət də mənə heyran görünür.

Deyirlər, bülbülə çəmən yaxşıdır,
İnsançün laləzar vətən yaxşıdır,
Vahid, sorma, vətən nədən yaxşıdır?
Adı gəlcək könlüm xəndan görünür.



ŞİRVANİ ƏDİLLİ

BAYRAQ GÜNÜ

9 noyabr 2015-ci il tarixində Güneydə fars şovinizminə qarşı kütləvi etiraza qalxmış fədakar soydaşlarımıza

Bayraq günü bayraq kimi yüksəldi, ucaldı
Türk millətinin haqq səsi bir anda Güneydə.
Bir həmlədə düşmənlərini lərzəyə saldı
Haqq yumruğu zülm üstünə qalxanda Güneydə.
Haydı, irəli, güclü, cəsarətli oğullar,
Xoşbəxt gələcək sizlərə möhtac, hamı anlar.
Tarixdə sizinlə yeni bir dövran açılmış,
Alqış bu fədakarlığa, bu qeyrətə alqış!
Qəlblərdə azadlıq kimi məfkurəni görcək
Yer-göy də müqəddəs bu savaşda sizə dəstək!
Hayqırtınıza yerdəki daşlar da oyanmış,
Mədh etmək üçün sizləri amadə dayanmış.
Alqış sizə, alqış sizə, alqış sizə, alqış!

9 noyabr 2015-ci il

FARS ŞOVİNİZMİNƏ

Ey xalqlara düşmən kəsilən fars şovinizmi,
İnsanlığa bu zülmünü Allah götürərmi?
Ey saxta, münafiq, başı əmmaməli şeytan,
Bir gün də sənə bəs qənim olmazmı o Quran?
Xaricdən alıb dəstəyi çıxdın başa birdən,
Çıxmaqla da oldun bütün insanlığa düşmən.
Fars olmayanın varlığını görmədin əsla,
Farsdan savayı heç kəsə haqq vermədin əsla.
Fars olmayan hər xalqı yox etməkdir amalın,
Ancaq qalacaq bil ki, gözündə bu xəyalın.
Lənət sənə, lənət sənin amalına min yol,
Ey dövrümüzün qanlı bəlası, daha məhv ol!
Türk milləti öz haqqını mütləq alacaqdır,
Zülmə zəfəri mütləq ədalət çalacaqdır!


24 iyun 2014-cü il

BAKIM

Bakım mənim,
Neçə ildir sərt küləkli nəm havanı
uduram mən.
Mənim doğma, azad ruhlu,
gen qucaqlı şəhərimsən.
Neft qoxulu torpağına
göz dikdilər bir zamanlar.
Hər küçəndə,
Hər köşəndə
yad dillərdə çox ötdülər
sənə özgə, yad insanlar.
Fəqət nə o sərt küləyin,
Nə torpağın, daş-kəsəyin,
Havan, suyun, daş-divarın,
Döngən, tinin, dalanların
Dözmədilər bu zillətə,
çox yandılar, alışdılar.
Onlar bir an əyilməyib əsarətə
doğma dildə danışdılar!

Sən sanma ki, bir şəhərsən,
Bir şəhərçün yükün çox-çox ağır sənin,
Güzgüsüsən sən dərd çəkən bir Vətənin.
Vətənimin sevinci də, kədəri də
dönə-dönə
Əks olunub o simanda
bircə-bicə, dənə-dənə.
Küləyində əsir o yurd yerlərinin
min ah dolu havası var,
Dəlmələnən, tapdalanan torpağında
Təbrizimin, Kəngərimin,
Ulu Turan ellərimin
qanlı-qanlı yarası var.
Üz tutanın soraq yeri,
pənah yeri,
Türklüyümün sabah yeri.
Quzeyimin, Güneyimin,
gözü səndə,
Hər dərdləri çəkən oldun,
Hər dərdimin izi səndə.
Sən əzəldən bir, eşq, sevgi şəhərisən,
Görən sevər, vurğun olar
bir görüşdən.
Qoynundakı o göy dəniz
Sənə olan sonsuz-sonsuz
sevgilərdən yaranmışdır.
Fəqət gülmür üzün sənin
Gen simanda ərşə çatan
hüzn, kədər qalanmışdır.
Bilirik, sevgili şəhər,
Sevgi hələ sevinc deyil
(sevilmək sevinmək deyil),
Gülmür Vətən – Sən güləsən.
Amma o gün gələcəkdir.
Azadlığın, bütövlüyün sevinciylə
o gül üzün güləcəkdir!

21 iyun 2017-ci il



NƏSİB NƏBİOĞLU

KƏLBƏCƏRƏ GEDƏN YOL

Bu azadlıq kəlməsi dərdlərimə əlacdı,
Arzularım qəlbimdə çiçək açdı, gül açdı,
Murovun zirvəsindən Dəlidağa yol açdı,
Hünər, qeyrət yoludur Kəlbəcərə gedən yol!

İndən belə bilirəm, düşmən çıxmaz önümə,
Mərd oğullar səs verdi harayıma, ünümə,
Ey dünyanı yaradan, çox şükür bu günümə,
Vallah, heyrət yoludur Kəlbəcərə gedən yol!

Yollar bağlı olanda gəlib keçə bilmədim,
Kəlbəcərin suyundan gedib içə bilmədim,
Xəyalımda yollandım, özüm köçə bilmədim,
Bir az həsrət yoludur Kəlbəcərə gedən yol!

Bu yolun əzəməti düşmənləri qorxudur,
Düşmənlərin gözünə batan şəhid oxudur,
Bu yollar başdan-başa əfsanədir, yuxudur,
Elə cənnət yoludur Kəlbəcərə gedən yol!

Ruhumuz pərvazlanır Tutğun, Tərtər boyunca,
Rüsxət elə İlahi, baxım gözüm doyunca,
Zirvələrdən keçirik eşqimizin dalınca,
Saf məhəbbət yoludur Kəlbəcərə gedən yol!



Ali Baş Komandan İlham Əliyev Kəlbəcərdə üçrəngli bayrağımızı ucaldarkən

Sıldırım qayaları basacağam bağrıma,
Bu yerlər məlhəmimdi, əlaç edər ağrıma,
Dözümlü ol ürəyim, indən belə ağrıma,
Bir cəsarət yoludur Kəlbəcərə gedən yol!

Şəhidlərin qanı var torpağında, daşında,
Sevinc damla-damladır gözlərimin yaşında,
Bayrağım dalğalanır zirvələrin başında,
Hünər, şöhrət yoludur Kəlbəcərə gedən yol!

Kəlbəcər, iyul 2023



MİNA RƏŞİD

BAYRAĞIM

Səni enməyə qoymaz
Doğma yurdum – dayağım.
Harda qalib oluruq,
Dalğalanan Bayrağım.

Sənə zirvə yaraşır,
İgid elimdən güc al!
Azərbaycan bayrağı,
Başım üstündə ucal!

Səni qorumalıyıq
Doğma adımız kimi.
Səni unutmarıq biz
Doğma andımız kimi!

AZAD ŞUŞAM

Ordumuzun gücündən
Qorxub qaçdı yağılar.
Şuşanı azad etdi
Şir biləkli oğullar.

Bu yer sanki möcüzə –
Uca dağlar, şiş qaya...
Dolama yollarıyla
Biz qalxırıq Şuşaya.

Hamımız əsgər olub
Durmuşuq keşiyində.
Üzeyirin yurdunda –
Musiqi beşiyində.

Şuşa sənət məbədi,
Gözəlliyin taxtıdır.
Şuşa Azərbaycanın
Mədəni paytaxtıdır.

Mənim doğma diyarım,
Azərbaycan adlanır
Mənim doğma vətənim.
Azərbaycan dilidir
Mehriban ana dilim.

Vətənimin paytaxtı
Yaraşıqlı Bakıdır.
Möhtəşəm Qız qalası
Bakının baş tacıdır.

Bayrağım üçrənglidir:
Qırmızı, yaşıl, mavi.
Mənim bir nağılım var
"Cırtdan" aldadır "Div"i.

Dinim İslam dinidir
Vətənim mərdlər yurdu.
Torpağımı qoruyur
Böyük, güclü bir ordu.

QIZ QALASI

Başı göylərə çatan
Bir qalam var, möcüzə.
Bu sehrli abidə
Nələr söyləyir bizə?

Elə vüqarla durub
Əzəmət simvoludu.
Bir sənət incisidi
İçi sirlə doludu.

Gözəllikdə tayı yox
Nağıldı, əfsanədi.
Adı Qız qalasıdı
O, Bakının rəmzidi.

BAKI

Baxın Qız qalasının
Başı gölərə dəyir.
Xəzərimin tayı yox –
Şən ləpələr sölyəyir.

Nə doğmadır qucağın
Əzizlər qonağını.
Həzin küləklərinlə
Oxşadın yanağımı.

Ay İçərişəhərim,
İç-içə evlərin var.
İçindən çıxmaq olmur,
Qərib küçələrin var.

Qoy kor olsun düşmənin,
Gülsün dostların üzü.
Çiçəklən, əziz Bakım,
Dilimin şirin sözü.

Sən doğma Vətənimin
Vüqarı, baş tacısan.
Gözəl Bakım, ömrümə
Günəştək nur saçırsan.



Qız qalası



AYSEL NAZİMQIZI

ÜÇRƏNGLİ BAYRAQ

Hər vaxt uca durur, hər vaxt baş durur.
Hər gün küləklərlə o savaş qurur,
Damarda çağlayan qanı coşdurur,
Göydə qanad çalır üçrəngli bayraq!

Qoy gözün üstünə üç qumaş rəngi,
Qoynundan boylanır könül ahəngi.
Sanki çağlayır "Heyratı"," Cəngi",
Göydə qanad çalır üçrəngli bayraq!

Müqəddəs andıyla yaranıbdır tən,
Onu öz bağrına basıbdır vətən.
Vüqarla boylanır "Lələtəpə"dən,
Göydə qanad çalır üçrəngli bayraq!

Könül fərəhidir bu od, bu ocaq,
Milyon-milyon qəlbə açıbdı qucaq.
Bir gün Qarabağda dalğalanacaq,
Göydə qanad çalır üçrəngli bayraq!

18 may 2020-ci il

VƏTƏN

Ömrümə ələnən ilahi nursan,
Ana laylası tək qəlbə dolursan.
Yamyaşıl geyinmiş gəlin olursan,
Bir özgə aləmdir baharın, Vətən.

Nəğməyə bələnib gözəl çağların,
Ərən oylağıdır uca dağların.
Könüllər oxşayır barlı bağların,
Ümid ətirlidir yolların, Vətən.

Aysel, bu torpaqda halallıq ara,
Zirvələr heykəldir namusa, ara.
Sənin sorağına gələn dostlara,
Sevinclə açılır qolların, Vətən.



İdmançı gəncin qələbə sevinci



ELTUN TÜRKEL

ALİ BAŞ KOMANDAN İLHAM ƏLİYEV

Siyasət dərsini öndərdən aldın,
Düşməni qurduğu tələyə saldın.
Cəmi qırx dörd günə qələbə çaldın,
Ali Baş Komandan, İlham Əliyev.

Xeyirlə yoğruldun, şərlə döyüşdün,
Hər gün sevincini xalqla bölüşdün.
Yeni tarix yazdın, tarixə düşdün,
Ali Baş Komandan, İlham Əliyev.

Şüar səsləndirdin sonunda nida,
Məğrur ordumuza ruh verdi o da.
Bir qarış torpağı vermədin yada,
Ali Baş Komandan, İlham Əliyev.

Qovdun ömürlərdən həsrət köçünü,
Məzlum Xocalının aldın öcünü.
Göstərdin dünyaya Türkün gücünü,
Ali Baş Komandan, İlham Əliyev.

Millətin ümidi, məbədi lider,
Vətən sevgisinin məbədi lider,
Qəlblərdə taxt quran: əbədi lider,
Ali Baş Komandan, İlham Əliyev.

4 fevral 2021-ci il

ŞƏHİD ÖVLADININ GÖZ YAŞLARINDA

Yağışlar, leysanlar, sellər gizlənir,
Qəlbləri titrədən yellər gizlənir.
İlahi, gör nələr, nələr gizlənir,
Şəhid övladının göz yaşlarında.

Hər bir damcısında cürət boy atır,
Cəsarət boy atır, qüdrət boy atır.
Anbaan düşmənə nifrət boy atır,
Şəhid övladının göz yaşlarında.

Oyaqdı, çətin ki yata həsrəti,
Bilmir nə vaxt sona çatar həsrəti.
Hər gün pöhrələnir ata həsrəti,
Şəhid övladının göz yaşlarında.

Göylərdən enmirsə, mələk deyil ki,
Tufan qoparmırsa, külək deyil ki,
Əgər ərimirsə, ürək deyil ki,
Şəhid övladının göz yaşlarında.

Onda haqq səsi var, nalə var, ah var,
İşıqlı gələcək, nurlu sabah var.
Vallah qibləgah var, ziyarətgah var,
Şəhid övladının göz yaşlarında.

4 fevral 2021-ci il



ARİF NİHAT ASYA

BAYRAQ

(Orijinal variant)

Ey mavi göklerin beyaz ve kızıl süsü,
Kız kardeşimin gelinliği, şehidimin son örtüsü,
Işık ışık, dalga dalga bayrağım!
Senin destanını okudum, senin destanını
yazacağım.

Sana benim gözümle bakmayanın
Mezarını kazacağım.
Seni selamlamadan uçan kuşun
Yuvasını bozacağım.

Dalgalandığın yerde ne korku, ne keder...
Gölgende bana da, bana da yer ver.
Sabah olmasın, günler doğmasın ne çıkar:
Yurda ay yıldızının ışığı yeter.

Savaş bizi karlı dağlara götürdüğü gün
Kızıllığında ısındık;
Dağlardan çöllere düştüğümüz gün
Gölgene sığındık.

Ey şimdi süzgün, rüzgarlarda dalgalı;
Barışın güvercini, savaşın kartalı
Yüksek yerlerde açan çiçeğim.
Senin altında doğdum.
Senin altında öleceğim.

Tarihim, şerefim, şiirim, her şeyim:
Yer yüzünde yer beğen!
Nereye dikilmek istersen,
Söyle, seni oraya dikeyim!



Zəfər paradı keçidində iştirak edən
Türk komandolar



NARINGÜL NADİR

VƏTƏN

Günəş ölkəsisən, od ölkəsisən,
Türkün nəfəsisən, Turan səsisən,
Mənim gözlərimdə yer kürəsisən,
Sən elə sərhədsiz bütünsən, vətən.

Adın Azərbaycan, biz bir candayıq,
Nə fərqi, yaxında, ya uzaqdayıq,
İnancımız birdir, təmiz qandayıq,
Bircə qibləmiz var, o, sənsən, vətən.

Sevgin şipşirindir, sevgin bal dadır,
Hələ həsrətim var, gözüm yoldadır...
Ürəyim tarladır, torpaq boydadır,
Köçüb ürəyimdə bitənsən, vətən.

Adını üçrəngli bayrağa yazım,
Gülüm, gülüstanım, baharım, yazım,
Başqa söz nə lazım, tərif nə lazım?
Sən elə vətənsən, vətənsən, vətən!

TORPAQLA BAYRAQ ARASI

Bayraqları
torpaq üstə atmayın!
Torpağı bətnimizlə
hifz etməyə hazırıq!

Bayraq güllə saxlamır,
torpaq güllə keçirmir.
Biz bir az da bayrağıq,
biz bir az da torpağıq,
bətnimizdə güllələr...

Cismimiz çilənmiş qan,
qanda döyüş havası.
Biz hamımız vətənik,
torpaqla bayraq arası!

QƏLƏBƏ YARAŞIR AZƏRBAYCANA

Odlar ölkəsidir söndürmək olmaz!
Andından, yolundan döndərmək olmaz!
Bayrağını göydən endirmək olmaz!
Kaş bunu biryolluq düşmən də qana
Qələbə yaraşır Azərbaycana!

Haqla, ədalətlə çıxıbdır yola,
Təslim olan deyil, yüz düşmən ola.
Kimin hünəri var, girsin meydana,
Min cür libas ola, çatmaz bu dona,
Qələbə yaraşır Azərbaycana!

Düşüb halay səsi mərd Naxçıvana,
Gözəlliyi sığmır sözə, dastana,
Bu Şuşa qalası, bu da Topxana,
Hüsnü, təbiəti qalsın bir yana
Qələbə yaraşır Azərbaycana.

Savaşı zəfərlə çatıbdır sona,
Sədası yayılıb bütün cahana,
Coşqusu, həvəsi düşübdür cana,
Eşq olsun bu sona nida qoyana!
Qələbə yaraşır Azərbaycana!



Ali Baş Komandan İlham Əliyev üçrəngli Azərbaycan bayrağını Laçın şəhərində ucaldarkən



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçında bir daha bütün dünyaya bəyan edir: ***Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!***



ZAUR USTAC

BAYRAQ BİZİM BAYRAĞIMIZ

Arazın o tayında
bayrağımız dalğalanıb

Üstündən yüz Araz axsın,
Torpaq, bizim torpağımız!!!
Güney, Quzey fərq eləməz,
Oylaq, bizim oylağımız!!!

Axışı lal, susur Araz,
Mil, Muğanı yorur ayaz,
Kərkükdən ucalır avaz,
Oymaq, bizim oymağımız!!!

Göyçə dustaq, Urmu ağlar,
Yaşmaq düşər, börü ağlar,
Qaşqayda bir hürü ağlar,
Papaq, bizim papağımız!!!

Dörd bir yanın qarabağlı,
Dəmir qapı çoxdan bağlı,
Bir ağacıq qol-budaqlı,
Yarpaq, bizim yarpağımız!!!

Ustac boşa deməz əlbət;
"Sərhədinə elə diqqət",
Bu kəlamda var bir hikmət,
Sancaq bizim sancağımız!!!

7 yanvar 2023-cü il

ARAZ

Halına acıdım lap əzəl gündən,
Bu qədər qınanır bilmirəm nədən...
Arazı heç zaman qınamadım mən,
Hər iki tərəfə məhrəmdir Araz!
Yaralı torpağa məlhəmdir Araz!

Sarıyıb yurdumun şırım yarasın,
Açmayıb, bağlayıb qardaş arasın,
İndi mən qınayım bunun harasın?
Hər iki tərəfə məhrəmdir Araz!
Yaralı torpağa məlhəmdir Araz!

Çəkib acıları, yığıb suyuna,
Sakitdir, bələddir hamı huyuna,
O da qurban gedib fitnə, oyuna,
Hər iki tərəfə məhrəmdir Araz!
Yaralı torpağa məlhəmdir Araz!

Xudafərin qucaqlayan qoludur,
Keçidləri salam deyən əlidir,
Bayatılar pöhrələyən dilidir,
Hər iki tərəfə məhrəmdir Araz!
Yaralı torpağa məlhəmdir Araz!

7 yanvar 2023-cü il



ALLAHŞÜKÜR AĞA

BAYRAQ ŞƏKLİ

Körpə süd şüşəsindən elə yapışıb,
Elə bil, bir daha süd içməyəcək.

Mən bayraq çəksəydim
O uşağın şəklini vurardım
Bütün ölkələrin bayraqlarına.
Kim istəməzdi bunu?

O uşağın balaca ayaqlarını elə
çəkərdim ki,
Yer üzündə bütün qumbaralar
Bir anda intihar edərdilər.
Generallar döşlərindəki ordenləri
Bir an içində qoparıb atardılar.

Tankın yadına düşər
Bir vaxtlar uşaq oyuncağı olmaq arzusu.
Güllələrin yadına düşər
Uşaq barmaqlarına bənzəməyi.
Və Suriyada uşaqların süd şüşəsinə dəyib
Qollarını üzməyi.

Mən bu bayraq şəklini
Tez çəkə bilsəydim...

17 mart 2019-cu il



OQTAY ZƏNGİLANLI

AZƏRBAYCAN BAYRAĞIDIR

Əzəmətli Günəş kimi üfüqlərdə dalğalanan,
Qızıl rəngi əbədilik könüllərdə yuvalanan,
Zəncirləri qıran xalqla haqqa doğru ünvanlanan,
Al bayrağım yanan məşəl, əbədiyyət çırağıdır,
Fəxr etdiyim şərəf-şanım Azərbaycan bayrağıdır.

Şanlı Bayraq Meydanımız qəhrəmanlıq simvoludur,
Bayraq altda həmrəy millət tarix yazan bir uludur,
Azadlığa aparan yol ərənlərin ər yoludur,
Al bayrağım qazandığım azadlığın mayağıdır,
Vəsf etdiyim ruhum, canım Azərbaycan bayrağıdır.

Bayrağımız mərd Babəkin köynəyinin al qanıdır,
Şah İsmayıl Xətainin miras qalan nişanıdır,
Şəhidlərin vətənləşən ölümsüzlük ünvanıdır,
Ay-ulduzum şəfəq saçan müstəqillik qaynağıdır,
Od nəfəsim, axan qanım Azərbaycan bayrağıdır.

Qalx ayağa Vətən oğlu, qaytar doğma torpağını,
Sanc Şuşanın zirvəsində üçrəngli haqq bayrağını,
Zəfər çalıb Yer üzünə yay səsini-sorağını,


Hayqır bərkdən, de Qarabağ Oğuz elin torpağıdır,
Şərəf dolu adım-sanım Azərbaycan bayrağıdır.

Bayraq fəxrim, söz günəşim, söz dəryamda dürr-incidir,
Çiçəklənən azad ölkəm yüksəlişdə birincidir,
Xalq yaradan xariqələr xoş günlərin sevincidir,
Qürur dolu hər yeni gün şanlı tarix varağıdır,
Candan əziz hürr ünvanım Azərbaycan bayrağıdır.

8 noyabr 2013-cü il



RƏŞİDƏ ALLAHVERDİYEVA



Zəngilanın müasir Ağalı kəndi

BAYRAQ...

Çox da ki əlin çatmır,
Səslə, səsin çatacaq.
Soruş, qoy mən də bilim,
Şuşam necədir, bayraq?

O çöllər, o çəmənlər
Güldən xalı toxuyur?
Soruş gör, buz bulaqlar,
Yenə mahnı oxuyur?

Şahbazın baxışları
Dərd açıb puçur-puçur.
Soruş gör, Dilqəmimin
Ürəyindən nə keçir?

Boylan Dəlidağıma
Soruş, qar saxlayıbımı?
Sus! Mən ölmüşəm daha...
Ətəyində qocalan
Qızı soraqlayıbmı?

Ağdamda qərib ruhlar
Nə deyir, nə söyləyir?
Araza Xudafərin
Bizdən nə gileylənir?

Soruş gör, qərib Laçın
Bizsiz necə darıxır?
Demə ki, göz yaşını
İçə-içə darıxır...

Sus artıq, dözəmmədim
Bu naləyə, bu aha.
Ürək də sözə baxmır,
Sus! Mən ölmüşəm daha...

31 dekabr 2016-cı il



Şuşaya sancılan bayraq



SEYRAN CAVADOV

BAYRAQ

Bayraq bir millətin özünüdərki,
Qeyrəti, məsləki, əqidəsidir.
İliyindən keçib, canından gələn,
Dilində göyərən haqqın səsidir.

Ulu əcdadımın Qobustandakı
Qayada cizgisi, Qavaldaşıdır.
Yüz illər, min illər yol keçib gələn,
Nəsillər yaşadan qan yaddaşıdır.

Xətai idrakı, Babək qılıncı,
Koroğlu sazının öz simidir o.
Babam Füzulinin qərib məzarı,
Hələbdə soyulan Nəsimidir o.

Kəpəzdi, Qoşqardı, Arazdı, Kürdü,
Mayası atəşdən, oddan yoğrulub.
Üçrəngi köçürüb öz varlığına,
Bir aylı gecədə sanki doğulub.

Dönüb bir millətin səcdəgahına,
İgidlər önündə onun and içər.
"Yaşa, ana yurdum, sən yaşa!" – deyə
Girib döyüşlərə canından keçər.


Vətən övladları igid, cüssəli,
Düşmənin bağrını dağıdar, sökər.
Heç nədən qorxmayan oğullar belə
Bayrağın önündə yalnız diz çökər.

Döyüşlər, savaşlar önündə gedib,
Zəfər ilhamıyla dalğalanıbdır.
Çox vaxt cəbhələrdə hamıdan qabaq
İlkin zərbələri bayraq alıbdır.

Namusdu, qeyrətdi, şöhrətdi, şandı,
Bayraq ucalanda millət ucalar.
Bayrağı ucaldan oğullar varsa,
O millət həmişə zəfərlər çalar.

Dik saxla başını, dik tut, bayrağım!
Qəddin əyilməsin heç vaxt bir daha.
Hələ qarşıdadır sənin xoş çağın,
Gedək o günləri doğan sabaha!

6 noyabr 2011-ci il



SİMAX ŞEYDA

BAYRAQ MEYDANI

Şirin söhbət edirdi
İki uşaq bayaqdan.
Güloğlan soruşurdu
Yaxın dostu Budaqdan:

– Olmusanmı, a dostum,
"Bayraq meydanı"nda sən?
O göylərə ucalan
Al bayrağı görmüsən?

Yer üzünün ən uca
Bayrağıdır bu bayraq.
Baxır bütün dünyaya
Alnıaçıq, üzüağ.

Müstəqil olan gündən
Vətənimiz, yurdumuz
Göydən həsrətlə baxır
Bizə günəş, ay, ulduz.

– Haradadır bu meydan?
Olmamışam mən orda.
Xəzər sahilindədir, –
Bayıla gedən yolda.

İstəyirsən gəl səni
Aparım o meydana.
Sən də iftixar ilə,
Sevinc ilə bax ona.

7 iyun 2013-cü il

QƏHRƏMAN MÜBARİZ

Azərbaycan xalqının Milli Qəhrəmanı
Mübariz İbrahimova

Qəlbi vətən eşqi ilə
Dolu idi,
Elin cəsur, mərd Mübariz
Oğlu idi.

Qoruyurdu ermənidən
Öz yurdunu,
Qorxutmurdu nə top-tüfəng,
Ölüm onu.

Bir gün düşmən gələn zaman
Üstümüzə,
Qəsd eyləmək istəyəndə
Yenə bizə.

Girdi qızğın döyüşlərə
Cəsur kimi,
Mehdi kimi, Gəray kimi,
Qafur kimi.

Sərdi yerə neçə-neçə ermənini,
Öz qanına qəltan etdi düşmənini.
O özü də el yolunda
Şəhid oldu.
Şan-şöhrəti dildə gəzən
İgid oldu.

Gəlmə, düşmən, vətənimə,
Gəlmə yaxın!
Mübariz tək oğlu çoxdur
Bu torpağın!

7 iyun 2013-cü il



Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov

FİRAD FUADOĞLU

HEÇ BİR ZAMAN UNUDULMAYIR ŞƏHİDLƏR

Xalqa həsr edilən ömür qururlar,
Vətən keşiyində məğrur dururlar,
Həyatı şərəflə başa vururlar,
Heç bir zaman unudulmur şəhidlər ...

Daim vətən eşqi ilə yanırlar,
Bu sevgini candan əziz sanırlar,
Odur ki, onları daim anırlar,
Heç bir zaman unudulmur şəhidlər....

Cəsarətli, şərəfli yol seçirlər,
Vətən üçün canlarından keçirlər,
Bu səbəbdən ürəklərə köçürlər,
Heç bir zaman unudulmur şəhidlər....

Tarixlərə silinməz iz salırlar.
Əbədilik yaddaşlarda qalırlar,
Nəsillər onlardan ibrət alırlar,
Heç bir zaman unudulmur şəhidlər

Düşmənin başına od ələyirlər,
Millətin ruhuna nur çiləyirlər,
Müqəddəs zirvəni fəth eləyirlər,
Heç bir zaman unudulmur şəhidlər. ..

ŞƏHİDLƏRİN XATİRİNƏ...

İgidlər yerindən dursun,
Düşmənə zərbələr vursun,
Qarabağda çadır qursun,
Şəhidlərin xatirinə.
Zamanı verməyək yelə,
Hamımız verək əl-ələ,
Sahib çıxaq doğma elə.
Şəhidlərin xatirinə.
Qoymayaq qan yerdə qalsın.
Düşmənlər bundan zövq alsın,
Xalqımız qələbə çalsın,
Şəhidlərin xatirinə.
Sonraya qalmasın qisas,
Budur, ən vacib, ən əsas,
Düşmənlərə qurduraq yas,
Şəhidlərin xatirinə.

21 iyun 2019-cu il



Şəhid bulağı. Balakən



"Şəhid bulağı" xatirə kompleksi. Goranboy



NƏCMƏDDİN MÜRVƏTOV



MEHMAN RƏSULOV

AZƏRBAYCAN BAYRAĞI

Sən savaşdan doğulmusan sənə zəfər yaraşır,
Rənglərində müstəqillik, islam, türklük qarışır,
Ay-ulduzun hürriyyətin göylərində sayrışır.
Aləmlərə çatdırırsan millətimdən sorağı,
Zirvələrdə dalğalanan Azərbaycan bayrağı.

Ox olmusan yağıların gözlərinə hər zaman,
Uğurları göstərmisən kökslərini yandıran,
Yaşatmısan məğlubluğu fəryad edə, dad, aman .
Sevinmisən sarsılanda namərdlərin dayağı,
Zirvələrdə dalğalanan Azərbaycan bayrağı.

Bəyan edib həqiqəti göstərmisən dünyaya
Haqq demisən çöküb dizə yalan, böhtan, şər, riya.
Barəndə tərs düşünənlər qanıb, uyub xülyaya,
Yaşamısan tarixində saysız gələn sınağı,
Zirvələrdə dalğalanan Azərbaycan bayrağı.

10 fevral 2021-ci il

BAYRAQ ATA

–Ana, atam kim olub?
–Bayraq olub, can bala!
–Bəs Orxanın atası?
–Bəs Faiqin atası?
–Onlar bayraq deyillər?
–Gəl, dərsə hazırlaşaq...
–Atamın üç rəngi var...
–Gətir kitablarını.
–Necə ölür atalar?
–Bunu sənə kim deyib?
– Sinif yoldaşım Həsən.
–Qulaq asma sən ona.
–Ana, sabah görəsən...
–Atan bayraqdı sənin...
–Qucağına istədim...
–Bəs sən darıxmırsan heç?
–Söz vermişəm atana.
–Bəs niyə ağlayırdın?
–Hardan düşdü yadına?
–Yuxuda dedi atam.
–Yuxuda?
–Hə, yuxuda.

–Başqa nə dedi, balam?

–Dedi ayım, ulduzum...

–Başqa?

–Yaşıl, qırmızım.

–Gördün? Bayraqdı atan!

–Bəs Faiqin atası?

–O da bayrağı tutan.

4 sentyabr 2021-ci il



ƏBÜLFƏT ZEYNALOĞLU

AZƏRBAYCAN BAYRAĞI

Yayılırkən ellərə
Azadlığın sorağı,
Büləndolsun göylərə
Azərbaycan bayrağı.
Səslənsin üfüqlərə
Nəğməmin xoş ahəngi,
Nur saçsın şəfəqlərə
Bayrağımın hər rəngi.
Göy rəngim ulu Türkün
Danılmaz haqq səsidir,
Al rəngim mərd Babəkin
Azadlıq nəfəsidir.
Yaşılım dilimizin,
Dinimizin rəmzidir,
Hər üçü elimizin
Ürəyinin nəbzidir.
Ayparam bir nurlu yaz –
Sevinci üzə gələr,
Səkkizguşəli ulduz
Zülmətin bağrın dələr.
Vətən! Şanlı bayrağın




Şəhid bulağı. Ağstafa

Dalğalanar əbədi.
Bu müqəddəs torpağın
Odur sevgi məbədi.

HİMNİ DOĞMA VƏTƏNİN

Oynadar için-için
Könlünü dinləyənin.
Şirindir onun üçün
Himni doğma Vətənin.
Duyğumun sədasıdır,
Ölməzlik nidasıdır,
Ruhumun qidasıdır
Himni doğma Vətənin.
O, eşq təranəsidir,
Könlüm pərvanəsidir.
Yurdumun nəğməsidir
Himni doğma Vətənin.
Cavadın zəkasıdır,
Üzeyir dühasıdır,
Azadlıq dünyasıdır
Himni doğma Vətənin.
Sevda dolu tər çiçək,
Eşqimlə bəslənəcək.
Əbədi səslənəcək
Himni doğma Vətənin.

8 dekabr 2017-ci il



AYDIN MUROVDAĞLI

AZƏRBAYCAN, TÜRKİYƏ, PAKİSTAN BAYRAQLARI...

Danışmaq istəyirəm mən üç bayraq dilində,
Bayraqlarda titrəyən məşəl, çıraq dilində...
Bir hərf də öyrənmərəm mən təmtəraq dilində,
Buna razı olmaz asiman yaraqları!
Azərbaycan, Türkiyə, Pakistan bayraqları!

Yoxluğuna yol gəlir yaradanın yer üzü,
Xeyir üzünə gülür bu dünyanın şər üzü,
Cihada hazırlaşır əsrin peyğəmbər üzü,
Ona görə var olsun sülhün göy qurşaqları!
Azərbaycan, Türkiyə, Pakistan bayraqları!

Əbədiyyat nəfəsli, haqq-ədalət rənglidir,
İnsanlığa etiqad, ulu xilqət rənglidir,
Niyyəti korlar bilsin, ali niyyət rənglidir,
Allah, Vətən eşqiylə doludu qucaqları!
Azərbaycan, Türkiyə, Pakistan bayraqları!

Batı, Doğu arası nurlandırır zülməti,
Üç dövlətin şəklidir, üç qardaşın surəti,

Bir-birinə arxadır üçünün də hikməti,
Ucalıqdan seyr edir müqəddəs torpaqları!
Azərbaycan, Türkiyə, Pakistan bayraqları!

Ürəkdə döyüntüsünə yaraşıb dalğalanır,
Üçü də zirvələşib, dağlaşıb dalğalanır,
Üçlərin ehtişamı yanaşı dalğalanır,
Dərdləşir yurd eşqinin vətəndaş ortaqları!
Azərbaycan, Türkiyə, Pakistan bayraqları!

Bil ki, Mütləq Atanın üç oğlunun ruhudu,
İnad mərtəbəsində öc oğlunun ruhudu,
Dış oğlunun ruhudu, iç oğlunun ruhudu,
Əmr edirlər: "Dağılsın zalımın tifaqları!"
Azərbaycan, Türkiyə, Pakistan bayraqları!

Yapışıb arzuların ətəyindən deyirəm,
Bu yazın arı qonan çiçəyindən deyirəm,
Mən Turanın paytaxtı ürəyimdən deyirəm,
Sinəm altdadı sizə eşqin ləl yataqları!
Azərbaycan, Türkiyə, Pakistan bayraqları!



Türkiyə, Azərbaycan və Pakistan xüsusi təyinatlıları Bakıda



AYSEL FİKRƏT

SEVGİLİ ƏSGƏRƏ

Səndən xəbər gəlmir, gör nə zamandı,
Çən, duman, həsrətdi başının üstü.
Ürəyim uğruna çox yanır deyə,
Hardasan görünmür, dörd yanım tüstü.

Gözümü yollardan çəkim söylədin,
Bəlkə qayıtmadım, ağlama, bəsdi.
Xatirəmi əziz tutub, yaşarsan,
Telefon qırıldı, səsini kəsdi.

Həmin an ruhumu sardı bir arzu,
Vətən sevgisindən ucada nə var?
Göylərdən yağanda odlu mərmilər,
Bir əsgər görəsən nəyi arzular?

Mənim də gözümə yuxu getməyir,
Nə olsa, nə bitsə, yenə qayıt gəl.
Əlində, üzündə zəfər haləsi
Gözündə sevgimi uyut, ayılt gəl.

Sənin vətən eşqin bir ayrı yolla,
Mənim güldən incə sevgimdən keçir.
Mən də döyüşürəm sənlə, mən də,
Gözlərim sənincün hər gün yol çəkir.

Səni gözləyən var, səni sevən var.
Sən artıq qalibsən, vətən övladı.
Həmişə ucada tut, müqəddəs bil
Alnına yazılan şərəfli adı.



Azərbaycan, Pakistan və Türkiyə bayraqları



NİZAMİ MURADOĞLU

AZƏRBAYCAN BAYRAĞI

Şəninə nə deyim, deyilməyibdi?..
Ucadan-ucasan uca Bayrağım!
Qəlbimdən bir nisgil əskilməyibdi –
Təbrizdə, Kərkükdə açа Bayrağım...

Odur yadigarı Cümhuriyyətin,
Candan əziz tutduq şanın, şöhrətin.
İzzətim, şərəfim, əbədiyyətim,
Başımın tacıdır, tacı Bayrağım!

Çalması mavidir – göy türkdən gələr.
Köksü qırmızıdır – şəhid sinələr.
Yaşıl geyimilə müsəlləh əsgər,
Tanrı dərgahında uça Bayrağım.

90-da yenidən gəldin dünyaya,
Yenidən boylandın ulduza, Aya.
Nazlan, salam yetir Heydər babaya,
Düşməsin üstünə kölgə Bayrağım!

Məramı alidir, nişanı çoxdu,
Düşmənin köksünə saplanan oxdu.
Mərdlər sınağından qeyrətlə çıxdı,
Götürməz bir töhmət – ləkə Bayrağım.

Mənalar axtardım keçən izində.
Min arzu, min istək vardı gözündə.
Şuşa qalasında, Cıdır düzündə
Bağrı param-parça, tikə Bayrağım.

And yeri əsgərin, şəhidimin də...
Qazinin, alimin, hər bir fərdin də.
Xalqımdan istərəm vəsiyyətim də,
Öləndə üstümə çəkə Bayrağım.

Yox, hələ ölmərəm görməsəm əgər,
İgid cəngavərim əlində xəncər.
Rəvan qalasının yerinə sanca –
Ordan da nurunu saça Bayrağım.

6 aprel 2019-cu il



Xocavənd rayonunun Hadrut qəsəbəsi



NURANƏ NİHAN

AZƏRBAYCAN BAYRAĞI

Qan qoxulu o illərin hər dəhşətli anıyla,
Neçə-neçə məzlumların sipər olan canıyla,
Saya gəlməz şəhidlərin töküldüyü qanıyla
Qazandığım hürriyətim – Azərbaycan bayrağı!
Mübarizəm, şücaətim – Azərbaycan bayrağı!

Gəzib dolan bu dünyanı bayraq macərəsində,
Varmı belə gözəl bayraq bayraqlar arasında?
Millətimin bir millət tək millətlər sırasında
Varlığıma zəmanətim – Azərbaycan bayrağı!
Mən olmağım, şəxsiyyətim – Azərbaycan bayrağı!

Səma rəngim – Türk olmağım,Türklüyümdən var nişan.
Qırmızı rəng – mən azadam, qul olmaram heç zaman.
Yaşıl rəngim – dinim İslam, Allahım – tək Yaradan.
Hər rəngim bir əlamətim – Azərbaycan bayrağı!
Adım-sanım, şan-şöhrətim – Azərbaycan bayrağı!

Sənə olan bu sevgimin ölçüsü yox bəşərdə.
Səndən ötrü düşsəm xoşdur min bəlaya, min dərdə.
Təki dalğalansın mənim bayrağım zirvələrdə,


Sarsılmayan məhəbbətim – Azərbaycan bayrağı!
Öz eşqimə sədaqətim – Azərbaycan bayrağı!

Mən bu yurdun övladıyam birgə arzum var mənim,
Şəhid olum bayraq üstə bayraq olsun kəfənim.
Nə qədər ki bayrağım var, var olacaq Vətənim,
Dağ vüqarım, şax qamətim – Azərbaycan bayrağı!
Qürur yerim, fəxarətim – Azərbaycan bayrağı!

2018



Topçu Vüsal Şahkərimov



İSMAYIL İMANZADƏ

AZƏRBAYCAN BAYRAĞI

Azərbaycan bayrağı
Savalandı, Kəpəzdi –
Şöhrəti eldə gəzdi.
Dağ kimi yenilməzdi –
Azərbaycan bayrağı.
Üçrəngi üç yozumda,
Dil açıbdı yazımda.
Dalğalanır arzumda –
Azərbaycan bayrağı.
Ay-ulduzu tamaşa,
Vətənimlə baş-başa.
Səs salıb dağa-daşa –
Azərbaysan bayrağı.
Keçib oddan, alovdan
Köksünə çilənib qan.
Başım üstədir hər an –
Azərbaycan bayrağı.
Haqqın dönməz yoludur,
Müqəddəsdir, uludur.
Azadlıq simvoludur –
Azərbaycan bayrağı.



Azərbaycanda Milli Yaylaq Festivalı



Çövkən üzrə Azərbaycan Çempionatı. 16 oktyabr 2015-ci il

MƏHƏMMƏDHƏSƏN MƏMMƏDOV

AZƏRBAYCAN TÜRK BAYRAĞI

Bu dünyanın simvoludu
Azərbaycan Türk bayrağı!
O birlikdə yenilməzdir,
Azərbaycan Türk bayrağı!

Ordumuzun var qüdrəti,
Qələbədən müjdə gəti.
Səmalardan enməz qəti,
Azərbaycan Türk bayrağı!

Böyük Türkün qüdrətidi,
İgidlərin cürətidi.
Ana-bacı ismətidi,
Azərbaycan Türk bayrağı!

Ozanların nərəsidi,
Türk elinin nəfəsidi.
O, Quranın surəsidi,
Azərbaycan Türk bayrağı!

O vardırsa türk özüdü,
Bu sazbəndin saz-sözüdü.
Hər bir türkün əzizidi,
Azərbaycan Türk bayrağı!

24 yanvar 2017-ci il



XANƏLİ KƏRİMLİ

AZƏRBAYCAN BAYRAĞI

Mənim başımın üstə
İki səcdəgahım var:
Biri uca Allahım,
Biri yenməz Bayrağım!

Bayrağımın rəngində
Yerin-göyün rəngi var.
Yurdumun azadlığı,
Pozulmaz ahəngi var.

Mən onu qoparmışam
Kölәlik zəncirindən.
Ona səcdə edirlər
Dünyanın hər yerindən.

O qalxıb ucalanda
Bayraqların içində,
Ucalır millətim də
Millətlərin içində.

O mənim yad ellərdə
Danışan saf dilimdi.
Vüqarım, ləyaqətim,
Vətənimdi, elimdi.

Onu sevən ölkələr
Doğmalaşır gözümdə.
Onu sevməyənlərin
Tökəcəyəm gözün də...


Onda olan əzəmət,
Ondakı çarpan ürək
Hayqırır: sabah üçün
Daha ciddi döyüşək.

Çünki döyüşdən doğub
Millətimin xoş çağı!
Bayraqlar bayrağıdı
Azərbaycan bayrağı!..

12 noyabr 2016-cı il



Qürur yerimiz Azərbaycan bayrağı



ƏLƏDDİN ƏZİMLİ

ÜÇRƏNGLİ BAYRAQ

Azərbaycan Xalq
Cümhuriyyətinin 100 illiyinə

Havada
Bir əsin külək yox.
Titrəmir, tərpənmir
ətrafda bir yarpaq belə.
Sükutu əridən şam da,
çıraq da belə.
Əlimdə tutduğum
ağappaq varaq da belə.
Gözüm seçən qədər
yaxın da, uzaq da belə.
Kölgələr elə bil tablo –
düzülüb torpağın üstə.
Dönüb boğazlarda
sanki nəfəs də.
... İçində
qəfildən bir bayraq
çırpınır, qanadlanır,
uçurur məni səmaya.
Bir də baxın,

Millətin,
Cümhuriyyətin
ruhundan qopan
üçrəngli bayrağına.
Gör necə qaldırır
Himn oxuyan milyonları –
Azərbaycanı ayağa!..

30 may 2018-ci il



İLTİMAS SƏMİMİ

UCALDI ŞANLI BAYRAQ

Dilində vətən sözü məhəbbəti bir ümman,
Məsləyinə and içdi neçə-neçə qəhrəman.
Torpağın keşiyində nə qar bildi, nə boran,
Həmlələri uğurlu istekamlar yaparaq.
Ucaldı zirvələrdə, ucaldı şanlı bayraq.

Qəhrəman oğullara, arxalandı bu vətən.
Pöhrələnən inamın, mayası yurd eşqindən,
Silaha sarılaraq, bu torpağa and içən.
Ər oğullar döyüşdə qəsibkara çəkdi dağ,
Ucaldı zirvələrdə, ucaldı şanlı bayraq.

Xəyalında canlandı Xocalının fəryadı,
Vətən sevdalı ərlər fəqət bir ad ummadı.
Döyüşdülər sonacan, çapdılar kəhər atı,
Yağı düşmən əlindən qurtuldu ana torpaq.
Ucaldı zirvələrdə, ucaldı şanlı bayraq.

İntiqamı yamandır yurdu talan olanın,
"Vətən"– deyib, gözləri bulud -bulud dolanın,
Hesabı var, haqqı var, tökülən hər bir qanın.
Şərəfli tarix oldu bu imtahan, bu sınaq,
Ucaldı zirvələrdə, ucaldı şanlı bayraq.

10 may 2022



Qubadlı şəhərinin azad olması







Xoşbəxt an. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Xudafərin körpüsündə







Şuşada Vaqif Poeziya Günlərinin açılışı. 30.08.2021



MƏMMƏD ƏKBƏRLİ

BAYRAQ

... Bayraq – dövlətimin rəmzi, nişanı.
Bayraq millətimin şərəf-şanıdır.
Qoruyaq bayrağı göz bəbəyitək,
O, qədim bir xalqın adı-sanıdır.

Qoruyaq bayrağı, qoy dalğalansın,
Ana yurdumuzun hər bucağında;
Düşməndə qalmasın nə Şuşa, Laçın,
Tonqallar qalayaq hər ocağında.

Dövlətin qüdrəti, gücü millətdir,
Millət güclüdürsə, sarsılmaz Vətən.
Elmli, bilikli millətin varsa,
Üstünə qışqırmaz hər yoldan ötən.

Millətlər içində seçilib bir gün,
Millət görünərsə, bayraq görünər;
Hər yerdə öz sözü, kəlamı olan
Dövlət görünərsə, millət öyünər.

Bayraq bir rəmzdir, bayraq nişandır.
Dövləti ucaltsaq, bayraq ucalar;
Dövlət bir millətdən doğulan candır,
Milləti ucaltsaq, bayraq ucalar.

4 iyul 2014-cü il



KAMAL HÜSEYNZADƏ

Azərbaycan şəhidlərinə həsr olunur.

Hökm edir ərşə bir ulduzlu hilal, seyrinə dal,
Parlasın gözlərin ulduz kimi, ey qaşı hilal.

Külə döndüm sənə olsun deyə qismət bu qürur,
Cismimi büs-bütün atəş bürüdü, ruhumu nur.

Kükrədim fırtına tək gah o yana, gah bu yana,
Qoymadım doğma səmalarda ögey yel dolana.

Can quşum tərk eliyincə bədənin dar qəfəsin,
Elədim aləmi dar düşmənə, kəsdim nəfəsin.

Tutduğum zirvədən ötrüydü həyatə gəlişim,
Kəsə getdim yolumu, qalmadı dünyadə işim.

Mən bəqa aşiqiyəm, yoxdu fənalıqla aram,
Almışam aləmi ağuşuma, hər yerdə varam.

Ocağın sönsə odam mən, evin od tutsa suyam,
Səndən ayrılmamışam, hər nə görürsənsə oyam.

Ruhumun qüdrəti ruhundadı, dik tut başını,
Ağlama, saxla zəfər müjdəsinə göz yaşını.

Qoyma nəm çəkməyə kirpiklərini, qeydinə qal,
Qalxıb innən belə xəzri saçına çəksə sığal.

Əyilib öpsə üzündən gilavar bil ki, mənəm,
Bir zaman həmvətən idim sənə, indi VƏTƏNƏM!

1noyabr 2020-ci il



Füzuliyə gedən yol



Əsgərlərimiz işğaldan azad edilmiş Füzulidə



Ölkə başçısı İlham Əliyev və xanımı Mehriban xanım Əliyeva azad olmuş Füzulidə



ZƏRƏNGİZ DƏMİRÇİ QAYALI

ŞUŞAM
("Şuşa alındı!" – dedilər)

Şuşam, sənə qonaq gəlim,
Arzum gözümdə qalmasın!
Həsrət gözlərim yol çəkir,
Bəs nisgilim azalmasın?

Gülünü şehli dərərəm,
Sinəmin üstə sərərəm,
Səhər tezdən su çilərəm,
Yollarında "toz olmasın"!

Qarabağ tarlı-qavallı,
Gözəlləri tirmə şallı,
Şikəstəli, cah-calallı,
Coşan səsin, sozalmasın!

Molla Pənah, sədan gəlsin,
Xanqızı, öz anam gəlsin,
Üzeyir, Seyid, Xan gəlsin:
"Aralıqda söz olmasın"!

Zərəngiz heyran halına,
Gül səpilib sağ-soluna,
Şeir qoşdum camalına,
Sevənlərin az olmasın!

DAĞLARA
("Kəlbəcər aləmdi!" – dedilər)

Başıaçıq, ayaqyalın,
Gedəm dağlara, dağlara!
Baş əyib, bir salam verəm,
Dədəm dağlara, dağlara!

Alaçığımı quraram,
Qulançarımı dərərəm,
Ürəkdən bir "HEYYYY!" – çəkərəm,
Sədam dağlara, dağlara!

Bahardı bu, güllü yazdı,
Çalınan üçtelli sazdı,
Haqq qələmi belə yazdı
Butam dağlara,dağlara!

Əhd etdim, Tanrım eşitdi,
Otuzillik həsrət bitdi,
Yağılar qovuldu, getdi!
Şadam, dağlara, dağlara!

Durna səfi düzülübdü,
Murovdan səda gəlibdi,
Dadıma Mövlam gəlibdi,
Adam, dağlara, dağlara!

Qələmmisən, varaqmısan?
Sükutmusan, soraqmısan?
Baxdım, söylə oyaqmısan?
Yetəm dağlara, dağlara!

Zərəngiz, nə işvə-nazdı?
Bu dünya olar-olmazdı,
Haqq qələmi belə yazdı,
Çatam dağlara, dağlar!

YAZILSIN BU GÜN

Şuşaya, Laçına xəbər göndərin!
Füzuli alındı, gəlirik deyin!
Darda qalanlarım gözləsin məni,
Sizin halınızı bilirik, deyin!

Rəhbərim and içdi Vətən adına!
Əsgərim and içdi torpaq adına!
Nigaran ruhlarım, nigaran yurdlar,
Sizlər də güc verin qol-qanadıma!

İgid əsgərinəm, candan keçərəm!
Vətənim gözləyir, vardı xəbərim!
Qalibəm mən bu gün, əziz anacan!
Duaların olub mənim sipərim!

Qarabağımı da azad edəcəm!
Kəlbəcərimə də rahat gedəcəm!
Atıldım mən hərbə, gülür gözlərim!
Bil ki, yaxındadır mənim zəfərim!

Vətənə canımı əsirgəmərəm,
Gözəl yurdlarıma bir salam verəm!
Qubadlı da məndən imdad istəyir!
Cəbrayıl: "Gəl, məni azad et!" – deyir!

İgid əsgərinəm, candan keçərəm!
Vətənim gözləyir, vardır xəbərim!
Mən bu gün qalibəm, əziz anacan!
Duaların olub mənim sipərim!

Xocam Xocalı da ayaq üstədir!
Xocavənd də hazır, kəmərbəstədir!
Əsir yurdlarım da nəfəs dərməyir,
Hər an: "Gəl, bizləri azad et!" – deyir

Mən türk oğlu türkəm, vardır hünərim!
İlham – Ərdoğan var gücüm, kəsərim!
Keçərəm, bil, bütün keçilməzləri!
Yazılsın bu gündən hünər dəftərim!

BAYRAĞIMI ÇƏK BAŞINA

Kim verəcək təpər bizə?
Qoy sevinsin bəşər bizə.
Vətən, güvən qeyrətinə,
Neyləyəcək bu şər bizə?

Çağırır odda yananlar,
Çağırır şəhid fidanlar,
Bayrağımı çək başına,
Utansın bizi dananlar!



Üçrəngli bayrağımız Kəlbəcərdə



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Füzuli Beynəlxalq Hava Limanının açılışında



Füzuli Beynəlxalq Hava Limanı

ŞƏHİD ŞAİRLƏR



Paytaxt Bakıda şəhidlərin xatirəsinə həsr olunmuş möhtəşəm yürüş. 27 sentyabr 2021-ci il



ŞAHGÜNDÜZ HABİL OĞLU CABBAROV

(13.09.1993 – 25.10.2020)

*QOCA QARTAL**

Qoca qartal, səsin gəlmir nədəndi?!
Yoxsa çağlar həmən çağlar deyilmi?
Niyə belə sakit-sakit baxırsan,
Sənin yerin uca dağlar deyilmi?

Qanad aç, qanad aç uca göylərə,
Özünlə ruhunu apar, a qartal.
Keçir caynağına mənfur düşməni,
Sahib ol o elsiz yurdlara, qartal!

Daha bağlanmasın qolun-qanadın,
Səs sal gülü solmuş bağça-bağa sən.
Bir milyon didərgin elin-obanın,
Yetir salamını Qarabağa sən.

DARIXDIM

Uşaqlıq illərim yadıma düşdü,
Keçən aydan, ildən ötrü darıxdım.
Dörd tərəfə pərən-pərən dağılmış
Bir obadan, eldən ötrü darıxdım.

Həyatı bir şirin nağıl biləndə,
Yersiz ağlayanda, yersiz güləndə,
Nənəmin dizində mürgüləyəndə,
Sığal çəkən əldən ötrü darıxdım.

Qəlbim aşıb-daşan sevgi çeşməsi,
Eşqin, məhəbbətin şirin nəğməsi.
Dərdim, sərim təkcə ata şilləsi,
Tir-tir əsən dizdən ötrü darıxdım.

Sinifi bəzəyən o gözəl qızla,
Günlərim keçərdi nə xoş güzarla.
Dərslərimdən "iki" alıb divarla
Baxışdığım küncdən ötrü darıxdım.

Hərdən çiçəkli yaz, hərdən qışam mən,
Eşqin ilhamından pay almışam mən.
25 yaşımda qocalmışam mən,
10 yaşlı Gündüzdən ötrü darıxdım

---

* Şəhid və qazi şairlərin şeirləri "Azərbaycan" jurnalının 2022-ci il, 11-ci nömrəsindən götürülmüşdür. *Tərtibçi*



XƏYYAM HÜSEYNAĞA OĞLU HÜSEYNOV
(11.06.1996 – 27.10.2020)

QOYUN MƏN ÖLÜM
BU TORPAQ ÜÇÜN

Qoyun mən ölüm bu torpaq üçün,
Siz hələ bir az da səbr edin, dözün.
Anam mənsiz qalsın, bacım qardaşsız,
Sonra da deyin ki: "Vətən sağ olsun!"

Əgər yumuruqsa qanı qan ilə,
Arxamca rəhmət də diləməyin heç.
Mən ki öz borcumu özüm vermişəm,
Ağlayıb göz yaşı tökməyin də heç.

AĞLA MƏNİM ÜÇÜN,
AĞLA, GÖZƏLİM...

Birdən vaxtsız döysə əcəl qapımı,
Ağla mənim üçün, ağla, gözəlim.
Ölüm bir andaca kəssə yolumu,
Ağla mənim üçün, ağla, gözəlim.

Bilirsən, kimsəyə yoxdur etibar;
Doğmamı ağlayar, yadmı ağlayar?!
Bu dünya hamını bir-bir unudar,
Ağla mənim üçün, ağla, gözəlim.

Demirəm gözündə sel olsun yaşın,
Qırışsın üz-gözün, ağarsın başın.
Unutsun, kaş ki, məni yaddaşın,
Ağla mənim üçün, ağla, gözəlim.

Ağla bu qismətə, ağla taleyə,
Ağla mənsiz qalan öz ürəyinə.
Ağla yazılmamış neçə şeirə,
Ağla mənimüçün, ağla, gözəlim.



Şəhid bulağı. Masallı



MİKAYIL YAQUB OĞLU VAHABZADƏ
(25.07.1993– 02.04.2016)

TƏLƏS, AZƏRBAYCAN ƏSGƏRİ

Şəhid qanı yerdə qalıb,
Tələs, Azərbaycan əsgəri!
Qoyma düşmən alıb-versin
Nəfəs, Azərbaycan əsgəri!

O ki Mübariz idi,
Könlündə Qarabağ dərdi.
Tanı Fərid, Çingiz kimdi?
Sordular Mübariz kimdi?
Dedik uca səslə: Dim-dik
durub Azərbaycan əsgəri!!!

Səni sevməkdən bezmədik,
Neçəmiz qurban getmişik.
Nə qədər şəhid vermişik,
Aman, Azərbaycan əsgəri!

Döyüşsüz torpaq alınmaz,
Bu qisas könüldə qalmaz.
Vuruşmasaq, azad olmaz
Vətən, Azərbaycan əsgəri!

MƏKTUB

Sevgilimə yazıram bu məktubu,
Bəlkə də, yazdığım son yazıdı bu.
Mən ölsəm, ağlama, kədərlənmə sən,
Bəlkə, onda rahat uyuyaram mən.

Səngərdəyəm, dörd tərəfim od saçır,
Başımız üstündən güllələr uçur.
Ümid yoxdur bu günümdən sabaha,
Gözləməyin, məncə, əbəsdir daha.

Gəncə,
N saylı hərbi hissə
11 sentyabr 2015



Şəhid bulağı. Şəmkir



NAZİM NADİR OĞLU ZƏKARAYEV
(31.08.1997 – 02.04.2016)

MƏNİ GÖZLƏYƏRSƏN GƏLƏNƏ KİMİ?

Bilmirəm bilərsən, bilməyəcəksən,
Adımı qəlbindən silməyəcəksən.
İl yarım üzümü görməyəcəksən,
Məni gözləyərsən gələnə kimi?

Adını qəlbimə şirin yazmısan,
Sən mənim qəlbimdə nübar yazmısan.
Hamıyla görüşdüm, bir sən qalmısan,
Bunu bilməyirdim dünənə kimi.

Gedirəm düşməndən kamımı alım,
Torpağımı alım, qanımı alım.
Şəhid oğlanların yanında qalım,
Göylərdə Allahım bilənə kimi!

Qardaşım da mənsiz durammayacaq,
Anamın göz yaşı dayanmayacaq.
Atam ölümümə inanmayacaq
Tabutum çiynində gedənə kimi.

***

Yuxuda görürəm qurtarır zülm,
Sevdiyim qaçaraq gəlir yanıma.
Az qaldı yuxuda sevincdən ölüm,
Çox şükür, dəymədi xudam canıma!

***

Böyüyə, kiçiyə hörmət elədim,
Allaha inandım, niyyət elədim.
Altı ay Vətənə xidmət elədim,
Torpaqdan yaranıb, torpağa döndüm.

Yol saldım, düşmənin düşdüm izinə,
Şəhidlik zirvəsin seçdim özümə.
Cənnətin qapısın açıb üzümə,
Şirvana üçrəngli bayraqla döndüm.



Şəhid bulağı. Balakən



SALEH NAMİQ OĞLU ƏLİYEV
(18.08.1992 – 15.10.2020)

SAXLA GÖZ YAŞINI MƏN GƏLƏN GÜNƏ

18 ay olur əsgər həsrəti,
Şərəflə eləyir əsgər xidməti.
Beləcə il yarım bitər, inşallah,
Saleh də evinə dönər, inşallah

Darıxma, ay anam, darıxma, atam,
Ağlama, sevgilim, sən də heç zaman,
İslatma gecələr baş yastığını.
Sən ağlayanda,
Mən də qaçırıram axı, yuxumu.
Sən ağlayan kimi, bilirəm axı,
Saxla göz yaşını mən gələn günə,
Özüm siləcəyəm onları axı.

POST ƏSGƏRİ

Anacan, darıxma sən oğlun qədər,
O, postda dayanır, Vətən qoruyur–
əlində avtomat səhərə qədər.
Sən dua elə ki, oğlun
Salamat qayıtsın.
O, postda durub ki,
Anası rahat yatsın.
Ana gözləri yolda, tək oturub otaqda,
Oğlu isə səngərdə, düşmən ilə üz-üzə...
Oğul narahatdır ki, birdən atışma olar,
Xəbər gedib qəfilcə yorğun anaya çatar...
Ana narahatdır ki, oğlu soyuq gecədə
Daş, torpaq üstdə yatar...
Gecələr anasının gözləri yuxu görməz,
Narahat ürəyinə şübhə, qorxular dolar...
Belə açılar səhər, belə keçər gecələr,
Ana oğlunu gözlər,
Oğul da anasını.



Zəfər paradı



KƏRİM RÖVŞƏN OĞLU ƏHMƏDƏLİYEV
(12.06.1998 – 04.10.2020)

QARABAĞA GEDƏCƏYƏM...

Baş qoyum sinənə, ay ana Vətən,
Nə çox igidin var dadına yetən.
Durna qatarına mən də qoşulub
Ana qucağına həsrət körpətək
Uça-uça Qarabağa gedəcəm.

Neçə-neçə igidlərlə
Yağı düşmən tapdağından
Torpağımı alacağam.
Qanım ilə, şücaətim, canım ilə
şəhidlərin qisasını alacam,
Qarabağa gedəcəm!

BU QAN YERDƏ QALMAYACAQ

Vətən üçün candan keçən igidlər!
Siz ölmədiz, siz sağsınız!
Bir yurdun sinəsində əsrlərlə
Yaşayacaq bir cansınız.
Siz bilin ki,
Bizim üçün siz sağsınız,
Siz bilin ki, imanımız,
İmanımız, gücümüzlə
Bu qan yerdə qalmayacaq!
Bu qan yerdə qalmayacaq!
Alacağıq qisasını
Sizintək mərd oğulların.
Alacağıq yol gözləyən o yurdların,
Məzarların, torpaqların qisasını.
Qıracağıq inadını namərd, yağı düşmənlərin!!!

Siz bilin ki,
Bizim üçün siz sağsınız,
Siz bilin ki, imanımız,
İmanımız, gücümüzlə
Bu qan yerdə qalmayacaq!



Zəfər paradı



SAMİR TƏYYUB OĞLU ŞÜKÜROV
Baş leytenant
(07.11.1974 – 08.11.2020)

AND YERİM OLACAQ MƏZARIN ƏSGƏR

Yuxunu sən ərşə çəkmisən bu gün,
Durmusan düşmənlə üz-üzə, əsgər.
Qələbə sevincin eşidək bu gün,
Verəsən Zəfərin xəbərin, əsgər!

Daha geriyə də qalmayıb bir yol,
Bütün ümidimiz sənədir, əsgər.
Yalnız irəliyə gedəcək bu yol,
Edəcək səni də qəhrəman, əsgər!

Yeni müjdələrlə sevindir bizi,
Qoy görsün səndəki hünəri, əsgər.
TANRIM zamin durub qorusun sizi,
Qarabağ bizimdir, bil bunu, əsgər.

Az qalıb qələbə marşına, çox az,
Bizə bu anları sən yaşat, əsgər.
Qışda dönüb olar bu yerlər bahar,
Qanınla bir tarix yaz yenə, əsgər!

Səni hər kəs anıb xatırlayacaq,
Əgər şəhid olsan, bunu bil, əsgər!
Məzarın üstündə gül qoxuyacaq,
And yerim olacaq məzarın, əsgər!

Müqəddəs anasan mənimçün, Vətən,
Səndən keçə bilməz hər gələn-ötən.
Uğrunda canımız, qanımız fəda,
Ey mənim sarsılmaz, alınmaz qalam.

Tarixlər, zamanlar sən fəth etmisən,
Gəlib məqsədinə indi yetmisən.
Çox çətin, əzablı yollar keçmisən,
Hər kəsin qəlbində böyük sevgisən.

Səni sevir hər kəs öz ANASITƏK!
Sənincün döyünür qəlblərdə ürək.
ZƏFƏRİN çox olsun, biz də sevinək,
"AZƏRBAYCAN!" deyək, biz də öyünək.

Mənim doğma elim bu Odlar yurdu!
Müstəqil, suveren bir ordu qurdu.
Buludlar dağıldı, sular duruldu,
Düşmən bunu görüb tar-mar oldu.

Vətən mənim üçün hər şeydən əziz,
Ona sevgim vardır təmizdən-təmiz.
O mənə əzizrdir, müqəddəs-əziz!
O mənə ağadır, mən ona kəniz!!!



NƏCMƏDDİN AKİF OĞLU SAVALANLI
Kapitan
(26.02.1985 – 08.05.2016)

NƏ OLUR BİR DƏFƏ YUXUMA GƏLSƏN...

İnsan tez qocalıb yaşa dolarmı,
Həyatın sevinci mənə qalarmı?
İlahi, bu qədər gözəl olarmı,
Elə bil şəkərdi, baldı sevdiyim.

Eşqiylə bəzəyib sevən dünyamı,
Heç belə sevmədi Məcnun Leylanı.
O mənim ömrümün adı, mənası,
Sinəmdə bir qoşa xaldı, sevdiyim.

Görməsəm oluram, vallah, biqərar,
Qoşuram adına şirin mahnılar.
Çıxaydı qarşıma yenə, nə olar,
Görəndə canımı alır sevdiyim.

Adına yazmışam bu şeiri sərsəm,
Ömrümün adı da, dadı da sənsən,
Nə olur bir dəfə yuxuma gəlsən,
Ömürlük yataqda qalım, sevgilim.

Mart 2000-ci il

***

Durun gəlin, igidlər, axı dövlət bizimdir,
Qarabağda qırılan, ölən millət bizimdir.

Yeddi rayon qalıbdır erməni tapdağında,
Qaldı başım bəlada, indi minnət bizimdir.

Şuşa, Laçın, Ağdərə... həsrətdilər bizlərə,
Çözə bilmədiyimiz, dərin həsrət bizimdir.

Baş bədəndən aralı, tankla qırdı milləti,
"Qara 20 Yanvar" adlı dəhşət bizimdir.

Savalanlı elində söz deyən şair mənəm,
Ululardan nişanə qalan ibrət bizimdir.

Noyabr 2000-ci il



Beyləqan Bayraq Muzeyinin binası



RASİM MİRYAQUB OĞLU ABDULLAYEV
Polkovnik-leytenant
(21.02.1975 – 10.11.2020)

Mən böyüdükdə dərk elədim ki, insan ona verilən ömrün fani olduğunu, gec-tez müvəqqəti həyatının bitəcəyini bilə-bilə necə olur ki, daima mübarizə aparır, çətinliklərə sinə gərir, ağır məhrumiyyətlərə dözür və nəhayət–yaşayır, yaradır. Əslində hər bir insanın daxilində bir ümid, bir inam yaşayır. Elə insanın ömrü onun içərisində olan ümidin ömrü qədərdir.

*YAŞADIM**

Qəmə mahnı qoşub nəğməkar oldum,
Mən belə doğulub, belə yaşadım!
Təkcə ayrılıqdan gözlərim doldu,
Qalan vaxtı ölə-ölə yaşadım!

Yar deyəndə dodaqlarım büzüldü,
Gözümdən üzümə qəhər süzüldü.
Bu ürəyim çırpıldıqca üzüldü,
Vallah məniydim ki, hələ yaşadım!

Rasim can versə də elə yar anar,
Belə sevgi əsrdə bir yaranar...
Hamı elə bilir qırx bir yaşım var,
Gün olub ki, qırx bir ilə yaşadım!

MƏZAR

Hanı bu məzarın ziyarətçisi...
Təklikdən boynunu büküb bu məzar.
Elə köhnəlib ki.., sanki illərin
Tozunu üstünə çəkib bu məzar!

Kimə gileylənsin tənhalığından,
Küsüb taleyinin fağırlığından.
Bəlkə də, həsrətin ağırlığından,
Bir gün görəcəksiz çöküb bu məzar!

Başına gül taxdım külək qopardı,
Ay ana, gələcəm, ömür qurtardı...
Eşidəssiz öz yanına apardı,
Gözünü Rasimə dikib bu məzar!

YARAŞMAZ BİZƏ

Elə bil son vaxtlar uşaqlaşmışıq,
Bir-birin sözünü uda bilmirik...
"Kim kimi çox sevir"– sözünün üstə,
Bir eşqi atırıq oda, bilmirik...

Bu gecə yuxuda adam öldürüb,
Gördüm günahkaram, qatil olmuşdum.
Elə əsirdim ki, sanki mən elə –
Sevgimi öldürüb gözdən salmışdım...

Günahkar axtarma, tapılan deyil
Sonunda yenə də yanası sənsən!

---

* Buradakı şeirlər Rasim Abdullayevin "Mən belə doğuldum, belə yaşadım" kitabından götürülmüşdür. Aspoliqraf. 2022.Tərtibçi.

Bu kövrək, bu məsum körpə sevdanın,
Atası mənəmsə, anası sənsən!

Bu günə gəlmişik nələrdən keçib,
Acılar dadmışıq, bal itirmişik...
Günümüz olub ki, əsrə bərabər,
Bir anın içində il itirmişik...

Bizim odumuz bir, tüstümüz birdi,
Qonşunun tüstüsü qarışmaz bizə...
Unut keçənləri, mənim əzizim,
Şıltaqlıq eləmək yaraşmaz bizə!

İNSAN

Bir kökdən yaranıb bütün yaranmış,
Yamanlıq edirsən kim ilə, insan!
Özündən zəifin boynundan basıb,
Zəhərlər içirtmə cam ilə, insan!

İblis şeytanlaşdı etdikcə sitəm,
Sildi günahını tövbəylə Adəm.
Hanı haqq-ədalət – mən ki gəzirəm
Gündüzlər əlimdə şam ilə, insan!

Süleyman hökm etdi əsən küləyə,
Əcəldən bəs macal almadı niyə?
Doldurma qarnını varımdır deyə,
Dünya nemətindən tam elə, insan!

Əqlində hər işdə gətir ALLAHI,
Bil ki, eyləyən var axşam-sabahı.
Çıxar misqal-misqal yetimin ahı,
Əylənmə taleyi kəm ilə, insan!

Rasim, qanunudur bu təbiətin,
Yaranmış dadacaq ölüm şərbətin!
Dünyagörmüş babaların söhbətin,
Yığıb xilqətində cəm elə, insan!



Rasim Abdullayev silahdaşları ilə cəbhəyə yola düşərkən. 26 sentyabr 2020-ci il



Rasim Abdullayev yoldaşları ilə döyüş bölgəsində

QAZİ ŞAİRLƏR

Ali Baş Komandan İlham Əliyev xanımı Mehriban xanım Əliyeva ilə Şuşada Mollah Pənah Vaqifin büstü önündə

Qazi şairlər Şuşada Vaqif Poeziya Günlərində çıxış edərkən



EMİN PİRİ


SƏN AZADSAN!

Saçımda anamın xınası,
yolların ayaqlarımçün duası,
gözlərimdə hələ bizim olmayan
uzaqlıq
deyir:
Sən azadsan!
Sən azadsan!

Ayaqlarım cığırlara yalvarır:
QARABAĞ,
biz sənin övladınıq,
ilk dəfə gördüyün övladlar.
At ayaqlarımızdan uzağa
bətnində gizlətdiyin minaları.

Füzuli, Cəbrayıl, Hadrut cəbhəsi...
Burda ulduzlarla deyil,
hər minamyot mərmisiyilə sayırıq
yarım qalan ümidləri,
anaların göz yaşını.
Bir döyüşçü sevgilisinin
bətnində ölən arzusunu.

Günlərdir danışmırıq.
bilirəm, narahatsan, ana.
Bəlkə, gecələri ağlayıb,
şəklimlə ovunursan, ana.
Səni Füzulidən eşidirəm, ana,
Səni Cəbrayıldan görürəm, ana,
Sənə Şuşadan əl yelləyirəm, ana.
Formamda şəhid qardaşlarımın qanı,
gözlərimdə 44 gecənin yuxusuzluğu,
bir az həyəcan, bir az da
sevinc tərinə qarışan geyimim.
Təqvimdəki "8 noyabr"
Qarabağ torpağıyla, palçığıyla
büsbütün vətənləşən bədənimiz
və
bizi gözləyən Azərbaycan
meydanlarda, ürəklərdə, gözləriylə hayqırır:
Sən azadsan!
Sən azadsan!



Azadlığa qovuşmuş Həkəri və Bərguşad çayları



EYVAZ ƏYYUB

SALAM, ATA YURDUM, ANA OCAĞIM...

Baxdım ki, Kəlbəcərdə dünyaya göz açdığım
evin içində ağac, gül-çiçək bitib...

Salam, ay illərin həsrəti, salam,
Bizsiz darıxmısan, hövsələn darmı?!
Salam, ev içində bitən gül, çiçək,
Bizi kənd etməyə həvəsin varmı?

Salam, ata yurdum, ana ocagım,
İllərin həsrəti bitdi, gəlirik.
Sən bizsiz, biz sənsiz çox darıxmışıq,
Vüsal arzusuna yetdi, gəlirik.
Vüsal arzusuna yetdi, gəlirik.

Salam, "Səngər" qala, salam, daş evim,
Balan üşüyübdü, qucagını aç.
Tanrım, bu torpağa ayaq basanda
Göydən nur səpələ, ömrə sevinc saç.

Gizli cığırları bağlayan ağac,
Bizi düşmənlərdən qorumaq çətin.
Yerimə bitmisən evin içində,
Ağacı olaydım bu məmləkətin.

Bu qaya babama necə oxşayır,
Dözümü, qüruru görürəm onda.
Biz yurdu sahibsiz qoyub gələndə,
"Mən çıxıb getmərəm" demişdi onda.

Əl vurmayın qayalara, daşlara,
Yetim qalan yurda keşik çəkibdir.
"Bu yurdun sahibi geri gələcək", –
Hər gün deyib gözdən qan-yaş tökübdür.

Salam, dar cığırlar, yol verin keçim,
Əyilim torpaqdan öpüm, barışaq.
Balan bil, qoynuna gəlmişəm sənin,
Böyüklük səndədir, gəl qucaqlaşaq.

Salam, buz bulaqlar, kövsər bulaqlar,
Həsrətdən qaynayıb coşdun, bilirəm.
Sinəndən tökülən göz yaşlarındır,
Nə qədər qəm, kədər çəkdin, bilirəm.

Otuz ilə qədər keşik çəkdiniz,
Sağ olun, bu evin yiyəsi gəlib.
Oğlum qaya, qızım çiçək, anam su,
Paslı qılıncların tiyəsi gəlib...



Zəfər parkı



ORXAN SƏLİFOV

MƏN ŞƏHİD OLMUŞAM, ÖLMƏMİŞƏM Kİ...

Mən bu gün şəhidəm, qan içindəyəm,
Ölüm başım üstə günahım kimi.
Yıxılıb qalmışam səngər içində,
Sahibsiz, boş qalan silahım kimi..

Mən şəhid olmuşam, ölməmişəm ki,
Tanrı şərəf yazdı taleyimizə.
Şəhidlik ən uca zirvə sayılır,
Həmin o zirvədən baxacam sizə.

Siz də üzülməyin, mən üzülmürəm,
Axı öz arzuma çatıram bu gün.
Torpağın üstündə gəzəsiz deyə,
Torpağın altında yatıram bu gün.

Mən öldüm, nə qaldı məndən geriyə?
Bir məzarım qalıb, hər yanı daşlı.
Tozlu cəkmələrim, qanlı paltarım,
Hə, bir də anamın gözləri yaşlı...

Ağdam, Çəmənli kəndi,
16 oktyabr 2020

MÜHARİBƏ NƏDİR, BİLİRSƏNMİ SƏN...

Müharibə nədir, bilirsənmi sən?
Gözünü yumaraq qan tökməlisən.
Müharibə nədir, bilirsənmi sən?
Şirin arzulara xətt çəkməlisən.

Müharibə nədir, bilirsənmi sən?
Hər şeyi unudub düz getməlisən.
Müharibə nədir, bilirsənmi sən?
Ölümü daima hiss etməlisən.

Müharibə nədir, bilirsənmi sən?
Son nəfəsin verən can görəcəksən.
Müharibə nədir, bilirsənmi sən?
Dönüb hara baxsan, qan görəcəksən.

Müharibə nədir, bilirsənmi sən?
Silah yoldaşına bel bağlamaqdır.
Gecə deyib-gülüb, səhər olmamış,
Cansız bədənin qucaqlanmaqdır.

Müharibə nədir, bilirsənmi sən?
Əcəl hər anında oyun çıxardır.
Müharibə nədir, bilirsənmi sən?
Anaların şəvə saçın ağardır.

Ağdam,
22 dekabr 2020



HƏSƏN KÜR

SON DÖYÜŞ

Şeirdə adları çəkilən Raqil və Sübhan eyni gündə döyüşə qatılan, eyni gündə şəhid olan Salyan rayonu Dayıkənd kəndinin şəhidləridir.

–Raqil eşidirsən? Mənə cavab ver!
–Sübhan, mən, deyəsən yaralanmışam.
Tərpədə bilmirəm heç bir yerimi,
Elə bil ölmüşəm, cansız bir daşam.

–Yox, sən ölməyəcək, yaşayacaqsan,
İndi harda olsa gələr uşaqlar.
Qardaş, ürəyini buz kimi saxla,
Onlar gəlib bizi aparacaqlar.

–Sübhan, sən necəsən? Yaran dərindi?
–Bilmirəm, amma bərk ağrıyır başım.
–Özünü qorxutma, bir az möhkəm ol,
Sən sağ qalacaqsan, əziz qardaşım.

–Komandir! Komandir! Yoldaş leytenant!
–Dayan, Sübhan, dayan, yorma özünü.
Deyəsən, komandir şəhid olubdur,
Həyata əbədi yumub gözünü.

–Yazıq... yetim qoydu uşaqlarını
Canın qurban verdi Ana Vətənə.
Dünən gecəyarı bir az dərdləşdik,
Qızının şəklini göstərdi mənə.

–Danışma, qardaşım, taqətdən düşmə,
Mənim indi səndən bir istəyim var.
Götür bu məktubu, mən şəhid olsam,
Verərsən anama, açıb qoxlayar
Bilsin ki, içimdən nə hisslər keçib,
Bilsin ki, Vətəni necə sevirdim.
Təsəlli tapsın ki, mən şəhid oldum,
Sevinə-sevinə məzara girdim.

–Yox, ölməyəcəksən, belə danışma!
Anan qalmayacaq gözləri ağlar.
Bütün qohumların, bütün dostların
Gələn il toyuna yığılacaqlar.

Birlikdə gəlmişik cəbhəyə, Raqil,
Kəndə də birlikdə qayıdaydıq kaş.
Əgər yolumuzu ölüm kəsdisə,
Sən ölmə, yerinə mən ölüm qardaş.

–Ay Sübhan, bədənim oldu buz kimi,
Gözüm heç bir yeri görmür elə bil...
–Dayan... bir az dayan, ölmə qardaşım,
Raqil... ölmə Raqil...cavab ver Raqil...

Qubadlı, 10 noyabr 2020



SƏRXAN YOLÇUYEV

VƏTƏN

Bir arada görmək üçün fəda eylərəm canımı,
Cənubu, Qərbi olmaqla – bütöv Azərbaycanımı.
Qarabağın gülşəninə qoy çiləsinlər qanımı.
Təki qanım deyən yerlər çiçək açsın, çəmən olsun,
Təki Vətən yarımçıq yox, Bütövləşəmiş Vətən olsun!

Sənə qurban Vətən, canımız da, paramız da,
Otuz ildir səbir edərək duz səpmişik yaramıza.
Mən razıyam, gəl bölüşək iki şeyi aramızda:
Sənə düşən ZƏFƏR olsun, mənə düşən kəfən olsun,
Təki Vətən yarımçıq yox, Bütövləşmiş Vətən olsun!

Arzum budur Qarabağda saray tikdirsin Millətim,
Həyətində azadlığın gülün əkdirsin Millətim.
Gün gəlsin ki, Qarabağda şəkil çəkdirsin Millətim.
İstəmirəm bu Vətənin həsrətini çəkən olsun!
Təki Vətən yarımçıq yox, Bütövləşmiş Vətən olsun!

QƏM YEMƏRƏM

Əcəl, məni çox sınama,
Ömrüm yarım qalsın... amma,
Qalan ömrümü Anama
Verib ölsəm, qəm yemərəm.

Ordumuz alsa torpağı,
Önümdə diz çöksə yağı,
Kəfən əvəzi bayrağı
Geyib ölsəm, qəm yemərəm.

Ruhumu verib Tanrıya,
Göz yumaram bu dünyaya.
Mən Kəbəyə, Kərbəlaya,
Gedib ölsəm, qəm yemərəm.

Ən gözəl məqam zamanı,
Namazda salam zamanı.
Çönəndə İmam Zamanı
Görüb ölsəm, qəm yemərəm.

Bu fələyin hökmü qəti,
Görmədim haqq-ədaləti,
Sonda kəlmə-şəhadəti,
Deyib ölsəm, qəm yemərəm.



SƏNAN AĞAVERDİYEV

"OĞULLAR ÖLDÜ Kİ,
VƏTƏN SAĞ OLSUN!"

Bir şəhid ruhunun söylədikləri

Baxıram ətrafa, hər yer ağ-qara,
Sanki rənglərimin boyası bitmiş.
Hər kəs gəlib yardım etmək istəyir,
Amma mənim ömrüm sona yetmiş.

Bilmədim nə oldu, nə səbəb oldu,
Əlçatmaz boşluqda duydum özümü.
Bir anlıq gözümdə dünya qaraldı,
Sonra bu həyata yumdum gözümü.

Bir quş lələyitək uçurdu ruhum,
Gedib Tanrı dərgahına çatmışdım.
Şəhid dostlarımın yanında idim,
Ətraf işıq, nur içində batmışdım.

Həyatım bir anda keçdi gözümdən
Beşikdə olduğum günləri gördüm.
Gecənin bir anı yuxudan duran,
Mənə layla çalan anamı gördüm.

Cənazəm büküldü şanlı bayrağa,
Hər kəs etiramla durub ayaqda.
Qapımıza çatdıq, hamı dayandı,
Səssizlik bir anda döndü fəryada.

Səslərin içində bir səs tanıdım,
Mənə layla çalan ana səsiydi.
Acı haray ilə bala çağıran,
Anamın fəryadı, ah-naləsiydi.

Bu səsdən diksinib ağladım mən də,
Amma gözlərimdən yaş da gəlmədi.
Durub qucaqlamaq istədim onu,
Dondu ayaqlarım, heç tərpənmədi.

Bir xəbərdən saçlarına dən düşən,
Ağlamaqdan görməsini itirmiş.
Qışqırmaqdan səsi batan anamın
Bircə oğlu onu görməyə gəlmiş...

Kaş ki başqa cürə gələydim bura,
Sürünərək bu həyətə girəydim.
Diz çökəydim qabağında, ay Ana,
Keçdiyim yollardan bəhs eləyəydim.

Bizim qismətimiz beləymiş, Ana,
"Üzülmə" desəm də, nə faydası var?!
Üzümlə dedikcə üzülür adam,
Bu sözün bu anda nə mənası var?

Mən evə gələndə gülümsəyərək,
Məni qarşılayan həyatım indi –
Tabutum önündə donub dayanıb,
Titrək nəfəsiylə sakitcə dindi:

"Mənə demişdilər dur çıx qapıya,
Qarşıla, döyüşdən yarın gələcək.
Axı mən görmədim onu heç yerdə.
Bəs bu qədər adam niyə gəlib ki,
Onu gözlədiyim belə bir gündə?"

Bağışla, sevgilim, məni bağışla,
Verdiyim sözümü tuta bilmədim.
Gələcəm deyəndə hardan biləydim
Tabutda dönəcək şəhid əsgərin!


Məzarlığa gəldik, hər kəs pərişan,
Dirilər hüznlü, ölülər hüsran.
Şəhid gəlir deyə, dolmuş məzarlıq,
Atamı axtardım, hardadır yazıq?

Gördüm dik durmağa çalışır atam,
Həyatda hər şeyə güc gələn adam.
Amma ayaqları birdən boşaldı,
Dizləri üstündə yerdə dayandı.

Alıb sinəsinə bayrağı basdı,
Gözündən aramla yaşlar axırdı.
Məni qucağında böyüdən atam
İndi son mənzilə yola salırdı.

Dərin baxışlarla baxırdı mənə,
Bütün ümidləri puça dönmüşdü.
Məni gözləməkdən qocalan Atam
Mənimlə birlikdə o da ölmüşdü.

"Yerin cənnət olsun" – deyərək susdu,
Daha başqa bir söz deyə bilmədi.
Üçrəngli bayrağı bağrına basıb
Titrək bir səs ilə belə söylədi:
Şəhidlər ölməzdir, Vətən bölünməz,
Şəhidlər ölməzdir, Vətən bölünməz!



CAVİD ƏLİ OĞLU

OLMA BUNDAN NARAHAT Kİ, SİLAHIN QALDI YETİM

Razılaşma qoca sülhün təzə fərmanıyla,
Başını torpağımız qatmadadır canıyla,
Otuz ildir yaralanmış vətənin qanıyla,
Qəlpələnmiş şəhidin qanı da üst-üstə düşür.

Çox dua var ki, möhürlənmiş olub bizdə dilə,
Bu vətənçün nə dilərsənsə bu gün, sən də dilə.
Ananın bizlər üçün çəkdiyi hər nalə ilə,
Sənin hayqırtı səsinlə azan üst-üstə düşür.

Sanki səngərdə ümidlər durur əsgər yerinə,
Arzulardır yanağından süzülür tər yerinə,
Sonra səngərlə yayılnış vətənin hər yerinə,
Bu Vətənlə onun ad-sanı da üst-üstə düşür.

Olma bundan narahat ki, silahın qaldı yetim,
Bura bir yerdi ki, burda nə ölüm var, nə itim.
Sual etmə Vətənə canımı versəm nə edim?! –
Can verən kəslərin imkanı da üst-üstə düşür...

PƏNCƏRƏ

Yolum məni bu evə necə gətirdi, Allah?
Bu ev kimin evidir, mən hara, bu ev hara?
Bu sahubsuz otaqlar yetimdirlər, elə bil
Az qalır qonağa da getmə deyib yalvara.

Açdım pəncərəsini, havasını dəyişsin,
Bir anda pəncərəsi keçmişinə açıldı.
Azyaşlı qız uşağı əlində oyuncaqla,
Vətən boyda həyətin ortasında qaçırdı.

Ondan bir az qıraqda atasıyla anası
Masanın ətrafında danışırdı, gülürdü.
Tanrının göylərindən yerə boylanan günəş
Həyətin adamların şəfəq-şəfəq güdürdü.

Sataşdı gözlərimə məktəbli gündəliyi,
Baxdım, yazılmayıbdır arxada "qan yaddaşı".
İstədim ölkəm boyu sevincimdən qışqıram,
Mənə "sus" dedi evin həm divarı, həm daşı

Günəşin şəfəqləri o an qana bələndi,
Mərmi-mərmi dəyişdi otağın mənzərəsi.
Allah! Sən olmasaydın, xəcalətdən ölərdim,
Məni öldürməsəydi otağın pəncərəsi!



NİCAT AĞAYEV

ŞƏHİDİM

Cənnətdəki bir ilin
Necə keçdi, şəhidim?
Bizə günlər qaranlıq
Gecə keçdi, şəhidim.

Sən gedəndən yanmayır
Evimizdəki ocaq.
Bilmədik heç körpəni
Necə sənsiz ovudaq?

Gözüyaşlı qoyduğun
Yarın halı yamandır.
Şuşa kimi vətənin
Hər tərəfi dumandır.

Toy yolunu gözləyir,
Heç ananı demirəm.
Hər gün süfrə açır ki
Balam gəlir, bilirəm.

Bükülübdür atanın
Sən gedəndən qaməti.
İçdən-içdən əriyir,
Baxma şuxda surəti.

Yadına salırsanmı
Bizimlə son anları?
Su istədin, tapmadım,
Su içmisənmi barı?

Orda necə baxırlar,
Torpaqdamı yatırsız?
Qış da gəlir qabaqdan
Yorğansızmı yatırsız?

Sağollaşaq, şəhidim,
Çox vaxtını almayım.
Arada gəl yuxuma,
Çox nigaran qalmayım.

Görəndə salamlayın
Şəhidlərin ağasın.
Halal edin bizlərə
Bu Vətənin havasın.

VƏTƏN

Oyaram gözlərini kimsə baxa yan Vətənə,
Min canım olsa dəxi, hər biri qurban Vətənə.

Çəkilib qanlı Araz bağrımız üstündə axır,
O tay hicran Vətənə, bu tayı hicran Vətənə.

Bülbülü nəğmə demir işğal olandan Şuşamız,
Elə bil qarğa qonub bağı gülüstan Vətənə.


Bir zaman doğma olan Dərbəndi ziyarət edib,
Ciyərim yandı, necə olarsan mehman Vətənə.

Hər qarış torpağın qaytaracıq hər nə ola,
Lazımsa qan verərik, lazım isə can Vətənə.

Bəlkə sən görməyəsən, amma Nicat birləşəcək,
Onda tam söylənəcək Azəribaycan Vətənə.



Azərbaycan tankçıları



OĞUZ ALPARSLAN

TÜRKƏM MƏN

Mən Türkəm! Əyilməz önümə başım,
Odlar diyarının balasıyam mən.
Qılıncdır, qalxandır mənim yoldaşım,
Mərdliyin yenilməz, qalasıyam mən.
Türkəm mən!

Elim Oğuz eli,
Milliyyətim Türk!
Yurdum Azərbaycan!
Köküm, soyum Türk!
Anam Türk,
Babam Türk,
Türk oğluyam, Türk,
Türkəm mən!

Al qana boyanan
Al bayrağım var,
Sinəmdə döyünən qurd ürəyim var,
Mənim bükülməyən
Türk biləyim var,
Türkəm mən!
Bozqurdam, sözümün ağasıyam mən,
Şimşəktək gurlayıb çaxasıyam mən,
Dönüb Qarabağın yanan köksünə
Yurdum Xocalıya yağasıyam mən!
Türkəm mən!
Türkəm mən!

AZƏRBAYCAN

Qurban bu can hər daşına,
Hər zərrənə, qarışına.
Bir gün ölsəm, başdaşıma
Yazılsın tarix daşına,
Canım qurban, Azərbaycan.

Elim sənsən, obam sən,
Yurdum sənsən, yuvam sən,
Haqq yolunda davam sən,
Vətənim sən, Azərbaycan.

Sən sinəmdə çarpan ürək,
Sən dilimdə and yerisən.
Dörd dolansam dünyanı,
Sən bu ömrün bənd yerisən.

Adına şeirlər qoşaram, vətən,
Səni misra-misra oxşaram vətən.
Yoxdur bərabərin, yoxdur sənə tən,
Sənincün ölərəm, yaşaram vətən.

Göz qoysa yağılar bircə daşına,
Uğrundan düşmənə çəpər olaram,
Əldə silah, vətənimin eşqinə,
Sinəm qalxan olar, sipər olaram.
Lap beşikdən məzaracan,
Əzəlindən taa sonacan,
Sancağına fəda can,
Azərbaycan, Azərbaycan.

23i yul 2022



SƏBUHİ QURBANOV

QARABAĞIM

Verib sənə "söz", gəlmişik.
Polad, Mübariz gəlmişik...
Qarabağım, biz gəlmişik.
Salam verir daşım, dağım,
Gözün aydın, Qarabağım!!!

Bülbüllərin gülə gəlib,
Tutaraq əl-ələ gəlib,
Xarıbülbül dilə gəlib.
Al-əlvandır solum, sağım,
Gözün aydın, Qarabağım.

Gözü qanlı qurdu gördüm.
Dəmir yumruq, ordu gördüm.
Xalq ayağa durdu, gördüm.
Cəngi eşitdi qulağım,
Gözün aydın, Qarabağım!!!

Biz tarixdə qalan izik.
Siz bizsiniz, biz də sizik.
Qəhrəmanlar eli bizik,
Çınqımdan yandı ocağım.
Gözün aydın, Qarabağım!!!

Yağı mənim qonşum olub.
Sanma ondan qorxum olub.
Uşaqlıqdan arzum olub
Şuşaya dəysin ayağım...
Gözün aydın, Qarabağım!!!



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Şuşa şəhərində



Qəlbləri riqqətə gətirən fərəh. Xarıbülbül festivalı



KƏRƏM AYDIN

ŞANLI ZƏFƏR

Bir ali məhəbbət yaşadır əsgər içində,
Hər gün vətən üçün döyüşər səngər içində.

Haqqın yoludur tutduğumuz yol, bilir Allah!
Haqq əhlini qoymaz qala heç vaxt şər içində.

Artıq dığalar, şanlı zəfər tariximiz var,
Qan yaddaşımız qeyd olunan dəftər içində.

Torpaqlarımızdan ki, sizi it kimi qovduq,
Qaldız taaa o gündən bu günə dərd-sər içində.

Gördüz ki, bacarmırsız igid Azərilərnən.
Qaçdız üzü Vazgen tərəfə qan-tər içində...

Sən qanlı döyüşlərdə, Kərəm, qorxmadın əsla!
Qorxmaqmı olar bir belə cəngəvar içində.



TOFİQ ƏHMƏDOV

BİZƏ QƏLƏBƏNİ NƏSİB ET, ALLAH...

Səngərdə əsgərim... Hava da çiskin,
Döyüş davam edir aramsız, kəskin.
Atılır mərmilər, toplar dayanmır,
Heç kim bircə an da bezmir, usanmır.

Ölümün gözünə dik baxan əsgər,
Əcəli qorxudur sanki bir qədər.
Təmizlənir üzlər "qara ləkədən",
Şəhidlər zəfərlə dönür cəbhədən.

30 il səbirdən əsər də yoxdur,
İndi zəfər üçün inam da çoxdur.
Dayanmaq sözünü unudan əsgər
Dünyanı düşmənə cəhənnəm edər.

Vətənin qorxusuz mərd oğulları
Bağlayır düşmənə bütün yolları.
Döyüş davam edir hər gün daha çox,
Bu yoldan geriyə dönüş yoxdu, yox.

"Yastığımız vətən daşı, yorğanımız qar oldu.
Biz bu yoldan dönməz olduq, Allah bizə yar oldu".

Yağır yağış kimi mərmilər yağır,
Göydə buludlar da qan ilə axır.
Bu yerlər, bu yerlər nə gözəldir, ah...
Bizə qələbəni nəsib et, Allah...



Hərbi paraddan bir görüntü



ELVİN İNTİQAMOĞLU

YAĞIŞ SUYU

"Müharibə xatirələri" ndən

QAYA 11

Taqım komandirim, şəhid
baş leytenant Emil Əsədova ithaf

Vətən eşqin şəhid etdi,
Amma səni öldürmədi...
Səndən qabaq şəhid oldu dostun,
cənab leytenant...
O oldu öldürən səni –
O xəbəri eşitdiyin zamandan etibarən
Susdun, cənab leytenant!

Biz Füzulidə üç saat mərmi altda qalanda,
Anan deyirdi: Allahım,
Sağ-salamat gəlsin Emil;
Atan qurban boyun aldı,
Torpaq səni qurban boyun alanda!
Çıxartdın mühasirədən polkovniki,

Üzün güldü
üzün əsgərlərə sarı dönəndə:
Oldun cənab baş leytenant –
Ulduzunun biri artdı
Bəxt ulduzun sönəndə!

Noyabrın yeddisi,
Xocavənd ərazisi:
Bir tərəfdə əsgərlərin döyüşdən çıxardığı
baş leytenant Əsədov...
bir tərəfdə yerə düşmüş rabitə:
– Qaya on bir... Qaya on bir...
Qaya on bir eşitmir!

ŞƏHİD ANASI

"Laylay dedim yatasan,
Qızıl gülə batasan..."
Qərənfil deməmişdi ki,
Qızılgül demişdi ana...

Yazan çox qısa yazdı –
İyirmi il çox azdı:
Oğlunun son ad günündə
Yüz yaş istəmişdi ana...

Ayın üçündə gəldi,
Bayraq içində gəld –
Əli bayraqlı əsgərin
Yolun gözləmişdi ana.

Çətindi övlad qəmi,
Solğunlaşıb görkəmi –
Nəyin qarşılığıydı bu,
Göyə neyləmişdi ana?

ŞƏHİD QIZI

Anan yalan danışır:
Atan evə qayıdanda
oyuncaq almayacaq –
Anan gündə oyuncaq gətirəcək,
Deyəcək – Atan alıb,
Atan ancaq almayacaq...

Anan yalan danışır:
Atan işdən gəlməyəcək –
Gözün qalmasın
qapıda səhərəcən.
Atan yatıb, sən də yat –
İşdən gəlsin yuxuna,
Evə gəlməyənədək...

Anan yalan danışır:
Atan gələn elçiləri
Qarşılaya bilməyəcək –
Toyunda qız atası
Ürəyindən keçənləri
Arzulaya bilməyəcək...

Anan yalan danışır:
Yalanlar da
atan kimi bir gün yoxa çıxacaq –
Sinif yoldaşların sənə
"Şəhid qızı" deyəcək...
Bilirsənmi nədi ən qəribəsi?
Tarix dərsində ağlaya-ağlaya
Yazacaqsan lövhəyə:
"İkinci Qarabağ müharibəsi..."



TAMERLAN ƏSƏDOV

***

Çox yorulmuşam, ana,
Bax, qayıtdım yanına.
Bir sığal çək başıma,
Bir az dinlə sən məni.

Danışım olanlardan,
Gördüyüm qəzalardan,
Cavan əsgər oğlunun
Vaxtsız qocalmağından.

Danışım Qarabağdan,
Şuşadan, Zəngilandan.
İşğaldan azad olan
O doğma torpaqlardan.

Qalib gəlsək də, ana,
Bir boşluq var içimdə.
Sanki şəhid olmuşam,
Vətən uğrunda mən də.

Neçə igid canavar
Canından keçdi burda.
Neçə şəhid anası
Nalə çəkir boş yurdda.

Gedəndə söz vermişdim,
Salamat qayıdacam.
Cəsədim qayıtmadı,
Ruhum qayıtdı, ana.

Qurban olum, ağlama,
Naləndən qanım donur.
Şəhidlik zirvəsi də
Hər kəsə nəsib olmur.



Üçrəngli bayrağımız Ağdamın Şelli kəndində



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Füzuli rayonunun Qaraxanbəyli kəndinin yaxınlığında şəhidlərimizin şərəfinə ucaldılmış abidənin önündə.
27 sentyabr 2022-ci il

Ali Baş Komandan İlham Əliyev qələbə sevincini xalqla bölüşür.





Prezident İlham Əliyev Ağdam şəhərinin bərpasının təməlqoyma mərasimində. 28 may 2021-ci il





Ali Baş Komandan İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkında. 12 aprel 2021-ci il





Xarıbülbül festivalı





Vaqif Poeziya Günləri

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Zəngilan rayonunun yenidən qurulmuş Ağalı kəndində. 21 oktyabr 2021-ci il



Yurda qayıdış. Ağalı kəndində. 20 iyul 2022-ci il



Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva "Laçın Şəhəri Günü" bayram tədbirində. 26 avqust 2023-cü il



Müğənnilər azad Laçında "Laçınım" mahnısını ifa edərkən. 26 avqust 2023-cü il



Ali Baş Komandan İlham Əliyev Xocalı rayonunun işğaldan azad edilmiş Çanaqçı və Sığnaq kəndlərində. 20 iyul 2023-cü il



Xocavənd rayonunda 27 Sentyabr Anım Gününə həsr olunmuş rəsmi tədbir. 27 sentyabr 2023-cü il



Ali Baş Komandan İlham Əliyev işğaldan azad edilmiş Sərsəng su anbarında üçrəngli bayrağımızı ucaldarkən. 15 oktyabr 2023-cü il





Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Xocavənd şəhərində. 15 oktyabr 2023-cü il




Ali Baş Komandan İlham Əliyev Əsgəran qalasında. 15 oktyabr 2023-cü il



Ali Baş Komandan İlham Əliyev Xocalı şəhərində. 15 oktyabr 2023-cü il



Ali Baş Komandan İlham Əliyev Xankəndi şəhərində Azərbaycan xalqına müraciət edərkən.
15 oktyabr 2023-cü il



Xankəndi şəhərindən görüntü

... onu da bildirməliyəm ki, bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt, heç vaxt unutmasınlar ki, "dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətindən. 20 sentyabr 2023-cü il



Dəmir yumruq yerindədir!



Laçın yolunda Azərbaycan Respublikasının sərhəd nəzarət məntəqəsi

ƏSGƏR MARŞI

Musiqisi **Cavanşir Quliyevin,**

sözləri **Əli Kaminindir.**

Vətən məni yetişdirib
Bu ellərə yolladı,
Bu torpağa qurban deyib
Allaha ismarladı.
"Boş oturma, çalış, – dedi,–
Xidmət eylə Vətənə.
Südüm sənə halal olmaz,
Sən baş əysən düşmənə".

Nəqərat

Marş irəli! Marş irəli!
Azərbaycan əsgəri!
Dönməz geri, dönməz geri
Azərbaycan əsgəri!

Yastığımız Vətən daşı,
Yorğanımız qar olsun.
Biz bu yoldan dönər olsaq,
Namus bizə ar olsun!
Nə gözəldir ölmək bizə
Sevimli Vətən üçün,
Yanar ürək yurd eşqilə
Daima için-için.

Nəqərat

Marş irəli! Marş irəli!
Azərbaycan əsgəri!
Dönməz geri, dönməz geri
Azərbaycan əsgəri!



Qələbə sevincinin təntənəsi

KİTABDAKILAR

Bir daha yüksələn bayraq (M.Çəmənli) 5

QƏDİM DÖVLƏTÇİLİK RƏMZLƏRİ

Albaniya dövləti 15
Şirvanşahlar dövləti 15
Eldənizlər dövləti 16
Qaraqoyunlu dövləti 17
Ağqoyunlular dövləti 18
Səfəvilər dövləti 19
Qarabağ xanlığı 23
Gəncə xanlığı 27
Şəki xanlığı 29
İrəvan xanlığı 32
Naxçıvan xanlığı 33
Bakı xanlığı 34
Təbriz və Xoy xanlıqları 36

ÖNCƏ VƏTƏNDİR

Abbasqulu ağa Bakıxanov 39
Rəşid bəy Əfəndiyev 39
Əli bəy Hüseynzadə 40
Abbas Səhhət 41
Məhəmməd Hadi 41
Abdulla Şaiq 43
Almas İldırım 43
Səməd Vurğun 44
Süleyman Rüstəm 45
Rəsul Rza 46
Məhəmmədhüseyn Şəhriyar 47
Balaş Azəroğlu 48
Qabil 49
Hökumə Biluri 49
Nəbi Xəziri 50
Tofiq Bayram 51
Məmməd Araz 53
Söhrab Tahir 54
Əliağa Kürçaylı 54
Musa Yaqub 55
Səyavuş Məmmədzadə 56
Məmməd İsmayıl 57
İsa İsmayılzadə 58
Şahmar Əkbərzadə 59
Çingiz Əlioğlu 60
Nüsrət Kəsəmənli 61
Rəşad Məcid 62

ÜÇRƏNGLİ BAYRAĞIMIZIN VƏSFİ

Hərb musiqisi 65
Əhməd Cavad 67
Müstəqillik uğrunda 69
Cəfər Cabbarlı 70
Əbdülxaliq Cənnəti 71
Azərbaycan SSR-in bayrağı 73
Bayraqdar Gültəkin ana 74
Bayraqdar Faiq Həsənov 75
Bəxtiyar Vahabzadə 76
Fikrət Qoca 76
Bayraqdar Natiq 79
Nəriman Həsənzadə 80
Sabir Rüstəmxanlı 83
Vahid Əziz 84
Ramiz Məmmədzadə 86
Vaqif Nəsib Sarıhüseynoğlu 87
Kəmalə 88
Adil Cəmil 89
Ramiz Qusarçaylı 90
Barat Vüsal 92
Vaqif Bəhmənli 94
Əbülfət Mədətoğlu 96
Rafiq Yusifoğlu 97
Xanım İsmayılqızı 101
Cəbrayıl Dövlət oğlu Dövlətzadə 103
Musa Ələkbərli 104

Zakir Fəxri 105
Akif Azalp 106
Rəfail Tağızadə 110
Ağalar Mirzə 112
Əli Rza Xələfli 112
Fərəc Fərəcov 114
Yusif Nəğməkar 115
Güləmail Murad 118
Əyyub Şırlanlı 119
Balayar Sadiq 121
Fəxrəddin Meydanlı 122
Dayandur Sevgin 124
Oktay Abdulla 127
Sədaqət Əhmədova 128
Əhməd Qəşəmoğlu 129
İslam Sadıq 130
Əsmət Məhsəti 131
Sevinc Nuruqızı 132
Əyyub Qiyas 133
Elnur Uğur 135
Şövkət Zərin Horovlu 138
İbrahim İlyaslı 141
Nəzakət Məmmədova 143
Şəhid Xudayar Yusifzadə 144
Şirvani Ədilli 145
Nəsib Nəbioğlu 146
Mina Rəşid 147
Aysel Nazimqızı 149
Eltun Türkel 150
Arif Nihat Asya 151
Narıngül Nadir 152
Zaur Ustac 154
Allahşükür Ağa 155
Oqtay Zəngilanlı 155
Rəşidə Allahverdiyeva 156
Seyran Cavadov 157
Simax Şeyda 158
Firad Fuadoğlu 160
Nəcməddin Mürvətov 161
Mehman Rəsulov 161
Əbülfət Zeynaloğlu 162
Aydın Murovdağlı 163
Aysel Fikrət 164
Nizami Muradoğlu 165
Nuranə Nihan 166
İsmayıl İmanzadə 167
Məhəmmədhəsən Məmmədov 169
Xanəli Kərimli 169
Ələddin Əzimli 170
İltimas Səmimi 171
Məmməd Əkbərli 174
Kamal Hüseynzadə 174
Zərəngiz Dəmirçi Qayalı 176

ŞƏHİD ŞAİRLƏR

Şahgündüz Habil oğlu Cabbarov 181
Xəyyam Hüseynağa oğlu Hüseynov 182
Mikayıl Yaqub oğlu Vahabzadə 183
Nazim Nadir oğlu Zəkarayev 184
Saleh Namiq oğlu Əliyev 185
Kərim Rövşən oğlu Əhmədəliyev 186
Samir Təyyub oğlu Şükürov 187
Nəcməddin Akif oğlu Savalanlı 188
Rasim Miryaqub oğlu Abdullayev 189

QAZİ ŞAİRLƏR

Emin Piri 193
Eyvaz Əyyub 194
Orxan Səlifov 195
Həsən Kür 196
Sərxan Yolçuyev 197
Sənan Ağaverdiyev 198
Cavid Əli oğlu 199
Nicat Ağayev 200
Oğuz Alparslan 202
Səbuhi Qurbanov 203
Kərəm Aydın 204
Tofiq Əhmədov 204
Elvin İntiqamoğlu 205
Tamerlan Əsədov 207
Fotoşəkillər 208

Bir daha yüksələn bayraq
(Albom-kitab)
Bakı
Təhsil Nəşriyyat-Poliqrafiya MMC

Dizaynerlər
Əziz Sadıqzadə
Təhmasib Mehdiyev

Korrektor
Mətanət Kərimli

Format 60x90 $^{1}/_{8}$. Fiziki çap vərəqi 28. Sifariş 169.

"Təhsil Nəşriyyat-Poliqrafiya" MMC-nin
mətbəəsində çap olunmuşdur.

Bakı, AZ1052, F. Xoyski küç., (121a) 149
e-mail: tahsil_az@yahoo.com
Tel.: (+994 12) 567-81-28/29